RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 32 (10052) 19 fevral 2026-cı il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# Dünyanın diqqəti yenə Vaşinqtona yönəlib

Prezident İlham Əliyev "France 24" kanalına müsahibəsində 2025-ci ilin avqustundan bəri sərhəddə stabil vəziyyətin hökm sürdüyünü, artıq qarşılıqlı ticarət və yükdaşımaların bərpası istiqamətində addımların atıldığını vurğuladı: "Tarixi sənədin Ağ Evdə Amerika Birləşmiş Ştatları Prezidentinin iştirakı ilə imzalanması o deməkdir ki, münaqişə bitib və biz daimi olacağına ümid etdiyimiz sülh dövrünə qədəm qoymuşuq. O vaxtdan bəri altı aydan çox müddət keçib və bizim Ermənistanla sərhəddə vəziyyət çox sakitdir. Artıq atəş açılmır, qurban vermirik, yaralananlar olmur. Beləliklə, görə bilərik ki, artıq sülhə nail olunub".

Prezident İlham Əliyev Azərbaycanın Cənubi Qafqazın sülh və təhlükəsizlik arxitekturasının formalaşdırılması üçün bütün zəruri addımları atdığını vurğulayıb. Prezidentimiz yekun sülh müqaviləsi ilə bağlı müzakirələrə və fikir ayrılıqlarına da aydınlıq gətirib və bu məsələyə birdəfəlik nöqtə qoyub. Azərbaycan Lideri açıq şəkildə bəyan edib ki, Ermənistan tərəfi ölkə konstitusiyasından Azərbaycana qarşı ərazi iddialarını çıxarmadan iki ölkə arasında yekun sülh müqaviləsi imzalana bilməz. Ölkə rəhbəri birmənalı diqqətə çatdırıb ki, Ermənistan konstitusiyasında dəyişiklik edilməsinin ertəsi günü dərhal yekun sülh sazişinə imza atmağa hazırıq: "Ermənistan konstitusiyasına lazımi dəyişikliklər edilməlidir. O dəyişikliklər edilən kimi ertəsi gün biz sülh müqaviləsini imzalaya bilərik. Amma buna baxmayaraq, hesab edirəm ki, artıq Ermənistan və Azərbaycan arasında sülh əldə edilib". Bu, rəsmi Bakının birmənalı mövqeyi, ədalətli tələbidir və bu mövqeyimiz dəfələrlə Ermənistan tərəfinə çatdırılıb.

Azərbaycanın regional liderlik strategiyası təkcə hərbi-siyasi qələbəyə deyil, həm də Avrasiyanın logistik xəritəsini yenidən formalaşdıran iqtisadi təşəbbüslərə söykənir. Bu xüsusda fevralın 14-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilən "Açıq dəhliz siyasəti? Trans-Xəzər əməkdaşlığının dərinləşdirilməsi" mövzusunda panel müzakirələrdə ölkəmizin gələcək baxışı belə ifadə olundu.

5

# Azərbaycanda müxtəlif dinlərin nümayəndələri əsrlər boyu harmoniya şəraitində yaşayıblar

Prezident İlham Əliyev Vaşinqtonda Amerika İsrail İctimai Əlaqələr Komitəsinin icraçı direktoru və digər rəhbər heyəti ilə görüşüb



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Vaşinqtonda keçiriləcək Sülh Şurasının ilk iclasında iştirak etmək üçün Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Trampın dəvəti ilə bu ölkədə işgüzar səfərdədir.

2

## N.Ə.Həsənzadənin "Heydər Əliyev" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında müstəsna xidmətlərinə görə Nəriman Əliməmməd oğlu Həsənzadə "Heydər Əliyev" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 fevral 2026-cı il*

# Siz xalqımızın poetik fikir xəzinəsinə dəyərli töhfələr bəxş etmiş söz ustasısınız

## Xalq şairi Nəriman Həsənzadəyə

Hörmətli Nəriman Həsənzadə!

Sizi - müasir Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsini 95 illiyiniz münasibətilə səmimi-qəlbdən təbrik edir, Sizə möhkəm cansağlığı arzulayırıq.

Siz milli ədəbiyyatın çoxəsrlik parlaq ənənələrinə sadiq qalaraq, özünəməxsus ifadə tərzi və dəst-xətinizlə xalqımızın poetik fikir xəzinəsinə dəyərli töhfələr bəxş etmiş söz ustasısınız. Ötən əsrin 50-ci illərində poeziya aləminə qədəm qoyduğunuz ilk vaxtlardan ədəbiyyatımıza yeni nəfəs gətirərək, geniş oxucu auditoriyasının xüsusi rəğbətini qazanmısınız.

Qayəsini Vətən məhəbbəti, milli azadlıq duyğuları, ənənəvi dəyərlərə bağlılıq və mənəvi ucalığa çağırış təşkil edən əsərləriniz Sizi həmişə ədəbi prosesin ön mövqelərində saxlamışdır. Həzinliyi və səmimiliyi, dil səlisliyi, axıcılığı və təbiiliyi ilə seçilən şeirlərinizdə müasirlərimizin hiss və düşüncələri öz dolğun bədii ifadəsini tapmışdır. Xalqın yaddaşının poeziyadakı əksi olan poema və mənzum pyeslərinizdə keçmişimizin uzaq və yaxın dövrlərinin taleyüklü mühüm hadisələrini və böyük şəxsiyyətləri tarixi həqiqətlər işığında dərin vətənpərvərlik və milli dövlətçilik ruhunda canlandırmısınız. Azərbaycan xalqının mübarizliyini və qəhrəmanlığını tərənnüm edən bu əsərlər teatr səhnələrində uğurla tamaşaya qoyulmuşdur.

Ədəbi şəxsiyyətinizlə vəhdətdə alim, pedaqoq və ictimai xadim kimi səmərəli fəaliyyətiniz Vətənə və xalqa ləyaqətlə xidmətin bariz nümunəsidir.

İnanırıq ki, milli məfkurəyə sədaqət və mənəvi saflıq aşılayan yaradıcılığınız gənc nəslin milli mənlik şüurunun formalaşmasında bundan sonra da əhəmiyyətli rol oynayacaqdır.

*Ən xoş arzularla,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

***Mehriban ƏLİYEVA,***
***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti***

*Bakı şəhəri, 18 fevral 2026-cı il*

# Azərbaycan Qambiya ilə münasibətlərin inkişafına böyük əhəmiyyət verir

## Qambiya Respublikasının Prezidenti zati-aliləri cənab Adama Barrouya





Hörmətli cənab Prezident!

Qambiya Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

Biz Azərbaycan ilə Qambiya arasında sağlam təməllər üzərində qurulmuş münasibətlərin inkişafına böyük əhəmiyyət veririk. Ölkələrimizin BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digər beynəlxalq təsisatlar və platformalar çərçivəsində səmərəli əməkdaşlığını xüsusi qeyd etmək istərdim.

İnanıram ki, dostluq əlaqələrimizin möhkəmləndirilməsi, həm ikitərəfli, həm də çoxtərəfli qaydada əməkdaşlığımızın genişləndirilməsi yolunda birgə səylərimizi bundan sonra da uğurla davam etdirəcəyik.

Bu xoş fürsətdən istifadə edərək müqəddəs Ramazan ayının başlaması münasibətilə də səmimi təbriklərimi çatdırır, Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Qambiya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 16 fevral 2026-cı il*

# İlham Əliyevin liderlik fenomeni

Prezident İlham Əliyevin qətiyyətli liderliyi və müstəqil siyasəti Azərbaycanı bütün sahələrdə zirvəyə daşıyıb. Qazanılan hərbi-siyasi və iqtisadi qələbələr ölkəmizin beynəlxalq nüfuzunu sarsılmaz edib. Bu gün Azərbaycan dünyada sözükeçən liderinin mövqeyi ilə hesablaşılan güclü bir dövlətdir.

Ölkəmizin rəhbərinin qlobal nüfuzu dünyanın dövlət başçıları tərəfindən mütəmadi olaraq etiraf edilir. İstər rəsmi müraciətlərdə, istərsə də yüksəksəviyyəli görüşlərdə Azərbaycan Prezidentinin müdrik siyasəti və liderlik keyfiyyətləri hər zaman xüsusi vurğulanır.

İlham Əliyevi dünyada ehtiram olunan liderə çevirən isə əlbəttə ki, onun ədalətə söykənən, sülhə dəstək olan müdrik və humanist siyasətidir. Ötən il avqustun 8-də Vaşinqtonda Azərbaycan-Ermənistan arasında sülh sazişinin mətni paraflananda ABŞ Prezidenti Donald Tramp da Prezident İlham Əliyevin bu şəxsi məziyyətlərinə vurğu etmişdi: "Siz güclü və ağıllı insansınız".

5





# Birinci vitse-prezident Mehriban Əliyeva Ramazan ayı münasibətilə paylaşım edib



# Azərbaycanda müxtəlif dinlərin nümayəndələri əsrlər boyu harmoniya şəraitində yaşayıblar

## Prezident İlham Əliyev Vaşinqtonda Amerika İsrail İctimai Əlaqələr Komitəsinin icraçı direktoru və digər rəhbər heyəti ilə görüşüb



*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, fevralın 18-də dövlətimizin başçısı Vaşinqtonda Amerika İsrail İctimai Əlaqələr Komitəsinin (AIPAC) icraçı direktoru Elliot Brandt və digər rəhbər heyəti ilə görüşüb.

Söhbət zamanı Amerika İsrail İctimai Əlaqələr Komitəsinin nümayəndə heyətinin ölkəmizə səfəri və dövlətimizin başçısı ilə görüşləri məmnunluqla xatırlandı.

Azərbaycanda bütün dinlərin və mədəniyyətlərin nümayəndələrinin bir ailə kimi sülh və mehribanlıq şəraitində yaşadıqlarını, bunun dünya üçün nümunə olduğunu deyən Elliot Brandt ölkəmizdə yəhudi icmasına dövlət səviyyəsində göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Dövlətimizin başçısı Azərbaycanda müxtəlif dinlərin nümayəndələrinin əsrlər boyu harmoniya şəraitində yaşadıqlarını vurğuladı, tolerant mühitin ölkəmiz üçün tarixən həyat tərzi olduğunu dedi.

Görüşdə Azərbaycanın dinlər və mədəniyyətlər arasında dialoq prosesinə qlobal səviyyədə verdiyi töhfələr yüksək qiymətləndirildi.

Söhbət zamanı, həmçinin Azərbaycan-ABŞ əlaqələrinə toxunuldu, Donald Trampın hakimiyyətə gəlməsindən sonra ölkələrimiz arasında münasibətlərin inkişaf etdiyi vurğulandı.

Bir müddət əvvəl Amerika Birləşmiş Ştatlarının vitse-prezidenti Cey Di Vensin ölkəmizə uğurlu səfərinə və "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın imzalanmasının əhəmiyyətinə toxunuldu. Bu xartiyada ölkələrimiz arasında ənənəvi əməkdaşlıq sahələri ilə yanaşı, süni intellekt və rəqəmsal transformasiya məsələlərinin də prioritet istiqamətlər kimi müəyyən edildiyi qeyd olundu.

Amerika İsrail İctimai Əlaqələr Komitəsinin Azərbaycan-ABŞ və Azərbaycan-İsrail ikitərəfli münasibətlərinin dərinləşdirilməsində rolu vurğulandı.

Görüşdə ölkəmizlə bu təşkilat arasında əməkdaşlığın perspektivləri və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Prokurorluq əməkdaşlarına və media qurumlarına mükafatlar təqdim olunub





**Fevralın 18-də "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995-2025)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif edilmiş, Baş Prokurorluqda xidməti vəzifələrini nümunəvi icra etdiklərinə görə Azərbaycan Respublikasının baş prokuroru tərəfindən həvəsləndirilmiş, habelə "İlin ən yaxşı müstəntiqi", "İlin ən yaxşı dövlət ittihamçısı" və "İlin ən yaxşı prokuroru" müsabiqələrinin qalibi olmuş prokurorluq işçilərinə, eləcə də "Prokurorluğun dostu" mükafatına layiq görülmüş media nümayəndələrinə mükafatların təqdim olunması ilə bağlı tədbir keçirilib.**

Əvvəlcə müasir Azərbaycanın memarı Ümummilli Lider Heydər Əliyevin, I Qarabağ, 44 günlük Vətən müharibələri və Qarabağ iqtisadi rayonunda keçirilmiş antiterror tədbirləri zamanı Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi uğrunda canından keçmiş şəhidlərimizin, həlak olmuş vətəndaşlarımızın əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən baş prokuror Kamran Əliyev tərəfindən geridə qalan 2025-ci ilin ölkəmiz üçün uğurlu olmaqla yanaşı, çoxsaylı əlamətdar hadisələrlə yadda qalması qeyd edilib, Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu praqmatik siyasi kursun möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən müdrik şəkildə davam etdirilməsi nəticəsində ölkəmizin sürətli hərtərəfli inkişafının davam etməsi, suverenliyimizin və ərazi bütövlüyümüzün beynəlxalq aləmdə təsdiq olunması, avqustun 8-də Amerika Birləşmiş Ştatlarının paytaxtı Vaşinqton şəhərində Ermənistan Respublikası ilə sülh müqaviləsinin paraflanması qeyd olunub.

Xüsusilə vurğulanıb ki, 2026-cı ilin əvvəllərində ölkəmizə yüksəksəviyyəli xarici qonaqların səfərləri baş tutmaqla yanaşı, Prezident İlham Əliyevin rəhbərliyi və onun ən yaxın silahdaşı, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yaxından iştirakı ilə qalib dövlətin qalib lideri kimi nüfuzlu beynəlxalq tədbirlər olan Davos İqtisadi Forumu və Münxen Təhlükəsizlik Konfransında uğurlu və yüksəksəviyyəli görüşlər keçirilib.

Mərasim zamanı, Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi sədrinin 19 yanvar 2026-cı il tarixli sərəncamı ilə "Azərbaycan Respublikası Konstitusiyasının 30 illiyi (1995-2025)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif edilmiş Azərbaycan Respublikası baş prokurorunun birinci müavini və müavinlərinə, habelə baş prokurorun müvafiq əmri ilə xidməti vəzifələrini nümunəvi icra etməsinə görə həvəsləndirilmiş prokurorluq əməkdaşlarına mükafatlar təqdim olunub.

Daha sonra "İlin ən yaxşı müstəntiqi", "İlin ən yaxşı prokuroru" və "İlin ən yaxşı dövlət ittihamçısı" müsabiqələrinin təşkili və keçirilmə qaydaları barədə müvafiq olaraq baş prokurorun birinci müavini Elçin Məmmədov, baş prokurorun müavinləri Elmar Camalov və Heydər Məmmədov çıxış edərək ətraflı məlumatlar veriblər.

Müsabiqələrin nəticələrinə əsasən "İlin ən yaxşı müstəntiqi" seçilmiş Baş Prokurorluğun İstintaq İdarəsinin xüsusilə mühüm işlər üzrə müstəntiqi Məhərrəm Məmmədova, "İlin ən yaxşı dövlət ittihamçısı" seçilmiş Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin rayon (şəhər) məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin Şəki Apellyasiya Məhkəməsinin yurisdiksiyasına aid olan birinci instansiya məhkəmələri üzrə prokuroru (Balakən rayon məhkəməsi üzrə) Gültac İsgəndərliyə və "İlin ən yaxşı prokuroru" seçilmiş Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsinin böyük prokuror-metodisti Nazim Xəlilova baş prokuror tərəfindən diplom və mükafatlar təqdim olunub.

Bundan başqa, tədbir çərçivəsində "Prokurorluğun dostu" təltifinə layiq görülmüş media qurumlarına mükafatların təqdim edilməsi mərasimi keçirilib.

Diqqətə çatdırılıb ki, prokurorluq orqanları tərəfindən cəmiyyətdə formalaşan yeni çağırışlara adekvat uyğunlaşma, o cümlədən vətəndaş məmnunluğunun və fəaliyyətdə aşkarlığın, hesabatlılığın və şəffaflığın təmin olunması məqsədilə media ilə işgüzar əlaqələrin möhkəmləndirilməsi prioritet vəzifələrdən biri hesab edilir.

Qeyd edilib ki, həmin tədbirlər çərçivəsində 2025-ci ilin yekunlarına əsasən prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı aşkarlıq və hesabatlılığın ictimaiyyətə operativ şəkildə çatdırılması, prokurorluq orqanları ilə media arasında operativ və səmərəli kommunikasiyanın qurulmasında fərqlənən "İki sahil" qəzetinin baş redaktoru, Azərbaycan Respublikasının Milli Məclisinin deputatı Vüqar Rəhimzadə, "ARB 24" xəbər telekanalının direktoru Radik İsmayılov, "operativmedia.az" xəbər portalının rəhbəri Fərrux Qocamanlı, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin İnformasiya proqramları studiyasının redaktoru Südabə Cahangirli, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin İctimai-siyasi proqramlar redaksiyasının ali dərəcəli rejissoru Rəhimə Mirzəyeva, "Azərbaycan Dövlət İnformasiya Agentliyi"nin (AZƏRTAC) baş buraxılış redaktoru Pərvin Abbasov və Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) fotoqrafı Vüqar İbadov "Prokurorluğun dostu" mükafatı ilə təltif olunublar.

Təltif olunan şəxslər göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildirib, prokurorluq orqanları ilə səmərəli əməkdaşlığın bundan sonra da uğurla inkişaf etməsi naminə çalışacaqlarını ifadə ediblər.

# Dirçələn Ağdam Qarabağın quruculuğunun möhtəşəm təcəssümüdür

**Uzun illər işğalın və dağıntının ağrısını yaşamış Ağdam şəhəri bu gün Qarabağın dirçəliş salnaməsində xüsusi yer tutur. İşğaldan azad edildən sonra "ruhlar şəhəri" adlandırılan bu tarixi məkan indi müasir urbanizasiya nümunəsi kimi yenidən qurulur, doğma torpaqlarından didərgin düşmüş insanların qayıdışı ilə həyat tədricən bərpa olunur.**






Dövlətin həyata keçirdiyi genişmiqyaslı yenidənqurma və bərpa işləri çərçivəsində Ağdam yalnız fiziki olaraq deyil, sosial, iqtisadi və mədəni baxımdan da yeni mərhələyə qədəm qoyur.

Prezident İlham Əliyev 2025-ci il dekabrın 24-ü Ağdam şəhərində 2-ci yaşayış kompleksinin açılışı zamanı sakinlərlə görüşündə vurğulayıb ki, uzun illər məcburi köçkün həyatı yaşamış insanlar artıq təhlükəsiz və rahat şəraitdə yaşamağa layiqdirlər. Azad edilmiş ərazilərdə müasir şəhər və kəndlərin salınması "Böyük qayıdış" proqramının real nəticələrini nümayiş etdirir və bu proses dövlət siyasətinin əsas prioritetlərindən biridir. Dövlət başçısının sözlərinə görə, həyata keçirilən quruculuq işləri qısa müddətdə əldə edilən böyük uğurların göstəricisidir və bu işlər ümumxalq səyləri sayəsində mümkün olub.

2020-ci ildə qazanılan Zəfər üç onillik əsarətdə qalan digər ərazilərimiz kimi Ağdamın da taleyini dəyişdi. Bir güllə belə atılmadan geri qaytarılan rayonda dərhal bərpa və yenidənqurma işlərinə başlanıldı. Qısa müddət ərzində infrastrukturun qurulması, yolların çəkilməsi, kommunikasiya xətlərinin bərpası və yaşayış komplekslərinin inşası paralel şəkildə həyata keçirildi. Şəhərin ilk təməl daşı 2021-ci il mayın 28-də qoyuldu. İşğal dövründə tamamilə dağıdılmış şəhərin dirçəldilməsi həm tarixi ədalətin bərpası, həm də Azərbaycanın iqtisadi gücünün nümayişi idi. Bir vaxtlar yerlə yeksan edilərək xarabalığa çevrilmiş şəhər artıq ölkənin dirçəliş simvollarından biridir.

Ötən ilin son ayı açılışı reallaşdırılan 13 hektardan artıq ərazini əhatə edən ikinci yaşayış kompleksi 11 məhəllədən ibarətdir. Burada 60 yaşayış binası inşa olunub. Ümumilikdə 1268 mənzili əhatə edən kompleksdə birotaqlıdan dördotaqlıyadək müxtəlif planlaşdırmaya malik mənzillər mövcuddur. Müasir standartlara uyğun tikilən binalar sakinlərin rahat və təhlükəsiz yaşayışını təmin etmək məqsədi daşıyır.

Ağdamın bərpası yalnız yaşayış binalarının tikintisi ilə məhdudlaşmır. Rayon ərazisində mühüm infrastruktur və mədəni obyektlər istifadəyə verilir. Şəhərin sənaye potensialının inkişaf etdirilməsi istiqamətində planlar hazırlanır və Ağdamın gələcəkdə Bakı, Sumqayıt və Gəncədən sonra ölkənin dördüncü sənaye mərkəzinə çevriləcəyi gözlənilir. Bu istiqamətdə sənaye zonalarının yaradılması, logistika imkanlarının genişləndirilməsi və yeni istehsal sahələrinin qurulması nəzərdə tutulur.

Tarixi və dini abidələrin bərpası da görülən işlərin mühüm tərkib hissəsidir. Ağdam Cümə məscidi azad edilmiş ərazilərdə bərpaolunan ilk dini abidələrdən biri kimi yenidən istifadəyə verilib. Bununla yanaşı, Qiyaslı məscidi və "İmarət" kompleksi də bərpa edilərək regionun mədəni irsinin qorunmasına mühüm töhfə verib. Bu abidələrin yenidən bərpası yalnız dini və tarixi əhəmiyyət daşımır, həm də milli kimliyin və yaddaşın qorunması baxımından da böyük önəm kəsb edir.

Dövlət başçısı Ağdama köç edən sakinlərlə görüşü zamanı görülən işlərin miqyasına xüsusi diqqət çəkərək qeyd edib ki, cəmi beş il ərzində yaradılan infrastruktur və yaşayış məntəqələri ölkənin potensialını və xalqın birliyini göstərir. Onun sözlərinə görə, azad edilmiş ərazilərə edilən mütəmadi səfərlər və birbaşa nəzarət həyata keçirilən layihələrin yüksək keyfiyyətlə icrasını təmin edir.

Uzun fasilədən sonra doğma yurdlarına qovuşan insanların sayı gündən-günə artır. Hazırda 6947 ailə, yəni 27829 nəfər keçmiş məcburi köçkün öz doğma torpaqlarında yaşayır. Məskunlaşma prosesi 8 şəhər, 3 qəsəbə və 26 kəndi əhatə edir. 2026-cı ilin sonunadək "Böyük qayıdış" proqramının birinci mərhələsinin tamamlanması ilə Qarabağ və Şərqi Zəngəzura 140 min nəfərin, başqa sözlə, 34500 ailənin qayıtması planlaşdırılır.

Ağdam şəhəri də bu qayıdış prosesinin əsas ünvanlarından biridir. Fevralın 17-də şəhər ikinci köç karvanını qarşılayıb. Bu mərhələdə 419 nəfər (120 ailə) yeni mənzillərinə köçürülüb. Bununla da şəhərdə məskunlaşan sakinlərin sayı 223 ailəyə, 824 nəfərə çatıb. Bu rəqəmlər Ağdamın həyatının sürətlə bərpa olunduğunu və insanların doğma torpaqlarına qayıdışının real xarakter aldığını göstərir.

Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa işlərinin əsas prinsipi müasir standartlara cavab verən yaşayış məntəqələrinin yaradılmasıdır. Bu yanaşma yalnız yaşayış evlərinin tikilməsi ilə kifayətlənmir, eyni zamanda sosial infrastrukturun formalaşdırılmasını da nəzərdə tutur. Məktəblər, uşaq bağçaları, tibb müəssisələri, mədəniyyət ocaqları və ictimai xidmət obyektləri yeni yaşayış məhəllələrinin ayrılmaz hissəsi kimi layihələndirilir.

Ağdam şəhərində tikinti prosesi mərhələli şəkildə davam edir. Hazırda beşinci yaşayış kompleksinin inşasına başlanılıb. Ümumilikdə 12 məhəllədən ibarət olacaq kompleks üzrə 50 bina layihələndirilib. Onlardan 40-ı yaşayış, 10-u isə qeyri-yaşayış təyinatlıdır. Kompleksdə 1074 mənzilin yerləşməsi planlaşdırılır və mənzillər müxtəlif ölçülü olacaq. Yaxın vaxtlarda üçüncü yaşayış kompleksində də tikinti işlərinə başlanması nəzərdə tutulur. Bu kompleks 13 məhəlləni əhatə edəcək.

Bununla yanaşı, Ağdam şəhərində inzibati və ictimai təyinatlı obyektlərin tikintisi də planlaşdırılır. Ağdam Cümə məscidinin yardımçı tikililəri, çoxfunksiyalı inzibati bina və digər sosial obyektlərin inşası şəhərin funksional imkanlarını genişləndirəcək və burada dayanıqlı yaşayış mühitinin formalaşmasına töhfə verəcək.

Şəhərdə həyata keçirilən layihələr Ağdamı regionun iqtisadi, sosial və mədəni mərkəzlərindən birinə çevirməyə yönəlib. Müasir planlaşdırma prinsipləri, yaşıl zonaların yaradılması, dayanıqlı enerji həlləri və "ağıllı şəhər" elementlərinin tətbiqi Ağdamın gələcək inkişaf modelinin əsasını təşkil edir. Bu yanaşma şəhərin yalnız bugünkü deyil, gələcək nəsillər üçün də komfortlu yaşayış məkanına çevrilməsini təmin edəcək.

Ağdamda aparılan genişmiqyaslı quruculuq işləri Azərbaycanın müasir tarixində bənzəri olmayan bir yenilənmə prosesinin parlaq nümunəsidir. Keçmiş məcburi köçkünlərin yurdlarına qovuşması, yeni yaşayış komplekslərinin inşası, tarixi abidələrin bərpası və sosial infrastrukturun qurulması şəhərin həyatının tam bərpasına doğru atılan mühüm addımlardır. Doğma yurduna qayıdan hər bir ailə ilə Ağdamın küçələri yenidən nəfəs alır və şəhər öz ruhunu geri qaytarır. Bütün bunlar göstərir ki, Ağdamın dirçəlişi yalnız bir şəhərin yenidən qurulması deyil, bütövlükdə milli qürurun, tarixi ədalətin və gələcəyə inamın təntənəsidir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*



# Tiranada MAMA "Ana təbiət" beynəlxalq incəsənət sərgisi açılıb

## Leyla Əliyeva və Arzu Əliyeva tədbirdə iştirak ediblər













**Tiranada Albaniyanın Baş nazirinin iqamətgahında MAMA "Ana təbiət" beynəlxalq incəsənət sərgisi açılıb.**

AZƏRTAC xəbər verir ki, sərginin açılışında Leyla Əliyeva və Arzu Əliyeva iştirak ediblər.

Tədbirdə çıxış edən Leyla Əliyeva ekspozisiyada yer alan rəsmlər, heykəllər və instalyasiyalar vasitəsilə sənətkarların təbiətin gücünü, gözəlliyini və kövrəkliyini nümayiş etdirdiyini vurğulayıb. O, bu sərginin təbiəti qorumaq məqsədilə sənətimizin sərhədləri aşmasının mükəmməl bir nümunəsi olduğunu qeyd edib.

Sərgi haqqında məlumat verən Leyla Əliyeva mənəvi zənginliyi və səmimiyyəti ilə seçilən gözəl ölkədə olmaqdan məmnunluğunu ifadə edərək deyib: "Azərbaycan və Albaniyanı siyasi sərhədləri aşan sıx dostluq və dərin münasibətlər birləşdirir. Ölkələrimiz müasir dünyada böyük ehtiyac duyulan humanizm, xeyirxahlıq, ləyaqət və qarşılıqlı hörmət kimi ali dəyərləri paylaşır".

O, həmçinin Baş nazir Edi Ramanın və tanınmış alban rəssamı Arben Qoleminin əsərlərinin bu sərgidə təqdim olunmasının onun üçün böyük şərəf olduğunu, bu gün burada Bakıdan olan dörd rəssamın iştirak etməsindən və onların öz müsbət təcrübələrini bölüşərək yaradıcılıqları haqqında şəxsən məlumat vermək imkanından böyük məmnunluq duyduğunu qeyd edib.

Leyla Əliyeva bəşəriyyətin təbiətə vurduğu zərərdən də söz açaraq deyib: "Hər il dünyada 10 milyon hektar meşə sahəsi məhv edilir. İnsanlıq vəhşi heyvanların 83 faizini, bitkilərin isə yarısını yox edib. Hər il planetimizdən 200 canlı növü silinir və okeanların 66 faizi birbaşa insan fəaliyyətinin mənfi təsirlərinə məruz qalır. Azərbaycanın zəngin ekosistemi də bu proseslərdən kənarda qalmır. Xəzər dənizinin səviyyəsi xeyli aşağı düşüb. Xəzər suitisi, qızıl balıq və nərə balığı kimi heyrətamiz canlı növləri yox olmaq təhlükəsi ilə üzləşib".

Albaniyanın Baş naziri Edi Rama sərgidə Leyla Əliyevanın əsərləri də daxil olmaqla, təbiətin mühafizəsi ilə incəsənətin vəhdətini nümayiş etdirən rəsmləri görməkdən şərəf duyduğunu qeyd edib. Baş nazir bu sərginin iki ölkənin dostluğunda yeni bir səhifə açaraq, bura mədəniyyət və yaradıcılıq ruhu gətirdiyini söyləyib. Edi Rama sərginin davam etdiyi bir ay ərzində hər bir tamaşaçının buradan özü ilə rənglərin və xəyalların bir parçasını aparacağını bildirib.

Sonra qonaqlar sərgidə nümayiş olunan əsərlərlə tanış olublar.

AZƏRTAC-ın müxbiri ilə həmsöhbət olan Xalq rəssamı Elena Haqverdiyeva Tirananın çox gözəl və unudulmaz təəssürat yaratdığını qeyd edərək, sərgidə nümayiş olunan əsərinin "Daxili bağlar" adlandığını diqqətə çatdırıb. "Bu kompozisiyada xalça motivləri ilə vəhşi təbiət elementlərini bir araya gətirmişəm. Bu sənət işi hər birimizin daxili dünyasında, qəlbində "böyüyən" mənəvi bağlardan bəhs edir", - deyə Xalq rəssamı əlavə edib.

Sərgidə əsəri nümayiş olunan rəssam Nərgiz Quliyeva MAMA "Ana təbiət" beynəlxalq incəsənət sərgisində iştirak etməkdən böyük şərəf duyduğunu bildirib. O, burada təqdim olunan əsərində afrikalı bir qadını təsvir etdiyini söyləyib. "Müxtəlif mədəniyyətlər və milli geyimlər hər zaman diqqətimi çəkdiyi üçün yaradıcılığımda bu mövzuya dəfələrlə müraciət etmişəm. Bu əsərimdə də məhz afrikalı bir ananı canlandırmışam", - deyə N.Quliyeva diqqətə çatdırıb.

Sərgidə təqdim etdiyi əsərlərin mikroorqanizmlərin sirli dünyasına həsr olunduğunu qeyd edən rəssam Elnarə Nəsirli yalnız mikroskopla seçilə bilən, gözlərimizdən gizlənən o möhtəşəm kainatı tamaşaçıya çatdırmaq istədiyini bildirib. O, abstrakt formaların dili ilə bu görünməz aləmin hüdudsuz zənginliyini və mürəkkəbliyini nümayiş etdirməyə çalışdığını söyləyib.

Bu layihədə iştirak etməyin onun üçün qürurverici olduğunu diqqətə çatdıran rəssam Ceyhun Abdullayev sərgilənən əsərinin "Yeni həyat" adlandığını bildirib: "Burada hamilə qadın obrazı təsvir olunub. Arxa fonda təbiət təsvirlərinə yer vermişəm, çünki övlad dünyaya gətirməyin özü elə yeni bir həyatdır. Hesab edirəm ki, həm təbiətə, həm də incəsənətə olan sevgini birləşdirən bu layihə ölkələrimiz arasındakı mədəni əlaqələrin inkişafına mühüm töhfə verəcək".

# Ötən il qeyri-neft sektorunda ixracın dəyəri 8,1 faiz artaraq 3,6 milyard dollara çatıb

## Azərbaycan 2025-ci ildə 128 ölkəyə məhsul ixrac edib

**Neft sənayesi Azərbaycan iqtisadiyyatında aparıcı sahə olub və bu gün də ölkənin gəlirlərinin formalaşmasında çəkisi yüksək olaraq qalır. Lakin hasilatın azalması səbəbindən bu sahədə artım və gəlirlər müəyyən qədər azalıb.**



Belə bir halın qarşısının alınması üçün illər öncə lazımi tədbirlər görülüb. Prezident İlham Əliyevin təşəbbüsü ilə icra edilən islahatlar sayəsində inkişaf edən qeyri-neft sektoru formalaşıb. Bu hesaba ötən il də neft-qaz sənayesindən fərqli olaraq qeyri-neft sektorunda yüksək artım müşahidə edilib.

Qeyri-neft-qaz sektorunda, o cümlədən sənayesində olan artım dövlət büdcəsinin formalaşmasına müsbət təsir göstərir. Son bir neçə ilin rəqəmlərinə baxdıqda görürük ki, büdcə gəlirlərində qeyri-neft gəlirlərinin çəkisində dinamik artım var. Bunun başlıca səbəblərindən biri qeyri-neft məhsullarının ixracında artımın davamlı xarakter almasıdır.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin nəşr etdiyi "İxrac icmalı"nın 2026-cı ildəki ilk buraxılışı ötən ilin yekunlarına həsr edilib. İcmala əsasən, 2025-ci ildə Azərbaycanın qeyri-neft sektoru üzrə ixracının dəyəri 2024-cü illə müqayisədə 8,1 faiz artaraq 3,6 milyard dollar olub.

Ötən il aqrar məhsullar üzrə ixracın dəyəri 26,7 faiz artaraq 1 milyard, aqrar-sənaye məhsulları üzrə isə 314,7 milyon dollara bərabər olub. Bütövlükdə 2025-ci ildə qeyri-neft-qaz məhsullarının ixracının dəyəri 3,6 milyard dollar təşkil edib. Həmin dövrdə yeyinti məhsullarının ixracının dəyəri 1,2 milyard, aqrar və aqrar sənaye məhsullarının birgə ixracı isə 18,9 faiz artaraq 1,3 milyard dollar olub. Qeyd olunan dövrdə ixrac edilmiş qeyri-neft sektoruna aid malların siyahısında qızıl birinci, pomidor (tomat) ikinci, karbamid isə üçüncü yerdə qərarlaşıb. Bəzi məhsullar mövsümlə əlaqədar olaraq önə keçə bilir. Məsələn, 2025-ci ilin dekabr ayı ərzində ixrac edilən qeyri-neft sektoruna aid məhsulların siyahısında xurma birinci olub. Bu siyahıda qızıl ikinci, qabığı təmizlənmiş meşə fındığı isə üçüncü qeydə alınıb. Ötən il ən çox qeyri-neft sektoruna aid məhsul Rusiya Federasiyasına, Türkiyəyə, Gürcüstana, İsveçrəyə, Ukraynaya ixrac olunub.

2025-ci ilin yanvar-dekabr ayları üzrə hazırlanmış qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti "nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, "Prime Cotton" MMC, "Baku Steel Company" QSC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, TABATERRA QSC, "STP Alüminium" MMC, "Export Stream" MMC, P-AQRO MMC, KHANEL MMC, AGRARCO MMC təmsil ediliblər. Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına isə ARDNŞ-nin Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi başçılıq edir. Daha sonra siyahıda "SOCAR Polymer" MMC, "AzerGold" QSC, "Azəralüminium" MMC, Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Qaz İxrac İdarəsi, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "SOCAR-Dalğıc" MMC, "İstisu" mineral su zavodu MMC, "Azərbaycan Dəmir Yolları" QSC, SOCAR CAPE MMC yer alıblar.

2025-ci ildə Azərbaycan Respublikasının Kosmik Agentliyi ("Azərkosmos") 18,1 milyon dollar dəyərində telekommunikasiya xidməti ixrac edib. Ötən il "Azərkosmos" dünyanın 43 ölkəsinə 18,1 milyon dollar dəyərində peyk telekommunikasiya xidmətləri göstərib. "Azərkosmos"un xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 66 faizini təşkil edib. Keçən ilin dekabr ayında isə "Azərkosmos" dünyanın 35 ölkəsinə 1,7 milyon dollar dəyərində xidmət göstərib. Hesabat dövründə peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində olan ölkələr - Birləşmiş Krallıq, Lüksemburq, İsveç, Türkiyə və Nigeriyadır.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin "İxrac icmalı"nda bildirilir ki, cari ilin yanvar ayında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracının dəyəri 2025-ci ilin müvafiq dövrü ilə müqayisədə 9 faiz artaraq 268,4 milyon dollar təşkil edib. Ötən ay yeyinti məhsulları üzrə ixrac 22,6 faiz artaraq 103 milyon dollara bərabər olub.

Ötən ay ixrac olunan şəkər 2025-ci ilin ilk ayına nisbətən 169,3, pambıq iplik 137,6, bitki və heyvan mənşəli piylər və yağlar 90,8, alüminium və onlardan hazırlanan məmulatlar 39,5, meyvə-tərəvəz 32,1, pambıq lifi 23,2, çay 20,9, spirtli və spirtsiz içkilər 14,2 faiz artıb. Yanvar ayında aqrar məhsullar üzrə ixracın dəyəri 85,7 milyon, aqrar-sənaye məhsulları üzrə 21,9 milyon dollara bərabər olub. Bütövlükdə, aqrar və aqrar-sənaye məhsullarının birgə ixracının dəyəri 23,8 faiz artaraq 107,6 milyon dollara çatıb.

Bu günlər Dövlət Statistika Komitəsi də keçən ilin xarici ticarət üzrə rəqəmlərini açıqlayıb. Bildirilir ki, 2025-ci ildə Azərbaycan 180 ölkə ilə ticarət əməliyyatları həyata keçirib. 128 ölkəyə məhsul ixrac, 173 ölkədən idxal olunub.

Ötən il gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla, ölkənin xarici ticarət dövriyyəsinin dəyəri 48 milyard 905,8 milyon dollar təşkil edib. Ticarət dövriyyəsinin 24 milyard 526,1 milyon dollarını (50,1 faizini) ixrac, 24 milyard 379,7 milyon dollarını (49,9 faizini) idxal məhsullarının dəyəri təşkil edib və nəticədə 146,4 milyon dollar məbləğində müsbət saldo yaranıb. 2024-cü illə müqayisədə xarici ticarət dövriyyəsi faktiki qiymətlərlə 3,2 faiz artıb, real ifadədə isə 8,6 faiz, o cümlədən idxal 8,5, ixrac 8,7 faiz azalıb.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Maliyyə Nazirliyində Kollegiya iclası keçirilib



**Fevralın 18-də Azərbaycan Respublikası Maliyyə Nazirliyində keçirilən növbəti Kollegiya iclasında Dövlət Borcunun və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyi tərəfindən 2025-ci ildə görülmüş işlər və növbəti dövr üçün qarşıda duran vəzifələr, nazirlikdə hazırlanmış hüquqi akt layihələrinə baxılması, razılaşdırılması və təqdim edilməsi üzrə icra vəziyyəti, eləcə də cari məsələlər müzakirə olunub.**

Nazirliyin struktur bölmələri və tabeliyindəki qurumların rəhbərlərinin iştirakı ilə keçirilən iclasda maliyyə naziri, Kollegiyanın sədri Sahil Babayev bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə həyata keçirilən uğurlu və məqsədyönlü siyasət ölkəmizin hərtərəfli inkişafına, sosial-iqtisadi sahədə dayanıqlı artımın və makroiqtisadi sabitliyin təmin olunmasına mühüm töhfə verir. Bu amillər dövlət büdcəsinin icrasına da müsbət təsir göstərərək, həm gəlir və xərclər üzrə proqnozların tam yerinə yetirilməsinə, həm də fiskal intizamın qorunmasına və maliyyə mövqelərimizin daha da möhkəmlənməsinə şərait yaradır.

S.Babayev bildirib ki, 2022-2025-ci illər üzrə yenilənmiş Borc Strategiyası ilə müəyyən edilən strateji məqsədlərə tam nail olunub, ümumi dövlət borcunun ÜDM-ə nisbətinin 30 faizdən aşağı saxlanılması, xarici dövlət borcunun 10 milyard ABŞ dollarını üstələməməsi kimi müəyyən edilən prioritet tədbirlər gözlənilib. Bununla yanaşı, 2025-ci ilin sonunadək faiz dərəcəsi riskinin məqbul həddə saxlanılması üçün dəyişkən faiz dərəcəsi ilə cəlb olunan borcun ümumi portfeldə payının 50 faizi keçməməsi, daxili borcalmanın genişləndirilməsi, bunun müqabilində xarici dövlət borcunun tədricən azaldılması, dövlət qiymətli kağızlarının orta ödəniş müddətinin mərhələli şəkildə uzadılması təmin edilib.

İclasda Dövlət Borcunun və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyi tərəfindən 2025-ci ildə görülmüş işlər və qarşıda duran vəzifələr üzrə məruzə dinlənilib. Qeyd olunub ki, 1 yanvar 2026-cı il tarixinə Azərbaycan Respublikasının dövlət borcunun ümumi məbləği 25.987,5 milyon manat təşkil edərək ÜDM-in 20,1 faizinə bərabər olub və ilin əvvəli ilə müqayisədə 5,1 faiz və ya 1.392,7 milyon manat azalıb. Dövlət borcunun 31,5 faizi xarici, 68,5 faizi isə daxili borcun payına düşür. Dövlət zəmanətli borcların həcmi də azalaraq 10.368,4 milyon manat və ya ÜDM-in 8,0 faizi səviyyəsində qərarlaşıb.

Hesabat ilində xəzinə vəsaitlərindən səmərəli istifadə nəticəsində dövlət borcuna xidmət xərclərinə 300,1 milyon manat qənaət edilib, eyni zamanda həyata keçirilən təkrar maliyyələşdirmə əməliyyatları çərçivəsində qısamüddətli istiqrazlar uzunmüddətli istiqrazlarla əvəz olunaraq borc portfelinin strukturunda müsbət dəyişiklik təmin edilib. Dövlət istiqrazları üzrə orta ödəmə müddəti əhəmiyyətli səviyyədə artaraq 3,3 il təşkil edib.

Məlumat verilib ki, funksional fəaliyyətinə uyğun olaraq agentlik tərəfindən dövlət borcalması həyata keçirilir, borc üzrə uçot və hesabatlılıq təmin edilir, təhlillər aparılır. Ötən il ərzində beynəlxalq maliyyə institutları ilə təqribən 235 milyon ABŞ dolları ekvivalentində yeni kredit sazişləri təsdiqlənib. Eyni zamanda ölkənin suveren kredit reytinqinin qiymətləndirilməsi üçün beynəlxalq reytinq agentlikləri ilə əməkdaşlıq digər aidiyyəti dövlət orqanları ilə koordinasiyalı şəkildə həyata keçirilməsi təmin edilib.

Kollegiyanın sədri dövlət borcunun idarə olunması sahəsində beynəlxalq təcrübənin tətbiqinin genişləndirilməsi, 2026-2030-cu illəri əhatə edəcək "Dövlət borcunun idarə edilməsinə dair Strategiya" sənədinin hazırlanması və agentliyin fəaliyyət istiqamətlərinə uyğun olaraq bir sıra hüquqi institusional çərçivələrin təkmilləşdirilməsi ilə bağlı müvafiq tapşırıqlar verib.

Kollegiya iclasında Maliyyə Nazirliyinə daxil olmuş və nazirlikdə hazırlanmış hüquqi akt layihələrinə baxılması, razılaşdırılması və təqdim edilməsi üzrə icra vəziyyəti barədə məruzə dinlənilib. Bildirilib ki, Maliyyə Nazirliyi normayaratma fəaliyyətinin subyekti kimi hüquqi akt layihələrinin hazırlanması, ekspertizası, qəbul olunması, dəyişikliklər edilməsi və bu aktların ləğv edilməsi prosesində iştirak edir. 2025-ci il ərzində nazirliyə dövlət orqanlarından daxil olmuş 1248 hüquqi akt layihəsinə müvafiq qaydada baxılıb, eyni zamanda nazirliyin təşəbbüsü və yuxarı dövlət orqanlarının tapşırıqları əsasında 150 hüquqi akt layihəsi hazırlanıb. Onlardan 43-ü qanun, 50-si fərman, 4-ü Prezident sərəncamı, 9-u Nazirlər Kabinetinin qərarı, 40-ı Nazirlər Kabinetinin sərəncamı, 4-ü Maliyyə Nazirliyinin Kollegiya qərarı olub ki, ötən il ərzində onlardan 45 sənəd təsdiq edilib.

Xüsusilə, Azərbaycan Respublikası Prezidentinin 25 avqust 2025-ci il tarixli fərmanı ilə dövlət maliyyəsinin idarə olunması sahəsində mühüm islahatlara start verilib ki, bu sənəd dövlət maliyyəsinin idarə edilməsi sahəsində islahatların əsası kimi qəbul oluna bilər. Qeyd olunub ki, bu islahatlar çərçivəsində gömrük, dövlət rüsumu, dövlətə məxsus olan hüquqi şəxslər və publik hüquqi şəxslər üzrə dividendlərin və digər büdcə daxilolmalarının səmərəli idarə edilməsi Maliyyə Nazirliyinin fəaliyyət sahələrinə aid edilib, rəqəmsal texnologiyalar və innovasiyalar tətbiq edilməklə nazirliyin fəaliyyət sahələri üzrə səmərəli icra və nəzarət mexanizminin formalaşdırılması üçün "Rəqəmsal dövlət maliyyəsi" informasiya sistemi yaradılıb. Eyni zamanda publik hüquqi şəxslər xəzinə müşayiətinə cəlb edilib, dövlət müəssisələrinin bütün bank hesablarına xəzinə müşahidə mexanizminin yaradılması, dövlət vəsaiti hesabına mal, iş və xidmətlərin satın alınmasının elektron müqavilələr əsasında həyata keçirilməsinin təşkili, həmçinin dövlət müəssisələrinin vəsaitlərinin təyinatı üzrə, məqsədli və səmərəli xərclənməsi üzərində dövlət maliyyə nəzarətinin həyata keçirilməsi Maliyyə Nazirliyinə həvalə edilib.

Bundan başqa, Maliyyə nazirliyi yanında Dövlət Müəssisələrinin Monitorinqi Agentliyi yaradılaraq, onun əsasnaməsi təsdiq edilib. Həmçinin, nazirliyin və strukturuna daxil olan digər qurumların əsasnamələrinə yeni səlahiyyətlərin əks etdirilməsi üçün müvafiq dəyişikliklər edilib.

Nazir Sahil Babayev hüquqi akt layihələrinin icra prosesinin daha da təkmilləşdirilməsi və elektron nəzarət mexanizmlərinin tətbiqinin vacibliyini qeyd edib. Bu çərçivədə layihələrin elektron sənəd dövriyyəsi sistemi ilə yanaşı "Normativ-hüquqi aktlar" informasiya sistemi vasitəsilə icrası, gecikmə hallarının araşdırılması və icra yükünün balanslaşdırılması məqsədəuyğun hesab olunub. Eyni zamanda Kollegiyanın sədri razılaşdırma prosedurlarının sadələşdirilməsi, maliyyə-iqtisadi əsaslandırmaların təqdim olunması tələbinin qanunvericilikdə əks etdirilməsi ilə bağlı təkliflərin hazırlanması ilə bağlı müvafiq tapşırıqlar verib.

Kollegiya iclasında həmçinin Maliyyə Nazirliyində tapşırıqların icra vəziyyəti və hesabatlarla bağlı məsələlər haqqında təqdimat nümayiş etdirilib və müzakirə olunan məsələlərə dair müvafiq qərarlar qəbul edilb.

***"Azərbaycan"***

# Mədəniyyət naziri Qax rayonunda vətəndaşların müraciətlərini dinləyib

**Mədəniyyət naziri Adil Kərimlinin növbəti vətəndaş qəbulu fevralın 18-də Qax rayonunda keçirilib. Bu barədə AZƏRTAC-a nazirlikdən məlumat verilib.**

Qəbuldan əvvəl nazir və rayon icra hakimiyyətinin başçısı Elvin Paşayev Ümummilli Lider Heydər Əliyevin Qax şəhərində ucaldılmış abidəsi önünə çiçək dəstəsi qoyaraq əziz xatirəsini ehtiramla anıblar.

Qax Rayon Heydər Əliyev Mərkəzində keçirilən qəbulda Şəki, Qax, Oğuz, Qəbələ, Zaqatala və Balakən rayonlarından olan vətəndaşlar müraciətlərini diqqətə çatdırıblar. Sakinlərin müraciətləri, əsasən, iş yerinin dəyişdirilməsi, mədəniyyət sahəsi ilə bağlı layihə və təşəbbüslər, məşğulluq və digər məsələlərlə bağlı olub.

Mədəniyyət naziri vətəndaşların xahiş və təkliflərini dinləyib, qeyd olunan hər bir məsələnin operativ araşdırılması, qanunvericiliyə uyğun həlli ilə bağlı müvafiq addımlar atılacağını deyib.

Nazirliyin məsul əməkdaşlarının da iştirak etdiyi qəbulda şəhid ailələri və qazilər tərəfindən qaldırılan məsələlərə xüsusi diqqətlə yanaşılması və obyektiv baxılması ilə bağlı tapşırıqlar verilib.

# Azərbaycanın xarici siyasətinin uğurları

**Xalqların, ölkələrin, bir qədər də geniş məfhumda yanaşsaq, regionların strateji inkişafı bir çox halda tarixi fürsətlərdən asılı olur. Yaranmış əlverişli imkanları vaxtında dəyərləndirməyi bacaran liderlərin müdrik qərarları, çevik davranışları bu fürsət anlarını böyük coğrafiyaların tarixi taleyindəki dönüş məqamına çevirir.**

Belə bir reallığı bu gün Azərbaycanla ABŞ arasında yüksələn xətlə inkişaf edən münasibətlərdə də aydın müşahidə etməkdəyik.



# ABŞ-Azərbaycan strateji tərəfdaşlığı Naxçıvanın inkişafına da mühüm töhfə verəcək

### Münasibətlərdə yeni mərhələ

Cənubi Qafqazın aparıcı dövləti kimi Azərbaycan ABŞ üçün həmişə regionun əhəmiyyətli subyektlərindən sayılıb. Lakin qarşılıqlı münasibətlərdə bu vacib faktor əksər hallarda gözardına qoyulub. Azərbaycanın artıq 35 ilə çatan müstəqillik tarixində ABŞ ilə münasibətlərin inkişafında hər iki tərəf üçün qarşılıqlı faydalar yaradan nailiyyətlər də əldə edilib. Lakin bu münasibətlər silsiləsində hansısa uğurlarla yanaşı, iki zəmində problemlərin də yaşandığı nəzərə çarpıb.

Əvvəla, müstəqilliyinin ilk illərindəki səriştəsiz iqtidarlar dövründə Azərbaycanın bu münasibətlərdə itirdiyi imkanlar, ancaq ən mühümü isə məhz onilliklər boyu ABŞ administrasiyalarının, siyasi dairələrinin, mediasının erməni lobbisinin təsiri altında ölkəmizə qarşı yol verdikləri yanlış yanaşmalar ucbatından ikitərəfli əlaqələrdə düyünlü nöqtələr çox olub.

Bu gün isə Ağ Evin qlobal siyasi-iqtisadi düzənə yeni strateji baxışı, bu fövqəldövlətin dəyişən prioritetləri və bütün bunların yaratdığı böyük fürsətlər fonunda Azərbaycan-ABŞ münasibətləri 35 illik müstəqillik dövrümüzün, demək olar, ən yüksək mərhələsindədir və daha da artan xətt üzrə inkişaf edir.

Burada Prezident İlham Əliyevin diplomatik bacarığının, yaranmış hər imkandan ölkəmizin, xalqımızın milli maraqları, yaşadığımız coğrafiyanın təhlükəsizliyi və dayanıqlı inkişafı naminə istifadə məharətinin, proseslərə əsl strateq reaksiyasının müstəsna rolu vardır.

ABŞ-nin vitse-prezidenti Cey Di Vensin ailə üzvləri ilə ölkəmizə səfəri, dünyanın ən qüdrətli dövləti ilə Azərbaycan arasında Strateji Tərəfdaşlıq haqqında Xartiyanın imzalanması, bela bir tarixi sənəddə qarşıya qoyulan məqsədlər bunun daha bir nümayişidir və iki ölkə arasındakı münasibətləri yeni bir institusional mərhələyə yüksəltdi.

### Azərbaycan ABŞ-nin təkcə regional deyil, həm də qlobal tərəfdaşıdır

Vətən müharibəsindəki tarixi Zəfərimiz nəticəsində ölkəmizin suverenliyinin, ərazi bütövlüyünün tam təmin olunmasından, ötən il avqustun 8-də Ağ Evdə ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Azərbaycan Prezidenti və Ermənistanın Baş naziri arasında sülh sazişinin paraflanmasından sonra sözügedən xartiyada suverenlik, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsiplərinin irəli sürülməsi bir tərəfdən sənədin siyasi legitimliyinin əsası, digər tərəfdən regionun gələcək təhlükəsizliyinə baxış kimi mühüm önəm kəsb edir.

Sənəddə əməkdaşlığın konkret sahələr üzrə strukturlaşdırılması isə Azərbaycan-ABŞ münasibətlərinin daha böyük niyyətlərini göstərir. Məqsəd təkcə hazırda xoş məcrada inkişaf edən münasibətləri, sadəcə, indiki səviyyəsində qorumaq deyil, onları daha sistemli, institusional və nəticəyönümlü mərhələlərə qaldırmaqdır.

Strateji Xartiyanın əsas strateji xətlərindən biri regional bağlantıların gücləndirilməsidir. Burada Trans-Xəzər Nəqliyyat Dəhlizinə (Orta dəhliz) xüsusi diqqətin ayrılması Azərbaycanın Avrasiya logistika sistemində əsas qovşaq kimi mövqeyini gücləndirir. Bu, ölkənin yalnız enerji ixracatçısı yox, həm də nəqliyyat və data tranzit mərkəzinə çevrilməsi strategiyasının beynəlxalq səviyyədə dəstəklənməsi deməkdir.

Eyni zamanda sənəddə qeyd olunan multimodal layihələr - xüsusilə 8 avqust 2025-ci il tarixli Vaşinqton Sülh Zirvə görüşünün Bəyannaməsinə uyğun olaraq Azərbaycan Respublikasının əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantının təmin edəcək və regionun beynəlxalq ticarət və tranzit potensialını reallaşdıracaq multimodal bağlantı layihəsi kimi Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutunun (TRIPP) əhəmiyyətinin vurğulanması, bu istiqamətdə əməkdaşlığı genişləndirmək məqsədinin bəyan edilməsi regionda yeni iqtisadi dinamikaya təkan verərək başlıca siyasi-iqtisadi sabitlik alətinə çevrilir.

Enerji sahəsində əməkdaşlığın inkişafı isə münasibətlərin ənənəvi təməlinin daha da möhkəmləndirilməsi mənasına gəlir. Azərbaycan son onilliklərdə Avropanın enerji təhlükəsizliyində müstəsna rol oynayır və ABŞ ölkəmizin bu qlobal statusunu müvafiq xartiya ilə strateji səviyyədə tanımış olur.

### Yeni iqtisadi gündəm etibarlı təhlükəsizliyi də təmin edir

Azərbaycan və ABŞ münasibətlərində diqqəti çəkən ən mühüm məqamlardan biri də bu əməkdaşlıqda yeni iqtisadi gündəmin yaranması, bu gündəmin ənənəvi əməkdaşlıq sahələri ilə yanaşı, müasir dünyamızın əsas çağırışlarından olan texnologiya, süni intellekt və rəqəmsal infrastruktur üzrə sıx tərəfdaşlıqları da özündə ehtiva etməsi, beləliklə, iqtisadi əməkdaşlığın yeni mərhələyə keçididir.

Əvvəlki dövrlərdə Azərbaycan-ABŞ münasibətləri əsasən enerji layihələri üzərində qurulurdu. İmzalanmış xartiya isə texnologiya və innovasiya əsaslı əməkdaşlığı da ön plana çıxararaq, süni intellekt, data mərkəzləri, rəqəmsal infrastruktura sərmayələr, R&D platformaları və texnoloji transfer mexanizmlərinin nəzərdə tutulması ilə Azərbaycan iqtisadiyyatının struktur transformasiyası üçün yeni imkanlar açır.



Özəl sektorun aktiv rolunun xüsusi vurğulanması isə Azərbaycan və ABŞ arasında iqtisadi sahədə həyata keçirilməsi nəzərdə tutulan potensial layihələrin praktik xarakterindən xəbər verir ki, bu da münasibətlərin dövlətlərarası səviyyədən biznes-ekosistem səviyyəsinə keçməsi deməkdir.

Xartiyanın təhlükəsizliklə bağlı bölməsi Azərbaycan-ABŞ münasibətlərinin geosiyasi məzmununu daha açıq şəkildə göstərir. Burada müdafiə və hərbi əməkdaşlığın genişləndirilməsi, antiterror və kibertəhlükəsizlik sahəsində birgə fəaliyyət, humanitar minatəmizləmə sahəsində texnologiya və maliyyə dəstəyi kimi diqqəti çəkən üç mühüm istiqamət iki ölkə arasındakı münasibətlərin təhlükəsizlik tərəfdaşlığı formatında da inkişaf etdiyini, qlobal risklərə qarşı güclü cavab reaksiyaları formalaşdırdığını göstərir.

Xüsusilə kibertəhlükəsizlik və kritik infrastrukturun qorunması kimi sahələrin vurğulanması sənədin müasir riskləri nəzərə almasına dəlalət edir.

### Strateji tərəfdaşlıq münasibətləri Naxçıvana böyük fayda verəcək

Bu gün Prezident İlham Əliyev Azərbaycanı böyük bir coğrafiyanın mühüm ticarət-tranzit qovşağına, enerji təhlükəsizliyi məkanına çevirir, ölkəmizə qlobal proseslərə ciddi təsir imkanlarına malik geosiyasi, geoiqtisadi aktor statusu qazandırır. Azərbaycanın bu müstəsna mövqeyində ölkəmizin hər bir bölgəsinin, o cümlədən Naxçıvan Muxtar Respublikasının özünəməxsus yeri və rolu var.

Azərbaycanla ABŞ arasında imzalanmış Strateji Tərəfdaşlıq haqqında Xartiyada Zəngəzur dəhlizi - rəsmi adı ilə ifadə etsək, Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu (TRIPP) ilə bağlı təsbit olunmuş müddəalar, Azərbaycanın əsas hissəsi ilə Naxçıvanın birləşdirilməsi geosiyasi məzmunundan, daşıdığı tarixi-mənəvi dəyərdən əlavə, bölgə üçün həm də mühüm iqtisadi əhəmiyyət kəsb edir. Uzun illər blokada şəraitindən əziyyət çəkmiş Naxçıvanın inkişafı önündə geniş üfüqlər açır.

ABŞ ilə imzalanmış sənəddə müdafiə sənayesindən bərpaolunan enerjiyə, süni intellekt həllərindən kənd təsərrüfatına, təhlükəsizlik risklərinin idarəçiliyindən kosmik sənayeyə, kommunikasiya məsələlərindən müvafiq müəssisələrin, istehsal sahələrinin yaradılmasına qədər hər nə öz əksini tapıbsa, strateji inkişaf hədəfləri kimi onların reallaşmasında ölkəmizin digər iqtisadi regionları kimi, Naxçıvanın da potensialından geniş istifadə nəzərdə tutulub. Bu isə Azərbaycan Prezidentinin 5 iyun 2023-cü il tarixli müvafiq sərəncamı ilə təsdiqlənmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın məqsədlərini də özündə parlaq şəkildə əks etdirir.

Yeni mərhələdə qarşıya qoyulmuş Prezident hədəflərinin reallaşdırılması məqsədinə xidmət edən dövlət proqramında Naxçıvanın sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsinə nail olunması üçün məqsədlər və prioritet istiqamətlər müəyyən edilib. Dövlət proqramı prioritet istiqamətlər üzrə tədbirlərin maliyyələşmə mənbələrini, regionun sosial-iqtisadi inkişafı sahəsində əldə olunacaq hədəf göstəricilərini özündə ehtiva edir.

### Prezidentin müəyyənləşdirdiyi vəzifələrin icrası Naxçıvanda fəaliyyət prioritetidir

Azərbaycanla ABŞ arasında imzalanmış Strateji Tərəfdaşlıq haqqında Xartiya ilə müvafiq dövlət proqramının məqsədlərinin uzlaşdırılması cənab İlham Əliyevin məsələlərə necə kompleks şəkildə, bütöv yanaşmasını növbəti dəfə nümayiş etdirir.

Naxçıvan illərdir ki, dövlətimizin başçısının diqqət mərkəzindədir. Naxçıvanın inkişafı ilə bağlı atılanan səmərəli addımlar, qəbul edilən dövlət proqramları bunu dəmayə əyani şəkildə əsas verir. Ümummilli Lider Heydər Əliyevin arzularının diyarıdır. Zəngəzur dəhlizinin (TRIPP) reallaşması Naxçıvanda inkişaf coğrafiyasını xeyli genişləndirəcək, həm sənaye, özəl biznes, həm kənd təsərrüfatı dirçəldiləcək, həm də ticarət, logistika, turizm sektorlarında böyük canlanma yaradacaq. Zəngəzur dəhlizi (TRIPP) Azərbaycan üçün yeni dövrün başlanğıcı, Naxçıvan üçün isə tarixi izolyasiyanın sonu olacaq.

Azərbaycan Respublikasının qlobal iqtisadiyyata daha sıx inteqrasiyasını əsas məqsədlər sırasında elan edən Strateji Xartiyanın bu maddəsinin reallaşmasında mühüm sərhəd və tranzit bölgəsi kimi Naxçıvanın önəmi diqqəti xüsusi çəkir və qeyd etdiyimiz dövlət proqramının mahiyyətcə vacib təminatı kimi səciyyələnir. Enerji, ticarət, data, maliyyə, nəqliyyat və logistika şəbəkəsində Azərbaycanın mövqeyinin gücləndirilməsində əlbəttə ki, bu sahələrdə yetərincə təcrübə toplamağa müvəffəq olan Naxçıvanın da əlahiddə töhfəsi olacaq.

Regional bağlantılar, iqtisadi sərmayə və prosesə özəl sektorların cəlb edilməsi sahələrində əməkdaşlıq sferasında Naxçıvan həm bu tərəfdaşlığa fayda verəcək, həm də özü faydalanaraq, cənab Prezidentin regionların inkişafında yerli təşəbbüslərin vacibliyi çağırışını reallaşdırmış olacaq.

Strateji Xartiyada təsbit edilmiş quru və hava nəqliyyatı infrastrukturunun inkişafı, ticarət və tranzitin asanlaşdırılması, gömrük nəzarəti və sərhəd keçidi, beynəlxalq multimodal logistika kimi müddəalar əlbəttə ki, daha çox məhz Naxçıvan məzmunludur. Regionun beynəlxalq ticarət və tranzit potensialını reallaşdıracaq multimodal bağlantı layihəsi olacaq Zəngəzur dəhlizi - TRIPP Azərbaycan Respublikasının əsas hissəsi ilə onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantısını təmin edəcək. Ən əsası isə Naxçıvanın Avrasiyanın mühüm qovşağına çevrilməklə bağlı cənab Prezidentin strateji hədəfinin gerçəkləşməsinə əsaslı şərait yaradacaq.

Dövlət rəhbərimizin Naxçıvana, iqtisadi bölgənin perspektiv inkişafına bu cür əlahiddə münasibəti Naxçıvan əhalisinin, muxtar respublika rəhbərliyinin də qarşısında mühüm vəzifələr, təxirəsalınmaz öhdəliklər müəyyənləşdirir.

Ötən il noyabrın 12-də cənab İlham Əliyev Naxçıvanda Prezidentin yeni səlahiyyətli nümayəndəsini qəbul edərkən bu vəzifələri diqqətə çatdırdı, muxtar respublikanın inkişafı ilə bağlı konkret tapşırıqlarını verdi. Bu görüş həm rəhbərlikdə dəyişikliklərin əhəmiyyətini, həm də dövlətin regionlarda davamlı inkişaf siyasətini nümayiş etdirdi. Prezident çıxışında ölkəmizin sosial-iqtisadi uğurlarına, bölgələrdə həyata keçirilən layihələrə və strateji hədəflərə geniş toxundu. Dövlət başçısı qeyd etdi ki, əsas prioritet bölgələrdə sabitliyin qorunması və vətəndaş məmnuniyyətinin təmin edilməsidir. Prezident İlham Əliyev vurğuladı ki, rəhbərlikdə şəffaflıq, ədalət və xalqın rifahı hər zaman ön planda olmalıdır.

Dövlət başçımızın qarşıya qoyduğu hədəflər, müəyyənləşdirdiyi vəzifələr və bütün bunların məsuliyyəti Naxçıvanın düzgün, aydın, birmənalı dərk edilir. Onların yerinə yetirilməsi Naxçıvan rəhbərliyi tərəfindən prioritet vəzifə kimi qəbul olunur, bu fəaliyyət müvafiq işçi qrupları yaradılmaqla, effektiv icra və operativ nəzarət mexanizmi formalaşdırılmaqla adekvat şəkildə qurulur, nəticə etibarilə iqtisadi region möhtərəm Prezidentimizin müəyyən etdiyi istiqamətdə uğurla irəliləyir.

Dünyanın ən qüdrətli dövləti ilə yaradılan strateji tərəfdaşlıq Azərbaycanın postsavaş dövründə yeni mərhələyə qədəm qoyan diplomatiyasının ən mühüm nailiyyətidir. Lakin əlamətdar haldır ki, bu diplomatik uğurlar silsilə halını alaraq, bütün qitələri əhatə edir. Yəni Azərbaycanın dostları, tərəfdaşları, müttəfiqləri hər yerdə davamlı şəkildə artır.

Münxen Təhlükəsizlik Konfransında Azərbaycan Liderinə olan böyük rəğbət və maraq, həmçinin görüşmək üçün ifadə edilən çoxsaylı arzular bir daha təsdiqlədi ki, möhtərəm Prezidentimiz nüfuzlu siyasi liderdir. "İlham Əliyevlə danışanda çox şeyi öyrənirəm, bir çox məsələləri həqiqi liderin fərqli baxış bucağından müşahidə etməyə müvəffəq oluram" bəyanatı isə, əslində, yalnız Serbiya Prezidentinin deyil, onlarca ölkə rəhbərinin qənaəti, düşüncəsidir.

Prezident İlham Əliyevin mükəmməl diplomatiyasının möhtəşəm nailiyyətləri Azərbaycana daha böyük uğurlar, daha genişmiqyaslı inkişaf bəxş edəcək.

*Arzu ABDULLAYEV,*
*Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədr müavini, tarix üzrə fəlsəfə doktoru, dosent*

# Sülhə töhfə verən mexanizm

## Vətəndaş cəmiyyəti platformaları bu baxımdan daha çevik və açıq müzakirə mühitidir

**Azərbaycan nümayəndə heyəti 13-14 fevral tarixlərində "Sülh körpüsü" "dəyirmi masa"sında iştirak etmək üçün Ermənistana getmişdi.**

Ötən il avqustun 8-də Vaşinqtonda keçirilmiş sammitdə təsdiqlənən sülh gündəliyindən sonra iki ölkə arasında təkcə siyasi müstəvidə deyil, həm də vətəndaş cəmiyyətləri arasında təmaslar başlayıb. Belə ki, 2025-ci il oktyabrın 22-də İrəvanda Ermənistan və Azərbaycan vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə ikitərəfli "dəyirmi masa" keçirilib. Daha sonra Ermənistanın vətəndaş cəmiyyəti nümayəndələrindən ibarət qrup 21 noyabr tarixində Bakıya səfər edib.



"Sülh körpüsü" "dəyirmi masa"sı çərçivəsində iki cəmiyyət arasında münasibətlərin inkişafı, formalaşmaqda olan regional təhlükəsizlik arxitekturası, əməkdaşlıq perspektivləri əsas müzakirə mövzusu olub və bu istiqamətdə vətəndaş cəmiyyətinin rolu müzakirə edilib.

Milli Məclisin deputatı Vüqar Rəhimzadə "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, regionda artıq yeni reallıq formalaşıb və bunun mərkəzində güclü və qüdrətli Azərbaycanın möhkəmlənmiş mövqeyi, təmin olunmuş suverenliyi və dayanıqlı sülh gündəliyi dayanır: "Bu baxımdan Azərbaycan nümayəndə heyətinin "Sülh körpüsü" təşəbbüsü çərçivəsində Ermənistanda keçirilən "dəyirmi masa"da iştirak etməsi bu reallıq fonunda diqqətəlayiq hadisə kimi qiymətləndirilə bilər. Postmünaqişə dövründə tərəflər arasında artıq paraflanmış sülh müqaviləsinin imzalanması və münasibətlərin normallaşdırılması istiqamətində ardıcıl danışıqlar aparılır. Davamlı və dayanıqlı sülh üçün cəmiyyətlər arasında etimadın formalaşması da vacibdir".

Deputat qeyd edib ki, Azərbaycan regional və beynəlxalq münasibətlərdə sülh və əməkdaşlıq təşəbbüsləri ilə çıxış edən ölkə kimi mövqeyini daha da gücləndirir. Münaqişələrin beynəlxalq hüquq, suverenlik və ərazi bütövlüyü prinsipləri əsasında həllini müdafiə edən Azərbaycan dialoqu, diplomatiyanı və qarşılıqlı etimadın qurulmasını vacib hesab edir. Bu baxımdan "Sülh körpüsü" təşəbbüsü kimi platformalar iki xalq arasında birbaşa təmasların qurulmasına, etimad mühitinin yaranmasına xidmət edir. "Vətəndaş cəmiyyəti nümayəndələri - QHT-lər, media təmsilçiləri, ekspertlər və akademik dairələr bu prosesdə körpü rolunu oynayırlar. Vətəndaş cəmiyyəti platformaları daha çevik və açıq müzakirə mühiti yaradırlar", - deyə o əlavə edib.

V.Rəhimzadə vurğulayıb ki, "Sülh körpüsü" təşəbbüsü kimi platformalar həmçinin Cənubi Qafqazda uzunmüddətli sabitliyin formalaşmasına töhfə verə biləcək mühüm mexanizmdir. Keçirilən görüşlər zamanı Azərbaycan və Ermənistan arasında sülh prosesinin dinamikası, vətəndaş cəmiyyətinin dialoqun bərpasındakı rolu və yaxın gələcəkdə icra olunacaq birgə layihələr müzakirə olunur, həmçinin sülh prosesi ilə bağlı hər iki cəmiyyətin ictimai rəyi müzakirə mövzuları da toxunulur. Sülh müqaviləsi ilə yanaşı, xalqlar arasında qarşılıqlı hörmət və anlaşma mühitinin yaradılmasında mümkün olacaq. Bu baxımdan vətəndaş cəmiyyətlərinin dialoqu bu yolun vacib və əvəzolunmaz mərhələsidir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycanın prinsipial mövqeyi Münxendən dünyaya bəyan olundu

**Münxen Təhlükəsizlik Konfransı dünyanın ən nüfuzlu təhlükəsizlik və xarici siyasət forumlarından biridir. Hər il fevral ayında Almaniyanın Münxen şəhərində keçirilən bu konfrans dövlət və hökumət başçılarını, nazirləri, beynəlxalq təşkilat rəhbərlərini, ekspertləri, hərbi dairələri bir araya gətirir.**



Milli Məclisin deputatı Müşfiq Cəfərov qəzetimizə açıqlamasında bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin Münxen Təhlükəsizlik Konfransına dəvət alması, aktual mövzulara həsr olunmuş tədbirlərdə iştirakı, ikitərəfli görüşlər dövlətimizin beynəlxalq aləm üçün əhəmiyyətini bir daha təsdiqləyir. Prezident İlham Əliyev həmişə bu təhlükəsizlik platformasına dəvət alır, bu çərçivədə keçirilən qlobal və regional təhlükəsizlik məsələləri ilə bağlı müzakirələrdə iştirak edir. "Dövlət başçımızın konfrans çərçivəsində açıq dəhlizə həsr olunmuş panel iclasda çıxışı, keçirdiyi görüşlər Azərbaycanın regional proseslərə baxışını, xüsusilə postmünaqişə dövründə Cənubi Qafqazda formalaşan yeni reallıqları beynəlxalq ictimaiyyətə çatdırmaq baxımından əhəmiyyətli oldu. Bu panel iclas və görüşlərdə ölkəmizin rəhbəri regionda sülh gündəliyinin inkişafı, kommunikasiyaların açılması və uzunmüddətli sabitliyin təmin olunması ilə bağlı Bakının prinsipial mövqeyini beynəlxalq aləmin diqqətinə çatdırdı", - deyə deputat bildirib.

M.Cəfərov qeyd edib ki, Azərbaycanın Avropanın enerji təhlükəsizliyində artan rolu görüşlərdəki müzakirələrin əsas istiqamətlərindən biri olub: "Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycan etibarlı tərəfdaş kimi qaz təchizatını artırır və enerji şaxələndirilməsinə real töhfə verir. Münxen platformasında da Azərbaycan yalnız regional aktor deyil, bütövlükdə Avropanın enerji təhlükəsizliyinə töhfə verən mühüm tərəfdaş kimi qəbul olunur".

Deputat deyib ki, konfrans çərçivəsində keçirilən ikitərəfli görüşlər Azərbaycanın müxtəlif güc mərkəzləri ilə dialoqunu davam etdirməsi baxımından xüsusi əhəmiyyət daşıyır. ABŞ, Avropa İttifaqı ölkələri və digər tərəfdaşlarla aparılan müzakirələr ölkəmizin çoxvektorlu xarici siyasət kursunun davamıdır. "Panel iclasda dövlətimizin başçısının dediyi kimi, Avropa ilə Asiya arasında yerləşən Azərbaycanın coğrafi mövqeyi ölkəmizin üstünlüyüdür. Eyni zamanda iclasda TRIPP layihəsi də diqqət mərkəzində olub. Bu layihənin bütün ölkələr üçün faydalı olacağı qeyd olunub", - deyə M.Cəfərov əlavə edib.

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycanın xarici siyasətinin uğurları

## Dünyanın diqqəti yenə Vaşinqtona yönəlib

### İlham Əliyev Sülh Şurasının iclasında təsisçi ölkənin lideri kimi iştirak edir



**Beynəlxalq nizamın köklü dəyişikliklərə məruz qaldığı, qüvvələr nisbətinin yenidən müəyyənləşdiyi və mövcud təhlükəsizlik sistemlərinin səmərəliliyini itirdiyi bir şəraitdə keçirilən 62-ci Münxen Təhlükəsizlik Konfransı ölkələrin strateji hədəflərini bəyan etdiyi mühüm tribunaya çevrildi. Mürəkkəb geosiyasi şəraitdə Azərbaycan Prezidenti İlham Əliyevin diplomatik təmasları, ikitərəfli görüşləri, müsahibə və panel müzakirəsində diqqət yönəltdiyi məqamlar, irəli sürdüyü tezislər beynəlxalq ictimaiyyətin ciddi marağına səbəb oldu. Rəsmi Bakı artıq özünü sülh və normallaşma prosesini başlatmağa müvəffəq olmuş, regional əməkdaşlıq və təhlükəsizlik yoluna qədəm qoymuş nüfuzlu mərkəz kimi dünyaya təqdim etməkdədir. Azərbaycan Lideri Münxendə sülhü yaradan lider kimi iştirak edirdi. Dövlət başçısının Münxen görüşlərində təmas etdiyi əsas məqamlar dayanıqlı sülh, genişmiqyaslı əməkdaşlıq və iqtisadi-ticari perspektivlər üzərində qurulmuşdu. Çünki qeyd olunan prioritetlər Azərbaycanın gələcək inkişaf kursunun təməl daşlarını təşkil edir.**

#### Azərbaycanın regiondakı liderliyi həm də əməkdaşlığı stimullaşdırır

Prezident İlham Əliyev Münxendə yerli media nümayəndələrinə müsahibəsində bu məqamı xüsusi vurğuladı. Dövlət başçısı bəyan etdi ki, hər zaman olduğu kimi, bizim çağırışlarımız qarşılıqlı fəaliyyət və barışığa xidmət edir: "Builki toplantıda fərqli bir statusda - sülhü təmin etmiş bir ölkənin rəhbəri kimi çıxış edirəm. Bizim mövqeyimiz şəffaf və birmənalıdır: tərəfdaşlıq, əmin-amanlıq və birgə inkişaf". Bu, beynəlxalq ictimaiyyətə verilən mesajdır ki, Bakı bu platformaya gündəmi diktə edən, qalib və stabil tərəf kimi gəlib. Bu mühüm və uzaqgörən yanaşma, sadəcə, ölkəmizin daxili mənafelərini qorumur, həm də beynəlxalq müstəvidə daha əhatəli, qarşılıqlı faydaya söykənən və ziddiyyətləri tərəfdaşlıqla əvəzləyən bir sistem vəd edir. Münxen müstəvisində nümayiş etdirilən mövqe sübut etdi ki, Azərbaycan, sadəcə, güclü region dövləti olmaqla kifayətlənmir, eyni zamanda dünya idarəçiliyinin və iqtisadi quruluşunun fəal memarlarından biri rolunda da çıxış edir. Azərbaycan sülh prosesində kənar diktələri deyil, birbaşa dialoqu və regionun daxili dinamikasını əsas götürür. Ölkəmiz Ermənistan da daxil olmaqla, bütün regional oyunçulara qarşıdurma deyil, iqtisadi mənfəət vəd edir.

Dövlət başçısı panel müzakirələrində Azərbaycan və Ermənistan arasında sülh prosesinə toxunaraq, 2026-cı ilin sonuna qədər müqavilənin imzalana biləcəyinə ümidvar olduğunu bildirdi. Prezident İlham Əliyev "France 24" kanalına müsahibəsində 2025-ci ilin avqustundan bəri sərhəddə stabil vəziyyətin hökm sürdüyünü, artıq qarşılıqlı ticarət və yükdaşımaların bərpası istiqamətində addımların atıldığını vurğuladı: "Tarixi sənədin Ağ Evdə Amerika Birləşmiş Ştatları Prezidentinin iştirakı ilə imzalanması o deməkdir ki, münaqişə bitib və biz daimi olacağına ümid etdiyimiz sülh dövrünə qədəm qoymuşuq. O vaxtdan bəri altı aydan çox müddət keçib və bizim Ermənistanla sərhəddə vəziyyət çox sakitdir. Artıq atəş açılmır, qurban vermirik, yaralananlar olmur. Beləliklə, görə bilərik ki, artıq sülhə nail olunub".

Prezident İlham Əliyev Azərbaycanın Cənubi Qafqazın sülh və təhlükəsizlik arxitekturasının formalaşdırılması üçün bütün zəruri addımları atdığını vurğulayıb. Prezidentimiz yekun sülh müqaviləsi ilə bağlı müzakirələrə və fikir ayrılıqlarına da aydınlıq gətirib və bu məsələyə birdəfəlik nöqtə qoyub. Azərbaycan Lideri açıq şəkildə bəyan edib ki, Ermənistan tərəfi ölkə konstitusiyasından Azərbaycana qarşı ərazi iddialarını çıxarmadan iki ölkə arasında yekun sülh müqaviləsi imzalana bilməz. Ölkə rəhbəri birmənalı diqqətə çatdırıb ki, Ermənistan konstitusiyasında dəyişiklik edilməsinin ertəsi günü dərhal yekun sülh sazişinə imza atmağa hazırıq: "Ermənistan konstitusiyasına lazımi dəyişikliklər edilməlidir. O dəyişikliklər edilən kimi ertəsi gün biz sülh müqaviləsini imzalaya bilərik. Amma buna baxmayaraq, hesab edirəm ki, artıq Ermənistan və Azərbaycan arasında sülh əldə edilib". Bu, rəsmi Bakının birmənalı mövqeyi, ədalətli tələbidir və bu mövqeyimiz dəfələrlə Ermənistan tərəfinə çatdırılıb.

Azərbaycanın regional liderlik strategiyası təkcə hərbi-siyasi qələbəyə deyil, həm də Avrasiyanın logistik xəritəsini yenidən formalaşdıran iqtisadi təşəbbüslərə söykənir. Bu xüsusda fevralın 14-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində keçirilən "Açıq dəhliz siyasəti? Trans-Xəzər əməkdaşlığının dərinləşdirilməsi" mövzusunda panel müzakirələrdə ölkəmizin gələcək baxışı belə ifadə olundu: "Bağlantı layihələri və nəqliyyat dəhlizləri bizi daha da yaxınlaşdıracaq, qarşılıqlı asılılığı artıracaq və Cənubi Qafqazda tamamilə yeni bir vəziyyət yaradacaq. Nəhayət, Azərbaycan, Gürcüstan və Ermənistan üçtərəfli əsasda qarşılıqlı əməkdaşlığa başlayacaqlar". Azərbaycan Prezidentinin bu fikirləri Cənubi Qafqazın gələcəyi üçün strateji yol xəritəsi mahiyyətindədir. "Bağlantı layihələri" dedikdə, ilk növbədə Orta dəhliz və regional kommunikasiyaların, Zəngəzur dəhlizinin (TRIPP) açılması nəzərdə tutulur. Bu layihələr Azərbaycanı, sadəcə, enerji ixracatçısı deyil, həm də Şərqlə Qərbi birləşdirən əvəzedilməz logistik qovşaq halına gətirir. Dövlət başçısının toxunduğu digər mühüm məqam Azərbaycan, Gürcüstan və Ermənistanın üçtərəfli əməkdaşlığına çağırışdır. Bu, regionun kənar oyunçuların təsirindən çıxaraq, daxili taleyini özünün həll etməsi deməkdir. Bakı mesaj verir ki, biz Ermənistanı təcrid etmək deyil, onu regional inkişafa inteqrasiya etmək istəyirik, lakin bu, sülhün şərtlərinə qeyd-şərtsiz əməl olunması ilə mümkündür.

#### Sülh Şurasında təmsilçilik Azərbaycanın qlobal nüfuzunun əyani təzahürüdür

Ölkəmizin Cənubi Qafqazda və daha geniş coğrafiyada sülhün memarı kimi çıxış etməsi müasir beynəlxalq münasibətlərin mühüm faktorlarından biridir. Azərbaycanın ABŞ lideri Donald Tramp tərəfindən yaradılan Sülh Şurasına təsisçi üzv dövlət qismində dəvət olunması ölkəmizin beynəlxalq sistemdə qazandığı siyasi etimadın, funksional rolunun və qlobal nüfuzunun məntiqi nəticəsi kimi qiymətləndirilir. Şübhəsiz, bu dəvət yalnız simvolik jest deyil, Azərbaycanın qlobal sülh prosesinin formalaşmasında fəal iştirak edən əsas aktorlardan birinə çevrildiyini göstərən mühüm hadisədir. Çünki Azərbaycanın ərazi bütövlüyünü bərpa etdikdən sonra irəli sürdüyü ədalətli sülh prinsipləri lokal çərçivədən çıxaraq qlobal bir modelə çevrilib. Əvvəllər Azərbaycan daha çox enerji layihələri ilə tanınırdısa, indi dünya siyasətində sülhün memarı imici ilə önə çıxır. Sülh Şurasında təmsilçilik Azərbaycanın beynəlxalq arenada hansı statusa sahib olmasının əyani göstəricisidir. Artıq Vaşinqton və digər böyük güclər Bakını yeni dünya nizamında mühüm strateji tərəfdaş kimi görürlər. Xatırladaq ki, Sülh Şurasının ilk iclası fevralın 19-da keçiriləcək.

Azərbaycan Prezidenti Münxendə jurnalistlərin suallarını cavablandırarkən Sülh Şurasının əhəmiyyətindən də bəhs edib. Dövlət başçısı vurğulayıb ki, böyük gələcəyi olan təşkilatın - Sülh Şurasının yaradılması təşəbbüsü ilə çıxış etməklə Prezident Tramp böyük bir iş görüb: "Hər kəsə sammitin gündəliyinin nədən ibarət olduğunu və nəticənin nə olacağını bilmək maraqlıdır. Lakin artıq daha çox ölkələr dərk edirlər ki, onlar hökumətlərarası münasibətlərə, təhlükəsizliyə, beynəlxalq təsisatların fəaliyyətinə dair yanaşmalarını yenidən nəzərdən keçirməlidirlər. Biz Birləşmiş Millətlər Təşkilatının tamamilə iflic vəziyyətə düşdüyünü görürük. O, hər hansı bir məsələyə təsir göstərə bilməyəcək. Alternativ də yoxdur. Ümidvarıq ki, biz birgə fəaliyyət zamanı daha çox sağlam düşüncəni görəcəyik. Çünki yeni dünya nizamı "kim güclüdür, o da haqlıdır" anlamına gəlməməlidir. Yeni dünya nizamı sivil dünyanın münasibətləri və beynəlxalq nizamın yeni mexanizmləri deməkdir".

Prezident İlham Əliyevin açıqlaması, əslində, müasir dünya siyasətində baş verən tektonik dəyişikliklərin ən dürüst və dəqiq təhlilidir. Dövlət başçısı burada, sadəcə, bir təşkilatın yaradılmasını alqışlamır, həm də köhnəlmiş və işləməyən beynəlxalq sistemin yerinə daha ədalətli bir mexanizmin zəruriliyini əsaslandırır. Dövlətimizin başçısının BMT haqqında fikirləri və real xarakteristikası beynəlxalq münasibətlərdəki böhranı açıq şəkildə ortaya qoyur. İllərdir Azərbaycanın haqlı tələblərini kağız üzərində qoyan təşkilatın qlobal münaqişələrdə tamamilə təsirsiz olması yeni bir platformanın, Sülh Şurasının yaranmasını tarixi zərurətə çevirdi. Bu, alternativsizlik şəraitində yaradılan ən böyük ümid qapısıdır. Azərbaycan Liderinin vurğuladığı yeni dünya nizamı gücün hüququnu deyil, hüququn gücünü ön plana çıxarmalıdır. Dövlət başçısı mesaj verir ki, hərbi qüdrət sülhü əldə etmək üçün vasitə ola bilər, lakin nizamı qorumaq üçün beynəlxalq mexanizmlər və sağlam düşüncə əsas götürülməlidir. Beləliklə, Prezident İlham Əliyevin mesajları Azərbaycanı qlobal sülhün intellektual və siyasi memarlarından biri kimi mövqeləndirir.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

## İlham Əliyevin liderlik fenomeni



**"Yaşasın Serbiya-Azərbaycan dostluğu! Hörmətli cənab Prezident, Sizə minnətdaram, evinizə xoş gəlmisiniz".**

Fevralın 15-də Belqradda Azərbaycan Prezidenti və Serbiya Prezidenti mətbuata bəyanatlarla çıxış edən zaman Aleksandar Vuçiçin dövlətimizin rəhbəri İlham Əliyevə xitabən dediyi bu sözlər, sadəcə, qonaqpərvərlik nümayişi deyil, Azərbaycan və Serbiya arasındakı münasibətlərin yalnız strateji tərəfdaşlığa deyil, "mənəvi qardaşlıq" əlaqələrinə dayandığının rəsmi etirafı idi.

Dünyanın siyasi arxitekturasının dəyişdiyi, dövlətlərin bir-birinə şübhə ilə yanaşdığı bir dövrdə, bu cür səmimiyyət illərlə sınaqlardan keçmiş etibardan qaynaqlanır. İki ölkənin beynəlxalq hüquqa, ərazi bütövlüyünə və suverenliyə verdikləri ortaq dəyərin bəyanı olan bu səmimi sözlər həm də Prezident İlham Əliyevin qlobal arenada formalaşdırdığı "sözü imzası qədər dəyərli lider" imicinə Serbiya tərəfindən verilən ən yüksək qiymət kimi xarakterizə olunmalıdır. Eyni zamanda bu, Serbiya üçün Azərbaycanın çətin zamanda dayaq, firavanlıq zamanı isə etibarlı yol yoldaşı olduğunun təsdiqi idi.

#### Dünyada ehtiram göstərilən lider

Prezident İlham Əliyevin qətiyyətli liderliyi və müstəqil siyasəti Azərbaycanı bütün sahələrdə zirvəyə daşıyıb. Qazanılan hərbi-siyasi və iqtisadi qələbələr ölkəmizin beynəlxalq nüfuzunu sarsılmaz edib. Bu gün Azərbaycan dünyada sözükeçən liderinin mövqeyi ilə hesablaşılan güclü bir dövlətdir.

Ölkəmizin rəhbərinin qlobal nüfuzu dünyanın dövlət başçıları tərəfindən mütəmadi olaraq etiraf edilir. İstər rəsmi müraciətlərdə, istərsə də yüksəksəviyyəli görüşlərdə Azərbaycan Prezidentinin müdrik siyasəti və liderlik keyfiyyətləri hər zaman xüsusi vurğulanır.

İlham Əliyevi dünyada ehtiram olunan liderə çevirən isə əlbəttə ki, onun ədalətə söykənən, sülhə dəstək olan müdrik və humanist siyasətidir. Ötən il avqustun 8-də Vaşinqtonda Azərbaycan-Ermənistan arasında sülh sazişinin mətni paraflananda ABŞ Prezidenti Donald Tramp da Prezident İlham Əliyevin bu şəxsi məziyyətlərinə vurğu etmişdi: "Siz güclü və ağıllı insansınız".

Həmçinin Nyu Yorkda Donald Trampın və birinci xanım Melaniya Trampın adından BMT Baş Assambleyasının 80-ci sessiyası ilə əlaqədar rəsmi qəbulda ABŞ lideri bir daha dövlətimizin başçısı barədə yüksək fikirlərini belə izhar etdi: "Mən Sizinlə həqiqətən fəxr edirəm. Siz çox gözəl insansınız".

Keçən il avqustun 31-də Çinin Tiencin şəhərində Prezident İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə görüşü oldu. Həmin görüşdə Prezident İlham Əliyevi "mənim əziz dostum" deyərək salamlayan Çin Sədri bu səmimi müraciəti ilə həm də İlham Əliyevə göstərdiyi dərin hörmət və ehtiramı nümayiş etdirdi.

23 noyabr 2022-ci ildə Prezident İlham Əliyevin Serbiyaya rəsmi səfəri zamanı Prezident Aleksandar Vuçiç Azərbaycan rəhbəri ilə birgə Belqradda keçirilən mətbuat konfransında "Biz Prezident İlham Əliyevin sözünə inanırıq, onun sözü imzasına bərabərdir" deyərək, bir daha İlham Əliyev xarakterinin qətiyyətinə, dönməzliyinə, etibarlılığına diqqət çəkmişdi.

Bu cür misalların sayını xeyli artırmaq da olar, amma elə bu nümunələr də İlham Əliyev şəxsiyyətinə dünyada göstərilən sayğını aydın göstərir.

Prezident İlham Əliyevin qlobal nüfuzunun ən bariz təzahürlərindən biri mötəbər beynəlxalq tədbirlərdə özünü göstərir. Ali səviyyəli tədbirlərdə Azərbaycan liderinin çıxışları hər zaman böyük maraq və ehtiramla qarşılanır. Bir neçə gün əvvəl keçirilən Münxen Təhlükəsizlik Konfransında dünyanın siyasi liderlərinin, nüfuzlu şirkət rəhbərlərinin, həmçinin qlobal medianın dövlət başçısına göstərdiyi diqqət Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki rolunu bir daha təsdiqlədi. Ölkəmizin rəhbərinin bu tədbirlərdəki hər bir görüşü, panel müzakirələrindəki qətiyyətli və məntiqli arqumentləri onun sarsılmaz diplomatik məharətini nümayiş etdirdi. Həmin vaxt dünya liderlərinin Azərbaycan Prezidenti ilə görüşmək üçün göstərdiyi təşəbbüslər bir daha təsdiqlədi ki, mühüm qlobal qərarların qəbul edildiyi arenalarda İlham Əliyev rəyi və iradəsi nəzərə alınan, sözükeçən liderdir. Bu ehtiram Azərbaycanın milli maraqlarını qlobal müstəvidə diktə edən güclü liderlik fenomeninin beynəlxalq etirafıdır.

#### Aleksandar VUÇİÇ: "Biz Prezident Əliyevin sözlərinə tam inanırıq"

Azərbaycanın Avropa İttifaqı, Balkan regionu və xüsusilə Serbiya ilə qurduğu strateji tərəfdaşlıq yüksələn xətlə inkişaf edir. Bu münasibətlərin təməlində milli maraqlara qarşılıqlı hörmət və beynəlxalq platformalarda sarsılmaz həmrəylik dayanır.

Xatırladaq ki, 2024-cü il aprelin 16-da Serbiya Prezidenti Aleksandar Vuçiç Prezident İlham Əliyevə zəng edib son dövrlərdə Serbiyanın məruz qaldığı təzyiqlər haqqında məlumat verərək dost Azərbaycan xalqının dəstəyini xahiş etmişdi.

Serbiya Prezidentinin dəstəyə ehtiyacı olduğu anda məhz Azərbaycan Prezidentinə zəng vurması bir tərəfdən ölkəmizin beynəlxalq səviyyəli çağırışlara dərhal reaksiya verərək bu problemlərin aradan qaldırılması istiqamətində gördüyü effektiv işlərin göstəricisi, digər tərəfdən isə şəxsən Prezident İlham Əliyevə olan etibar və etimadın təzahürü idi.

O da təsadüfi deyil ki, Azərbaycanın daimi dəstəyi və etibarlı tərəfdaşlığı sayəsində serb xalqı ölkəmizi strateji müttəfiq, Prezident İlham Əliyevi isə sadiq dost kimi qəbul edir. Bu münasibətlər dövlətlərarası əlaqələrdən daha çox dərin etimada əsaslanır.

Prezident İlham Əliyevin bu il fevralın 15-16-da Serbiyaya rəsmi səfəri də ölkələrimiz və xalqlarımız arasındakı səmimiyyətə dayanan sarsılmaz bağları bir daha nümayiş etdirdi. Səfər zamanı ölkəmizin rəhbərinə xüsusi diqqət və yüksək ehtiram göstərilməsi nəzərlərdən yayınmadı. Təkcə Prezident İlham Əliyevin təyyarəsini səmada Serbiya qırıcı təyyarələrinin müşayiət etməsi Azərbaycan liderinə göstərilən ən ali diqqətin təzahürü idi.

Belqradda Azərbaycan Prezidenti və Serbiya lideri mətbuata bəyanatlarla çıxış edən zaman Aleksandar Vuçiç bir daha Azərbaycan xalqına, şəxsən Prezident İlham Əliyevə böyük ehtiramını ifadə etdi: "Həmçinin Serbiya xalqı qarşısında və əlbəttə, Azərbaycan xalqı qarşısında söyləmək istəyirəm ki, hər dəfə Sizinlə danışanda çox şey öyrənirəm, bir çox məsələləri təcrübəli dövlət xadimi, həqiqi liderin fərqli baxış bucağından müşahidə etməyə müvəffəq oluram. Buna görə hər zaman öz biliyinizi mənimlə paylaşdığınıza, mənim ölkəmin, rəhbərlik etdiyim ölkənin çox yaxşı mətləblər öyrənməli olduğu bizimlə belə əlaqələr qurduğunuza görə Sizə təşəkkür edirəm".

Serbiyanın Dövlətçilik Günü kimi əlamətdar tarixdə Azərbaycan liderinin bu ölkəyə səfərinin, burada yüksəksəviyyəli görüşlər keçirilməsinin, mühüm sənədlərin imzalanmasının özünün rəmzi mənası var idi.

Serbiya Prezidentinin bəyanatında səsləndirdiyi bu fikirlər də iki ölkə arasındakı qarşılıqlı etimada dayanan münasibətləri aydın ifadə edirdi: "Hətta ən çətin məsələlərdə Serbiya Azərbaycanın tərəfində olub və onlar da bizə dəstək veriblər. Gələcəkdə də bu, belə olacaq. Biz çox ağır məsələləri həll etmişik. Biz Prezident Əliyevin sözlərinə tam inanırıq. Düşünürəm ki, o, həmçinin bizim ölkəyə eyni hisslərlə səmimi yanaşır. Biz bu münasibəti olduğu kimi davam etdirəcəyik".

Göründüyü kimi, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qlobal arenadakı çəkisi gündən-günə artır və ölkəmiz mühüm qərar qəbul etmə proseslərində həlledici tərəf kimi çıxış edir.

Dünya liderlərinin Prezident İlham Əliyevi etibarlı dost və sadiq tərəfdaş kimi qəbul etməsi də bu mənada təsadüfi deyil. Aleksandar Vuçiçin timsalında bir çox ölkə rəhbərinin çətin məqamlarda dəstək üçün məhz Azərbaycan Prezidentinə üz tutması dövlətimizin başçısının beynəlxalq arenadakı yüksək etimadından, İlham Əliyev şəxsiyyətinə olan dərin hörmət və etibardan xəbər verir.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Azərbaycan "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizlərinin kəsişməsində regional mərkəzə çevrilir



**"Çinin "Bir kəmər, bir yol" təşəbbüsü qlobal miqyasda əhəmiyyətli layihədir və bir çox ölkə, insana real fayda gətirib. Bu təşəbbüsün əsas məqsədi dünya ölkələri arasında iqtisadi əlaqələri möhkəmləndirmək, ticarət marşrutlarını genişləndirmək və xüsusilə inkişaf etməkdə olan ölkələrdə infrastruktur çatışmazlığını aradan qaldırmaqdır".**

Bunu AZƏRTAC-a açıqlaması zamanı Çinin Tsinghua Universitetinin Beynəlxalq Təhlükəsizlik və Strategiya Mərkəzinin sədri Zhou Bo bildirib.

Onun sözlərinə görə, inkişaf etməkdə olan ölkələrdə yol, dəmir yolu, liman və enerji infrastrukturu kimi əsas sahələrdə mövcud olan çatışmazlıqlar iqtisadiyyatın inkişafını ləngidir və regional inteqrasiyanı çətinləşdirir.

"Çinin bu sahədə böyük təcrübəyə və praktik imkanlara malik olması layihənin uğurunun əsas səbəblərindən biridir. Azərbaycan kontekstində baxdıqda "Bir kəmər, bir yol" təşəbbüsü çoxsaylı imkanlar təqdim edir. Son dövrlərdə Çin-Azərbaycan iqtisadi münasibətlərində müşahidə olunan inkişaf iki ölkə arasındakı ticarət dövriyyəsinin və investisiya əlaqələrinin gücləndiyini göstərir. Xüsusilə infrastruktur, nəqliyyat və logistika sahələrində əməkdaşlıq Azərbaycan üçün strateji əhəmiyyət kəsb edir. Çünki ölkəniz "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin üzərində yerləşir və regional ticarət mərkəzi kimi rolunu gücləndirməkdədir", - deyə mərkəzin rəhbəri vurğulayıb.

Gələcək əməkdaşlığın perspektivlərinə gəldikdə, Zhou Bo əlavə edib ki, Çin və Azərbaycan arasında mövcud dostluq və etimad mühiti iki ölkə üçün geniş imkanlar yaradır: "Bu əməkdaşlıq yalnız iqtisadi sahədə deyil, eyni zamanda siyasi, elmi-texnoloji, enerji və kənd təsərrüfatı sahələrini də əhatə edə bilər. Məsələn, enerji layihələri, yüksəktexnologiyalı sənaye sektorlarının inkişafı və investisiya təşviqi kimi sahələrdə iki ölkə arasında strateji tərəfdaşlıq qurmaq mümkündür. Lakin bu əməkdaşlığın tam potensialını reallaşdırmaq üçün hər iki tərəfin hökumət nümayəndələri, biznes strukturları və ekspertləri arasında əlavə müzakirələr aparılmalıdır. Bu müzakirələr gələcək layihələrin prioritetlərini müəyyənləşdirməyə, investisiya risklərini qiymətləndirməyə və konkret texniki-iqtisadi planları işləməyə imkan verəcək. Çin-Azərbaycan əməkdaşlığı yalnız ikitərəfli münasibətləri möhkəmləndirməyəcək, həm də regionda iqtisadi inteqrasiyanın dərinləşməsinə və qarşılıqlı faydanın artmasına şərait yaradacaq".

# Bakıda Azərbaycan-C6 ölkələrinin beyin mərkəzlərinin konfransı təşkil olunub

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) təşkilatçılığı ilə Bakıda Azərbaycan-C6 (Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşləri) ölkələrinin beyin mərkəzlərinin konfransı təşkil edilib.**









AZƏRTAC xəbər verir ki, "C6: Vahid region, ortaq gələcək - strateji dialoqun gücləndirilməsi" mövzusuna həsr edilən beynəlxalq konfransda C6-ya üzv ölkələrin aparıcı beyin mərkəzlərinin nümayəndələri də daxil olmaqla, ümumilikdə 60-a yaxın iştirakçı təmsil olunub.

Konfransın açılışında çıxış edən BMTM-in İdarə Heyətinin sədri Fərid Şəfiyev bildirib ki, 2025-ci ilin noyabrında Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşlərinə tamhüquqlu üzv kimi qoşulması regional əməkdaşlıq baxımından mühüm mərhələdir. Onun sözlərinə görə, bu addım Xəzər dənizi hövzəsi boyunca inteqrasiya olunmuş geoiqtisadi və geosiyasi məkanın formalaşmasına töhfə verəcək və Azərbaycanın Mərkəzi Asiya ölkələri ilə əlaqələrini daha da gücləndirəcək.

"Mərkəzi Asiya Azərbaycan üçün yalnız qonşu region deyil, eyni zamanda təbii tərəfdaşdır. Ortaq tarix və zəngin mədəni irs əməkdaşlıq üçün mühüm zəmin yaratsa da, bugünkü münasibətlərin əsas fərqləndirici xüsusiyyəti geoiqtisadi amildir. Bu, xüsusilə enerji, nəqliyyat, logistika və infrastruktur sahələrində əməkdaşlıqda özünü göstərir", - deyə Fərid Şəfiyev qeyd edib.

Daha sonra çıxış edən Türkmənistan Xarici İşlər Nazirliyinin (XİN) Beynəlxalq Münasibətlər İnstitutu yanında Strateji Araşdırmalar Mərkəzinin direktoru Şiri Şiriyev Azərbaycanın Mərkəzi Asiya Liderlərinin Məşvərət Görüşlərinə qoşulmasını regional əməkdaşlıq tarixində yeni mərhələ kimi qiymətləndirib. Onun sözlərinə görə, C6 yalnız dialoq platforması deyil, həm də qlobal qeyri-sabitlik şəraitində ortaq həllər tapmağa, qarşılıqlı faydaya əsaslanan dayanıqlı iqtisadi əlaqələr qurmağa, eləcə də humanitar əməkdaşlıq və təcrübə mübadiləsi vasitəsilə etimadı gücləndirməyə imkan verən canlı mexanizmdir.

Konfrans işini tematik mövzular üzrə sessiyalarla davam etdirib.

❖ ❖ ❖

Özbəkistan Prezidenti yanında Strateji və Regionlararası Araşdırmalar İnstitutunun şöbə müdiri Azamat Sulimanovun moderatorluğu ilə keçirilən "Dialoqdan dayanıqlı mexanizmlərə: C6 əməkdaşlığının gələcəyi" mövzusunda birinci sessiyada formal institutların zəruriliyi və çevik əməkdaşlıq formatlarının səmərəliliyi müzakirə edilib.

Müzakirələrdə Milli Məclisin deputatı, ADA Universitetinin prorektoru, İnkişaf və Diplomatiya İnstitutunun direktoru Fariz İsmayılzadə, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin üzvü Cavid Vəliyev, Qazaxıstan Strateji Araşdırmalar İnstitutunun baş elmi əməkdaşı Sanat Kuşkumbayev, Qırğız Prezidenti yanında Milli Strateji Təşəbbüslər İnstitutunun Analitika və Koordinasiya şöbəsinin baş eksperti Temirlan Razbayev, Qazaxıstan Prezidenti yanında Milli Qurultayın üzvü Talqat Kaliyev, Qırğızıstandan olan politoloq Şeradil Baktuqulov çıxış ediblər.



Sessiya çərçivəsində mövcud mexanizmlər - məsləhətləşmə platformaları, ekspert şəbəkələri və iqtisadi təşəbbüslər dəyərləndirilib. Həmçinin regional dialoqun institusionallaşdırılmasında beyin mərkəzlərinin rolu, C6 ölkələrinin beynəlxalq platformalarda mövqelərinin əlaqələndirilməsi və humanitar əməkdaşlığın davamlı mexanizmlərə çevrilməsi məsələləri diqqət mərkəzində olub.

❖ ❖ ❖

BMTM-in baş məsləhətçisi Yunis Qurbanovun moderatorluğu ilə keçirilən "Əlaqəlilik və inkişaf: C6 əməkdaşlığının iqtisadi ölçüsü və dayanıqlı inkişaf" sessiyasında isə Mərkəzi Asiya Beynəlxalq İnstitutunun direktoru Javlon Vahabov, Türkmənistan XİN yanında Strateji Araşdırmalar Mərkəzinin direktoru Şiri Şiriyev, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin şöbə müdiri Nicat Hacızadə, Azərbaycanın Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin nümayəndəsi Aytən Turabova, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin baş məsləhətçisi Roza Bayramlı çıxış ediblər.

Sessiyada Trans-Xəzər regionu və Orta dəhliz çərçivəsində regional sinerji və rəqabət məsələləri müzakirə olunub. Həmçinin C6 ölkələri arasında enerji əməkdaşlığı, investisiya imkanları və mövcud maneələr, eləcə də ekoloji çağırışlar və etimadın möhkəmləndirilməsi kimi mövzulara toxunulub. Bununla yanaşı, iqtisadi əməkdaşlığın dayanıqlı mexanizmlərə çevrilməsi yolları da əsas müzakirə istiqamətlərindən biri olub.

❖ ❖ ❖

BMTM-in baş məsləhətçisi Roza Bayramlının moderatorluğu ilə keçirilən "Qlobal qeyri-sabitlik şəraitində C6 regional təhlükəsizliyi" mövzusundakı sessiyada təhlükəsizlik sahəsində mövcud ümumi və fərqli təhdidlər təhlil edilib. Qazaxıstanın Asiya Araşdırmaları İnstitutunun direktoru Sultan Akimbekovun, Özbəkistan Prezidenti yanında Strateji və Regionlararası Araşdırmalar İnstitutunun direktorunun birinci müavini Akramjon Nematovun, Tacikistan Prezidenti yanında Strateji Tədqiqatlar Mərkəzinin Sosial məsələlərin təhlili, miqrasiya və ictimai rəyin öyrənilməsi idarəsinin rəisi Baxtiyor Xamdamovun, Cənubi Qafqaz Araşdırmaları Mərkəzinin direktoru Fərhad Məmmədovun, politoloq İlqar Vəlizadənin iştirak etdiyi müzakirələrdə bloklaşma yaratmadan hərbi-siyasi əməkdaşlığın təşviqi, xarici aktorlarla münasibətlərdə balansın qorunması və regionun strateji muxtariyyətinin təmin olunması məsələlərinə xüsusi diqqət yetirilib. Sessiya iştirakçıları qlobal qeyri-sabitlik fonunda C6 regionunun dayanıqlılığını artıran praktik yanaşmaları və səmərəli əməkdaşlıq mexanizmlərini müzakirə ediblər.

# Fransanın qərəzli siyasəti Münxendə bir daha ifşa edildi

**Azərbaycan dövlətinin xarici siyasəti dünyada sülhün, əmin-amanlığın, qarşılıqlı əməkdaşlığın möhkəmləndirilməsinə, ölkələrin və xalqların xoşbəxt həyatının təmin edilməsinə xidmət edir və bu istiqamətdə görülən işlər yüksək qiymətləndirilir. Ölkələrin ərazi bütövlüyünə və suverenliyinə hörmət, beynəlxalq hüquq normalarına sədaqət prinsipi əsasında formalaşan siyasətimiz respublikamızın beynəlxalq aləmdə böyük nüfuz qazanmasına, söz sahibi olmasına, ən mötəbər tribunalardan fikir və təkliflərimizin səsləndirilməsinə zəmin yaratmış, həm də dövlətimizin bəşəri dəyərlərə sadiqliyini təsdiq etmişdir.**



Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev qəzetimizə açıqlamasında bildirib ki, Prezident İlham Əliyevin səmərəli və düşünülmüş fəaliyyəti nəticəsində formalaşan və uğur qazanan xarici siyasətimiz bu gün dünya əhəmiyyətli çox vacib məsələlərin - sülh, insan azadlığı, humanizm, münaqişələrin aradan qaldırılması, imkansız ölkələrə humanitar yardım məsələlərinin həllində aparıcı rolunu göstərir və əksər hallarda öz istəyinə nail olur: "Dövlətimizin rəhbəri fəaliyyətinin bütün dövründə sülhə, əməkdaşlığa sadiq olduğunu sözdə yox, əməli işdə nümayiş etdirib. Xarici ölkələrə son səfərlər - Münxen Təhlükəsizlik Konfransı, Serbiya görüşü bunu bir daha sübut etdi. Bu səfər və çoxsaylı görüşlərdə cənab İlham Əliyev danılmaz bir həqiqəti ortaya qoydu və bildirdi ki, dünyada sülhün, əmin-amanlığın təmin edilməsi üçün dövlət rəhbərlərinin, siyasətçilərin qərəzsiz mövqeyi, onların bir araya gəlmələri, beynəlxalq hüququn norma və prinsiplərinə əməl olunması lazımdır və bu, bəşəriyyətin gələcəyi, iqtisadi inkişaf üçün çox vacibdir".

Deputat qeyd edib ki, Prezidentin Münxen Təhlükəsizlik Konfransı çərçivəsində "France 24" telekanalına verdiyi müsahibə də bu baxımdan xarakterikdir və dünyada çox böyük əks-səda yaradıb. Sabiq Fransa prezidentləri Jak Şirakın, Nikol Sarkozinin və Fransua Ollandın dövrlərində Azərbaycan-Fransa münasibətləri yüksək səviyyədə olub, hətta şəhərlərimiz arasında qardaşlıq əlaqələri yaradılıb. Bu dostluq və qardaşlıq münasibətlərinin əsasını Ulu Öndər Heydər Əliyev qoyub və sonrakı dövrlərdə bu siyasi xətti Prezident İlham Əliyev uğurla davam etdirib. Ancaq Emmanuel Makronun prezidentlik fəaliyyəti dövründə sağlam münasibətlərin üzərindən qara xətt çəkilmiş və bütün hallarda Fransa rəsmiləri Azərbaycana qarşı düşmən mövqeyindən çıxış etmişlər. Bu gün də bu münasibət davam edir.

T.Rzayev bildirib ki, Prezident İlham Əliyevin dəfələrlə xatırlatdığı kimi, Azərbaycanın Fransa ilə dövlət olaraq heç bir problemi yoxdur və mövcud vəziyyət, yaradılan gərginlik Makron hakimiyyətinin yürütdüyü qərəzli, ermənipərəst və beynəlxalq hüququn prinsiplərinə zidd siyasətinin nəticəsidir: "Əlbəttə ki, bu zidd siyasət əyani faktlarda, siyasi gedişlərdə, dövlətimizə və xalqımıza qarşı barışmaz mövqedə əksini tapır. Fransa Prezidenti və əksər rəsmiləri daimi olaraq Azərbaycana qarşı böhtan və şantaj kampaniyası aparıb, uğurlarımıza kölgə salmağa, beynəlxalq aləmdə imicimizə zərbə vurmağa çalışmışlar. Prezidentimizin müsahibəsində bu amillər geniş əksini tapıb və bir daha prinsipial mövqe ortaya qoyularaq Azərbaycanın heç bir təzyiqə, şantaja tabe olmayacağı, diktə ilə işləməyəcəyi, milli mənafeyi daim əsas tutacağı fikri gündəmə gətirilib, soyuqluğun yaranmasının səbəbkarının Fransa olduğu bildirilib".

Komitə sədri vurğulayıb ki, Azərbaycan Fransa ilə həmişə faydalı əməkdaşlıq etmək, münasibətləri yaxşılaşdırmaq, əlaqələri möhkəmləndirmək fikrində olsa da, qarşısında bunun əksini görüb və öz siyasətində dəyişikliklər etməyə məcbur olub. Cənab İlham Əliyevin "Fransa ilə problemlərin kökü bizdən gəlmir" ifadəsi hadisələrin mahiyyətini özündə aydın əks etdirməklə, gələcəyə hesablanmış bir mesajdır. Yəni Fransa öz siyasətini dəyişərsə, Azərbaycan münasibətləri yaxşılaşdırmağa hazırdır. Ancaq əməkdaşlığın nizamlanması real görünmür, çünki dünyanın onlarca ölkəsini uzun illər öz müstəmləkəsi altında saxlayan, milyonlarla insanın qətlinə səbəb olan və bu gün də mürtəce siyasətini davam etdirən Fransa hakimiyyəti yenə də Azərbaycana qarşı yanlış mövqe sərgiləyir. Təcavüzkar dövlət ikili standartlar siyasətini davam etdirməkdədir.

Deputat qeyd edib ki, Fransa Milli Assambleyasının və Senatın Azərbaycan haqqında 10-dan çox saxta, reallıqları əks etdirməyən qətnamələr qəbul etməsi, dövlətimizə qarşı sanksiyaların qəbuluna cəhdlər, Ermənistanın belə qondarma "Dağlıq Qarabağ Respublikası"nı tanımadığı halda, onu tanıması, təcavüzkarları silahlandırması, erməni təcavüzkarlarına daim dəstək verilməsi real faktlardır və təkzib oluna bilməz. Bu gün dünyada neokolonializm siyasəti yürüdən, Yeni Kaledoniya, Korsika, digər dənizaşırı və kiçik ölkələrdə xalqların azadlığını silah gücünə boğan Fransanın təcavüzkar əməllərinin, törətdiyi faciələrin Azərbaycan, dövlətimizin rəhbəri tərəfindən ifşa olunması bəşəri dəyərlərə, insanlığa sadiqlikdir, ədalətin bərpa edilməsinə göstərilən təşəbbüsdür. Bunun münaqişə yaratmaq, hansısa dövləti qızışdırmaq kimi qələmə verilməsi və Azərbaycanın ittiham edilməsi yanlışlıqdır, diplomatiyaya ziddir və siyasi oyunbazlıqdır. "Azərbaycan Prezidenti öz çıxışlarında dəfələrlə bildirib ki, Fransanın ölkəmizə qarşı sərgilədiyi mövqe, yürütdüyü siyasət, Ermənistanı müdafiə etməsi və təcavüzkarları münaqişəyə qızışdırması sülhə maneədir, Cənubi Qafqazda təhlükəsizliyimizin, sabitliyin bərqərar olunmasına xidmət etmir, əslində, yeni bir müharibəyə cəhddir. Bildirildiyi kimi, münasibətlərin öz məcrasına qayıtması, sağlamlaşdırılması üçün Fransanın, ilk növbədə, Azərbaycanın suverenliyinə hörmət etməsi, Ermənistanı müharibəyə, qarşıdurmaya təhrik edən siyasətindən əl çəkməsi və Cənubi Qafqazdakı yeni geosiyasi reallıqları qəbul etməsi çox vacibdir. Əks təqdirdə, Azərbaycan onunla diktə dilində danışan, düşmən mövqeyi ortaya qoyan bir dövlətlə heç bir yaxşı münasibət qura bilməz", - deyə o əlavə edib.

Komitə sədri Azərbaycanın 30 ildən sonra suverenliyini tam bərpa etdiyini, erməni faşistlərinin ayaqlarını torpaqlarımızdan kəsdiyini xatırladaraq bildirib ki, haqq-ədalət qələbə çalıb, faşist ermənilərinin başı əzilib. Qarabağ torpaqları artıq azaddır və bu azadlığı, Qarabağın əzəli Azərbaycan torpağı olduğunu Ermənistan qəbul etdiyi halda Fransanın guya Qarabağ ermənilərinə təcavüz edilməsini, terror, soyqırımı törədilməsini vaxtaşırı səsləndirməsi ölkəmizə qarşı xəyanətdən, beynəlxalq hüquq normalarına hörmətsizlikdən, ara qarışdırmaqdan başqa bir şey deyil.

Deputat diqqətə çatdırıb ki, Prezident İlham Əliyev müsahibəsində bu hallara qarşı kəskin münasibətini bildirərək, jurnalistin təxribat xarakterli suallarına real faktlarla cavab verərək Fransa dövlətinin qərəzli siyasətini bir daha ifşa edib: "Verilən cavablar Azərbaycanın həm sülhə, demokratiyaya, əməkdaşlığa sadiq olduğunu, həm də bu yoldan heç zaman dönməyəcəyini nümayiş etdirir. Digər tərəfdən Azərbaycanın gücü və imkanları ortaya qoyulub. Bildirilib ki, Azərbaycan güclü, beynəlxalq aləmdə tanınan, xalqına və birliyinə arxalanan dövlətdir. Dövlətimiz milli mənafeyini qorumağa və bütün mənfi təsirləri dəf etməyə qadirdir. İqtisadi cəhətdən inkişaf edən, qalib və güclü orduya, qəhrəman xalqa, mətanətli, uzaqgörən liderə malik olan bir ölkə ilə sülh, əməkdaşlıq münasibətləri qurmaq, sağlam əlaqələr yaratmaq daha əhəmiyyətlidir və bu, bütün tərəflər üçün vacibdir.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

# Müstəmləkəçiliyi əks etdirən dünyada ilk Virtual Muzey

**Fevralın 18-də Bakı Təşəbbüs Qrupunun (BTQ) təşkilatçılığı ilə müstəmləkəçiliyə həsr edilmiş Virtual Muzeyin təqdimatı olub.**







AZƏRTAC xəbər verir ki, təqdimat mərasimində müstəmləkəçilik irsi ilə bağlı elmi araşdırmalar aparan tədqiqatçılar, alimlər, habelə antropoloqlar iştirak ediblər.

Bakı Təşəbbüs Qrupunun icraçı direktoru Abbas Abbasov, antropoloq, "QaraSivilizasiya" Muzeyinin İdarə Heyətinin üzvü və "L'Africaine d'Architecture" platformasının təsisçisi Sename Kofi Aqbodjinu, eləcə də dekolonial tədqiqatlar üzrə multidisiplinar araşdırmaçı, "QaraSivilizasiya" Muzeyinin kuratoru Natali Elizabet Mba Bikoro Virtual Muzey haqqında ətraflı məlumat verərək iştirakçıların suallarını cavablandırıblar.

Qeyd olunub ki, layihənin əsas məqsədi müstəmləkə sisteminin təsirlərinə dair arxiv sənədlərini, foto və videomaterialları, eksponatları və digər vizual mənbələri ictimaiyyətə interaktiv formada təqdim etməkdir.

İngilis və fransız dillərində fəaliyyət göstərəcək muzey müstəmləkəçiliyi və onun müasir təzahürlərini tarixi, hüquqi, iqtisadi, sosial, mədəni və ekoloji aspektlərdə sistemli şəkildə əks etdirən rəqəmsal məlumat bazası olacaq.

Virtual Muzeydə kolonial idarəçilik modelləri, o cümlədən assimilyasiya siyasəti, yerli xalqların adət-ənənələrinə və həyat tərzinə müdaxilələr, mənəvi dəyərlərin və ictimai-mədəni institutların zəiflədilməsi, eləcə də kimlik və irsin sıradan çıxarılmasına yönəlmiş siyasətlər geniş şəkildə izah olunur.

Muzeydə həmçinin müstəmləkə əleyhinə müqavimət hərəkatları, müstəqillik uğrunda mübarizənin əsas mərhələləri və bu proseslərin insan talelərində əksi yer alır. Qətlə yetirilmiş, zorakılığa məruz qalmış, qanunsuz həbs edilmiş və məcburi köçürülmüş şəxslərin fərdi hekayələri ziyarətçilərə çatdırılır.

Rəqəmsal Muzey müstəmləkəçilik sahəsində araşdırma aparan tarixçilər, politoloqlar, beynəlxalq hüquq üzrə mütəxəssislər və digər tədqiqatçılar üçün etibarlı mənbədir. Eyni zamanda





platforma ali təhsil müəssisələri, media nümayəndələri, vətəndaş cəmiyyəti institutları, beynəlxalq təşkilatlar və analitik mərkəzlər üçün açıq resurs kimi nəzərdə tutulur. Layihə dekolonizasiya ilə bağlı qlobal müzakirələrə töhfə verməklə yanaşı, Azərbaycanın bu istiqamətdə fəal mövqeyini nümayiş etdirir.

Bakı Təşəbbüs Qrupu tərəfindən ərsəyə gətirilmiş Virtual Muzey dünyada müstəmləkəçiliyə və onun yeni təzahürlərinə həsr edilmiş ilk virtual platformadır.

# Azərbaycan və Ukrayna arasında mina təhlükəsi ilə mübarizə istiqamətində əməkdaşlıq perspektivləri müzakirə edilib

**Azərbaycan Respublikası Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanov Ukraynanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Yuri Husyev ilə görüş keçirib.**




Agentlikdən AZƏRTAC-a verilən məlumata görə, görüşdə hər iki ölkə üçün prioritet sahələrdən biri olan mina təhlükəsi ilə mübarizə istiqamətində ikitərəfli əməkdaşlıq perspektivləri, eləcə də ANAMA ilə Ukrayna Fövqəladə Hallar Dövlət Xidməti arasında Anlaşma Memorandumunun icrası məsələləri müzakirə edilib.

# ABŞ ilə imzalanmış xartiya Azərbaycanın mövqelərinin möhkəmləndirilməsinin daha bir mühüm amilinə çevriləcək

**"Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu (TRIPP) layihəsinin həyata keçirilməsi Rusiyaya iqtisadi və logistik üstünlüklər gətirə bilər".**

AZƏRTAC xəbər verir ki, bunu Amerika Birləşmiş Ştatlarının (ABŞ) vitse-prezidenti Cey Di Vensin Bakıya səfərinin yekunlarını və Azərbaycan-ABŞ "Strateji Tərəfdaşlıq haqqında Xartiya"sının imzalanmasını şərh edən Azərbaycanın Rusiyadakı səfiri Rəhman Mustafayev RTVI telekanalına müsahibəsində bildirib.

Diplomatın sözlərinə görə, Azərbaycanın xarici siyasəti əsas qlobal güc mərkəzləri ilə balanslaşdırılmış qarşılıqlı fəaliyyət prinsipləri əsasında qurulub. "Onun təməlində aparıcı dünya oyunçularına balanslaşdırılmış yanaşma, qonşularla qarşılıqlı faydalı əməkdaşlıq və məsuliyyətli siyasət prinsipləri dayanır", - deyə o qeyd edib.



Səfir vurğulayıb ki, ABŞ ilə tərəfdaşlığın inkişafı rəsmi Bakı ilə Moskva arasında müttəfiqlik münasibətlərinə zidd deyil. "ABŞ ilə imzalanmış xartiya Azərbaycanın mövqelərinin möhkəmləndirilməsinin və Cənubi Qafqazda sabitliyin daha bir mühüm amilinə çevriləcək ki, bu da siyasi baxımdan regionun bütün ölkələrinə, o cümlədən Rusiyaya birbaşa fayda verir", - deyə R.Mustafayev bildirib.

Təşəbbüsün iqtisadi ölçüsündən danışan səfir qeyd edib ki, TRIPP layihəsinin həyata keçirilməsi və Zəngəzur dəhlizinin açılması zamanı Rusiya yeni nəqliyyat imkanları əldə edəcək. "Rusiya da fayda əldə edəcək, onun həyata keçirilməsi "Şimal-Cənub" dəhlizini gücləndirəcək, Naxçıvan vasitəsilə Türkiyə ilə birbaşa dəmir yolu əlaqəsi və Aralıq dənizi limanlarına çıxış imkanını, həmçinin İran, Fars körfəzi və Hind okeanı limanlarına çıxış imkanı əldə edəcək", - deyə səfir diqqətə çatdırıb.

Diplomat qeyd edib ki, Cənubi Qafqazda nəqliyyatın qarşılıqlı bağlantısının inkişafı regional sabitliyin və beynəlxalq ticarət marşrutlarının genişləndirilməsinin mühüm elementi kimi nəzərdən keçirilir.

# Qırğız ekspert: "Azərbaycan Mərkəzi Asiya üçün dəyişikliklərin və transformasiyanın aparıcı mərkəzlərindən biridir"

**"Azərbaycan və Mərkəzi Asiya ölkələri unikal coğrafi mövqeyə malik regionlarda yerləşir. Ölkənin əhəmiyyəti yalnız coğrafi mövqeyi ilə məhdudlaşmır, geoloji xüsusiyyətləri, zəngin yeraltı sərvətləri, Xəzər dənizinə çıxışı, eləcə də Türkiyə ilə quru sərhədinin olması bu üstünlükləri daha da gücləndirir".**

Bunu AZƏRTAC-a açıqlamasında Qırğızıstan Dünya İqtisadiyyatı İnstitutunun direktoru, politoloq Şeradil Baktıqulov deyib.



Ekspert qeyd edib ki, Azərbaycanı fərqləndirən əsas cəhət məhz bu amillərin məcmusudur və bu faktorlar ölkənin həm regionda, həm də Mərkəzi Asiya ölkələri üçün artan strateji rolunu müəyyənləşdirir. Onun fikrincə, Azərbaycan haqqında danışarkən ən çox müzakirə olunan məsələlərdən biri Zəngəzur dəhlizi və bu dəhliz çərçivəsində formalaşan tranzit marşrutlarıdır.

Şeradil Baktıqulov vurğulayıb ki, Zəngəzur dəhlizi yalnız Azərbaycanın iki hissəsini birləşdirən nəqliyyat xətti deyil: "Bu marşrut eyni zamanda Mərkəzi Asiya ölkələri, eləcə də regiona yaxın yerləşən Çin, Əfqanıstan və Pakistan kimi dövlətlər üçün yükdaşımaların həyata keçirilməsi baxımından yeni imkanlar açır. Zəngəzur dəhlizi regional və transregional ticarət əlaqələrinin genişlənməsinə xidmət edən mühüm logistika platforması kimi çıxış edir".

Politoloq bildirib ki, Zəngəzur dəhlizi vasitəsilə formalaşan yeni nəqliyyat imkanları Asiya ilə Avropa arasında əlaqələrin daha da möhkəmlənməsinə şərait yaradır. Bu baxımdan Azərbaycan yalnız tranzit ölkə kimi deyil, həm də regional inteqrasiyanın təşəbbüskarlarından biri kimi çıxış edir.

Ekspertin fikrincə, Azərbaycan və Mərkəzi Asiya ölkələrinin qarşısında ortaq gələcək və ümumi inkişaf hədəfləri dayanır. Bu hədəflər ölkələrin iqtisadi potensialının artırılmasına, rifahın yüksəldilməsinə və regionun dayanıqlı inkişafına xidmət edir. Şeradil Baktıqulov vurğulayıb ki, məhz bu kontekstdə Azərbaycan Mərkəzi Asiya üçün dəyişikliklərin və transformasiyanın aparıcı mərkəzlərindən biri kimi çıxış edir və regionda yeni əməkdaşlıq modelinin formalaşmasına töhfə verir.

# "Regionda yeni güc mərkəzinin yaradılması zərurətə çevrilib"

**"Bakıda "C6: Vahid region, ortaq gələcək -Strateji dialoqun gücləndirilməsi" mövzusunda beynəlxalq konfransın keçirilməsi Cənubi Qafqaz, Mərkəzi Asiya və Türkiyə üçün əhəmiyyətli tədbirdir. Konfransda səslənən təkliflər və irəli sürülən siyasi xarakterli layihələr gələcəyə hesablanmış geosiyasi proseslərin tənzimlənməsinə təkan verəcək. Mərkəzi Asiyanın Cənubi Qafqaz ilə, Azərbaycanın isə Türkiyə ilə bağlantısının olması yeni güc mərkəzinin formalaşması faktını ortaya qoyur".**

Bu sözləri AZƏRTAC-a açıqlamasında Türkiyənin "Haber 365" media qrupunun rəhbəri, siyasi ekspert Yakub Aslan deyib.

Onun sözlərinə görə, hazırda dünyada güc amili bütün dəyərlərdən və beynəlxalq hüquqdan daha üstün tutulur.

"Azərbaycanın 44 günlük Vətən müharibəsində qələbə qazanması buna bariz nümunədir. Haqlı olan Azərbaycan beynəlxalq hüquqa istinad etdikcə əraziləri işğal altında qaldı. Lakin gücünü toplayıb ərazisini işğaldan azad etdikdə, heç bir beynəlxalq təşkilat bunun əleyhinə çıxmadı. Çünki Azərbaycan, ilk növbədə, güclü, sonra isə haqlı idi. Belə bir geosiyasi proseslər fonunda yalnız müttəfiqlik və qarşılıqlı faydalı əməkdaşlıqla dünya siyasətində söz sahibi olmaq və suverenliyi qoruyub müstəqil siyasət yürütmək olar. Mərkəzi Asiya 80 milyon əhalisi ilə Almaniyanın ərazisindən 11 dəfə böyükdür. Regionda neft və qaz ilə yanaşı mis, volfram, qızıl kimi nadir yer mineralları var. Təkcə Qazaxıstanda 19 faydalı qazıntı mənbələri var ki, bu gün dünya sənayesində həmin ehtiyatlara böyük ehtiyac var. Azərbaycan Mərkəzi Asiya üçün tranzit ölkə Türkiyə isə Avropaya çıxış təmin edən dövlət kimi böyük birliyin formalaşması üçün əsasdır", - deyə Yakub Aslan vurğulayıb.



Siyasi ekspert əlavə edib ki, yeni birliyin yaranması ABŞ və Avropa İttifaqı tərəfindən də dəstəklənir: "ABŞ-nin vitse-prezidentinin Azərbaycana səfəri və Zəngəzur dəhlizinə dəstək Orta dəhlizə də dəstək deməkdir. Bu gün yaranmış imkanlardan səmərəli istifadə edib bu birliyi yaratmaq lazımdır. Azərbaycan hər dəfə yeni təşəbbüslərlə çıxış edərək birliyə, sülhə və əməkdaşlığa can atır. Bu təşəbbüslər dəstəklənərək nəzərdə tutulan enerji və nəqliyyat layihələri tam olaraq həyata keçirilsə, birliyin yarandığını müşahidə edə bilərik".

# "Azərbaycan enerji ixracatçısından fəal regional balans yaradan aktora çevrilib"

**"Fevralın 15-də Belqradda Prezident İlham Əliyevin səsləndirdiyi fikirlər sıradan diplomatik bəyanat deyil, Azərbaycanın xarici siyasətinin Qarabağ Zəfərindən sonra formalaşan yeni strateji mahiyyətini açıq şəkildə ortaya qoyur. Bu bəyanat Bakının hərbi qələbəni uzunmüddətli siyasi və diplomatik üstünlüyə çevirmək niyyətinin bariz ifadəsidir".**

Bunu AZƏRTAC-a açıqlamasında türk ekspert Mehmet Emir Aksoy bildirib.

Onun sözlərinə görə, Qarabağda əldə edilən hərbi uğur Azərbaycan dövlətinin siyasi iradəsini və bu sahədə qətiyyətini nümayiş etdirdi. Lakin tarix göstərir ki, hərbi qələbə diplomatiya ilə möhkəmləndirilmədikdə davamlı gücə çevrilmir. "Məhz bu mərhələdə Azərbaycan hərbi nailiyyətlərini diplomatik konsolidasiya ilə tamamlayır. Belqradda verilən mesajlar bu prosesin artıq institusional mərhələyə keçdiyini göstərir", - deyə Mehmet Emir Aksoy vurğulayıb.

Suverenlik və ərazi bütövlüyünün qarşılıqlı dəstəklənməsi mövzusuna toxunan ekspert qeyd edib ki, bu yanaşma təkcə Azərbaycan-Serbiya münasibətlərini deyil, bütövlükdə dövlət mərkəzli beynəlxalq nizam anlayışını əks etdirir. Qlobal sistemdə qeyri-müəyyənliyin artdığı bir dövrdə rəsmi Bakının suverenlik prinsipini əsas götürərək regional koalisiyalar qurması Azərbaycanın artıq passiv enerji ixracatçısından fəal regional balans yaradan aktora çevrildiyini göstərir.

Mehmet Emir Aksoy bildirib ki, enerji və nəqliyyat sahəsində əməkdaşlıqla bağlı vurğular Azərbaycanın geoiqtisadi strategiyasının mühüm tərkib hissəsidir. "Cənub qaz dəhlizi"nin genişlənən təsiri, Orta dəhlizin Avropa bağlantıları və Balkan xətti üzrə qurulan yeni tərəfdaşlıqlar Azərbaycanın Avrasiya məkanında tranzit və enerji qovşağı rolunu daha da gücləndirir. Bu isə enerji diplomatiyasının artıq təkcə iqtisadi deyil, eyni zamanda siyasi təsir alətinə çevrildiyini nümayiş etdirir.




Ekspert Türkiyə-Azərbaycan strateji tərəfdaşlığını da vurğulayıb. Onun sözlərinə görə, bu müttəfiqlik yalnız tarixi və mədəni bağlara deyil, real təhlükəsizlik və enerji arxitekturasına söykənir. "Türkiyənin regional çıxış imkanları ilə Azərbaycanın enerji və geosiyasi mövqeyi birləşdikdə Cənubi Qafqazdan Balkan regionuna qədər uzanan geniş coğrafiyada sabitlik yaradan güclü sinerji formalaşır", - deyə o qeyd edib.

Ekspert bildirib ki, Belqradda səsləndirilən fikirlər Azərbaycanın artıq yalnız öz təhlükəsizliyini təmin edən dövlət olmadığını, eyni zamanda regional nizam və sabitlik formalaşdırmaq iddiası ilə çıxış etdiyini göstərir. "Qarabağda qazanılan hərbi uğur bu gün strateji diplomatik baxışla tamamlanır. Azərbaycanın yeni xarici siyasət arxitekturası dörd əsas sütuna söykənir: suverenlikdə qətiyyət, enerjidə strateji yanaşma, diplomatiyada balans və regional koalisiyalarda rasional genişlənmə", - deyə Mehmet Emir Aksoy əlavə edib.

Onun fikrincə, bu diplomatik model təkcə bu günün deyil, gələcək regional və qlobal güc balanslarının formalaşmasında da mühüm rol oynayacaq.

# Talqat KALIYEV: "C6 formatının inkişafının məntiqi perspektivləri var"

**"C6 formatı, əslində, çox maraqlı və perspektivli formatdır. Çünki bu format Mərkəzi Asiya bölgəsini hüdudlarından kənara genişləndirərək Mərkəzi Asiya + Cənubi Qafqaz makroregionunu formalaşdırır. Burada lider, şübhəsiz ki, bu gün artıq orta güclər sırasına daxil olan Azərbaycandır. Buna görə də güman etmək məntiqlidir ki, sülh prosesi inkişaf etdikcə Gürcüstanın, Ermənistanın, bəlkə də Türkiyənin qoşulması ilə gələcəkdə region daha da genişlənə bilər".**

Bunu AZƏRTAC-a açıqlamasında Qazaxıstan Respublikası Prezidenti yanında Milli Qurultayın üzvü, siyasi elmlər namizədi Talqat Kaliyev deyib.

O bildirib ki, bu halda sərhədlərinin bir ucu Çinə çatan, digər ucu isə birbaşa Avropa İttifaqına söykənən makroregion yaratmaq mümkün olar. O zaman bu bölgə



çox güclü qüvvəyə, ciddi iqtisadi və geosiyasi oyunçuya çevrilər və maraqlarını daha əlverişli mövqelərdən formalaşdıra bilər.

Talqat Kaliyev qeyd edib ki, bu formatın inkişafının məntiqi perspektivləri var və ölkələrimizin hər biri bundan yalnız faydalanacaq. Azərbaycanın coğrafi mövqeyi, şübhəsiz ki, Mərkəzi Asiya üçün əlverişlidir - Avropaya gedən yol üzərində yerləşən və Xəzər dənizinin qarşı tərəfində olan ilk ölkədir.

"Ona görə də tammiqyaslı, hərtərəfli əməkdaşlığın inkişafı bizim üçün son dərəcə vacibdir. Sevindirici haldır ki, Azərbaycan bu baxımdan qarşılıqlı maraq göstərir. Son bir neçə məşvərət görüşündə Azərbaycan müşahidəçi qismində iştirak edib və bu gün artıq təşkilatın tamhüquqlu üzvünə çevrilib. Yəni Azərbaycan bu baxımdan çox ardıcıldır. Mərkəzi Asiya ölkələri də qarşılıqlı maraq göstərir. Şübhəsiz ki, indi çox güclü bir sinerji əldə edə bilərik", - deyə Talqat Kaliyev əlavə edib.

# Şəxsiyyəti müəyyənləşdirilən daha 17 itkin şəhid dəfn olunacaq

**Birinci Qarabağ müharibəsində itkin düşdüyü hesab edilən və şəxsiyyəti müəyyənləşdirilən daha 17 itkin şəhid dəfn olunacaq.**

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasından AZƏRTAC-a verilən məlumata görə, fevralın 19-da 8 hərbçi, fevralın 20-də isə 8 hərbçi və bir mülki şəhid respublikamızın müxtəlif şəhər, rayon və kənd qəbiristanlıqlarında dəfn ediləcəklər.

# Ədalətin zəfəri

## Separatçıların hər biri layiqli cəzalarını aldılar



**İnsanlıq əleyhinə və müharibə cinayətləri törədən şəxslərin ədalət qarşısına çıxarılması hər bir dövlət üçün prinsip məsələsidir. Tarix göstərir ki, müharibələr bitsə də, törədilmiş ağır cinayətlər uzun illər cəzasız qala bilir. Bu isə yeni təhlükələrə yol açır, cəzasızlıq mühitini gücləndirir. Ona görə də müharibə və insanlıq əleyhinə cinayətlərə hüquqi qiymət verilməsi həm beynəlxalq hüququn tələbi, həm də mənəvi bir borcdur.**

Azərbaycan postmünaqişə dövründə bu istiqamətdə ardıcıl addımlar atır. Bir neçə gün əvvəl əli Azərbaycan xalqının qanına bulaşmış separatçılar məhkəmədə layiqli cəzalarını aldılar. Fevralın 17-də isə Ruben Vardanyana hökm oxundu. Ruben Vardanyan vaxtilə Azərbaycanın Qarabağ bölgəsindəki separatçı rejimin "dövlət naziri" kimi təqdim olunurdu. O, 2022-ci ilin sentyabrında Azərbaycan ərazisinə qanunsuz daxil olmuşdu. Onun bölgəyə gəlişi təsadüfi deyildi və separatçı planların tərkib hissəsi idi.

2023-cü ilin sentyabrında keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində Azərbaycan öz ərazilərində konstitusiya quruluşunu tam bərpa etdi. Separatçı rejimə son qoyuldu. Ruben Vardanyan isə Ermənistan istiqamətində hərəkət edərkən sərhəddə saxlanıldı və Bakıya gətirildi. Bundan sonra onun barəsində istintaq və məhkəmə prosesi başladı.

Bir ildən çox davam edən açıq məhkəmə araşdırmaları zamanı R.Vardanyana qarşı ittihamlar elan olundu. O, təcavüzkar müharibənin planlaşdırılması və aparılmasında iştirak, əhalinin məcburi köçürülməsi, təqib, insanların zorla yoxa çıxarılması, qanunsuz azadlıqdan məhrumetmə, işgəncə, muzdlu fəaliyyət, müharibə qanunlarının pozulması, qəsdən adam öldürmə və adam öldürməyə cəhd, terrorçuluq və terrorçuluğun maliyyələşdirilməsi, cinayətkar birlik yaratma, qanunsuz silahlanma, konstitusiya quruluşunu zorla dəyişdirmə cəhdləri və dövlət sərhədini qanunsuz keçmə kimi əməllərdə təqsirli bilindi. Yəni söhbət onun sistemli və məqsədli cinayətkar fəaliyyətindən gedir.

Fevralın 17-də Bakı Hərbi Məhkəməsində R.Vardanyan 20 il müddətinə azadlıqdan məhrumetmə cəzasına məhkum edildi. Qərara əsasən, cəzanın ilk hissəsini həbsxanada, qalan müddəti isə ciddi rejimli cəzaçəkmə müəssisəsində çəkməlidir. Onu da qeyd edək ki, dövlət ittihamçısı daha ağır, ömürlük cəza istəmişdi.

Məhkəmə prosesinə xaricdən təzyiq cəhdləri də oldu. Məsələn, Avropa Parlamenti müxtəlif bəyanatlar və qətnamələrlə çıxış etdi. Habelə bəzi Qərb media orqanlarında kampaniyalar aparıldı. Hətta Vardanyanın Nobel Sülh Mükafatına namizəd göstərilməsi ilə bağlı təşəbbüslər də irəli sürüldü. Göründüyü kimi, məsələni geosiyasi müstəviyə daşımaq cəhdləri vardı. Amma bütün bunlar məhkəmənin gedişinə təsir edə bilmədi.

Bu mənada Prezident İlham Əliyev Münxendə "France 24" telekanalına müsahibəsində bu barədə bildirib: "Bilirsiniz, bu insanlar bəşəriyyətə qarşı ağır cinayətlər törədiblər. İkinci Dünya müharibəsindən sonra Nürnberq məhkəmələrində ölüm hökmünə məhkum edilmiş bütün o nasist liderlərini təsəvvürünüzə gətirin ki, iki aydan sonra kimsə gəlib deyəcək, xahiş edirəm, onları azad edin". Jurnalistin "Bu, sizin üçün eyni şeydir?" sualına isə dövlət başçısı belə cavab verdi: "Bəli, tamamilə. Hətta daha da pisdir, daha da pisdir. Onların törətdiyi cinayət İkinci Dünya müharibəsi zamanı nasistlərin etdiklərindən daha pis idi".

Bu fikirlər, əlbəttə, dövlətimizin prinsipial mövqeyini aydın şəkildə ortaya qoyur. Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycan üçün bu, həm də qürur məsələsidir. Prezidentin illər əvvəl "bu cinayətlər cəzasız qalmayacaq" fikirləri bu gün məhkəmə qərarları ilə reallaşır.

Bir vaxtlar Qarabağda meydan oxuyan, təhdidlər yağdıran şəxslər Azərbaycan məhkəməsi qarşısında cavab verdilər. Vaxtilə "Bakıda çay içəcəyik" deyənlər indi Bakıdadırlar, amma dəmir barmaqlıqlar arxasında. Azərbaycan cəmiyyəti proseslərin belə nəticələnəcəyinə əmin idi.

Bununla qarşıda duran prinsipial vəzifələrdən biri də yerinə yetirildi, xalqımıza qarşı törədilmiş ağır cinayətlərə hüquqi qiymət verildi. Azərbaycan müharibə cinayətləri və insanlıq əleyhinə əməlləri törədənlərin hüquqi müstəvidə cəzalandırılmasını uğurla tamamladı.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# Maksim ŞEVÇENKO: "Vardanyan barəsində çıxarılan məhkəmə hökmü münaqişə tərəfdarlarına verilən siqnaldır"

**Rusiyalı jurnalist və ictimai xadim Maksim Şevçenko Ruben Vardanyan barəsində Bakıda çıxarılan hökmü şərh edərək bildirib ki, bu, onun siyasi hərəkətlərinin məntiqi nəticəsidir.**

AZƏRTAC xəbər verir ki, Şevçenko "Vestnik Kavkaza" proqramının efirindəki çıxışında Ermənistanın Dilican şəhərində anadan olan və Qarabağla birbaşa əlaqəsi olmayan Vardanyanın uzun illərdir münaqişənin həllinə və region xalqları arasında etimadı bərpa etməyə yönəlmiş proseslərdən kənarda qaldığını qeyd edib. "O, heç vaxt öz imkanlarından ədaləti bərpa etmək, insanlara köməklik göstərmək və ya ermənilər ilə azərbaycanlılar arasında dinc münasibətlər qurmaq üçün istifadə etməyib", - deyə jurnalist bildirib.



Şevçenkonun sözlərinə görə, keçmiş iş adamı Qarabağa eskalasiya dövründə gəlib və sərt siyasi mövqe tutub, yəni faktiki olaraq qarşıdurma xəttini dəstəkləyib. O, həmçinin bildirib ki, Vardanyan özünün beynəlxalq statusuna və siyasi təsirinə güvənir, bunun onun toxunulmazlığını təmin edəcəyinə inanırdı. Ekspert qeyd edib: "Vardanyanın düşüncəsinə görə, milyarder və oliqarx statusu o deməkdir ki, ona heç kim toxunmayacaq, amma bunun belə olmadığı məlum oldu".

Şevçenkonun sözlərinə görə, Vardanyanın Qarabağ hadisələrində iştirakı daxili siyasi ambisiyalarla daha çox bağlıdır. "Bu, onun üçün Ermənistana milli qəhrəman kimi qayıtmaq və hakimiyyət uğrunda mübarizə aparmaq istiqamətində atılan bir addım idi", - deyə jurnalist bildirib.

Məhkəmə qərarını şərh edən jurnalist çıxarılan hökmün "münaqişənin dinc yolla həllindən daha çox, onun davam etməsinə səy göstərənlər üçün bir siqnal" olduğunu qeyd edib. O, həmçinin əlavə edib ki, regionda davamlı sülh yalnız eskalasiya və revanşizm siyasətindən imtina etməklə mümkündür.

İQTİSADİYYAT

# Ötən il rəqəmsal iqtisadiyyatda strateji yeniliklər baş verib

**İqtisadiyyat Nazirliyinin tabeliyində 4-cü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi (4SİM) tərəfindən 2025-ci ilin yekunlarına dair mətbuat konfransı keçirilib.**

4SİM-in icraçı direktoru Fariz Cəfərov 2025-ci ildə qurumun sənaye müəssisələrinin rəqəmsal transformasiyası, innovativ inkişafın təşviqi və insan resurslarının rəqəmsal bacarıqlarının inkişafı və digər istiqamətlərdə fəaliyyəti barədə məlumat verib. Bildirilib ki, 2025-ci ildə Sənaye 4.0-a keçidi nəzərdə tutan "Rəqəmsal iqtisadiyyatın inkişafına dəstək" proqramına start verilib. Proqrama müraciət edən müəssisələrin texnoloji hazırlıq səviyyəsi beynəlxalq metodologiyalar əsasında qiymətləndirilir. Qiymətləndirmə nəticələrinə uyğun olaraq, hər bir müəssisənin spesifik ehtiyacları nəzərə alınmaqla texnoloji transformasiya üzrə fərdi yol xəritələri hazırlanır. Daha əvvəl proqramın pilot mərhələsini uğurla başa vurmuş "METAK", "Azerfloat" və "STP Global Cable" şirkətlərinin rəqəmsal transformasiyasına dəstək göstərilib. Hazırda həmin müəssisələr onlar üçün hazırlanmış yol xəritəsini icra edirlər. Proqramın müəssisələrdə 5-8 faiz arasında EBİTDA artımı yaradacağı gözlənilir.

Qeyd olunub ki, 2025-ci il ərzində sənaye, tikinti, metallurgiya, pərakəndə satış sektorlarında fəaliyyət göstərən daha 15 müəssisədə diaqnostika prosesi tamamlanıb və yerli və beynəlxalq tərəfdaşlarla birgə bu müəssisələr üçün yol xəritələri hazırlanıb. Yol xəritələrinin icrası mərhələsində müəssisələrə maliyyə və peşəkar ekspert dəstəyi təqdim olunacaq. O da nəzərə çatdırılıb ki, sənaye 4.0 transformasiyası müəssisələrə mühəndis və əməliyyat xərclərinin optimallaşdırılması, məhsuldarlığın artırılması, istehsal keyfiyyətinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılması və resurslardan daha səmərəli istifadə kimi mühüm üstünlüklər qazandırır. Bu yanaşma müəssisələrin daha çevik, rəqabətqabiliyyətli və dayanıqlı fəaliyyət göstərməsinə imkan yaradır. 2030-cu ilə qədər 60-dan çox yerli müəssisənin rəqəmsal və dayanıqlı transformasiya prosesinə cəlb edilməsi hədəflənir.

Mətbuat konfransında vurğulanıb ki, 4SİM 2025-ci ildə rəqəmsal iqtisadiyyata keçidin dəstəklənməsi məqsədilə insan kapitalının inkişafına yönəlmiş layihələr həyata keçirib. 2023-cü ildə başlayan "4Sİ Akademiyası" çərçivəsində vətəndaşlarımız dünyanın ən böyük onlayn tədris platforması olan "Coursera"da təlimlərdən ödənişsiz faydalanmaq imkanı əldə ediblər. Bu günədək 60 mindən artıq Azərbaycan vətəndaşı platformada süni intellekt, proqramlaşdırma, data analitikası və digər müasir texnologiyalar üzrə bilik və bacarıqlarını artırıb.

"4Sİ Akademiyası" çərçivəsində 2025-ci ilin aprel ayından start götürən milli proqram rəqəmsal bacarıqların artırılması, innovasiyayönümlü təfəkkürün təşviqi və yeni texnologiyalara inteqrasiyanın sürətləndirilməsi, həmçinin iştirakçılara öz bilik və bacarıqlarını inkişaf etdirmək üçün geniş imkanlar yaradıb. Azərbaycan vətəndaşları "Coursera" platformasında yaşından və məşğulluq vəziyyətindən asılı olmayaraq dünyanın 375-dən çox aparıcı universitet və texnologiya şirkətlərinin 13 mindən çox təliminə ödənişsiz çıxış əldə ediblər.

Proqram ölkənin bütün regionlarını əhatə edir. 2026-cı ilin aprel ayınadək ümumilikdə 70 min vətəndaşın proqramdan faydalanması nəzərdə tutulub. İstifadəçilərin əsas hissəsi 21-30 yaş arasında olsa da, proqram müxtəlif yaş qruplarını əhatə edib.

İnsan kapitalının inkişafı istiqamətində həyata keçirilən digər mühüm təşəbbüs 4SİM tərəfindən icra olunan təcrübə proqramlarıdır. Ötən il 5 belə təcrübə proqramı çərçivəsində 500-dən artıq gənc rəqəmsal iqtisadiyyat, layihələrin idarə olunması, data analitikası, süni intellekt və digər qabaqcıl texnoloji sahələr üzrə müxtəlif layihələrdə iş təcrübəsi qazanıb. Proqram iştirakçıları əldə etdikləri praktiki bacarıqlar sayəsində əmək bazarında rəqabət qabiliyyətlərini artırıblar.

Məlumat verilib ki, 4SİM insan resurslarının inkişafı sahəsində ötən il daha bir layihənin icrasına start verib. Dünya İqtisadi Forumu ilə əməkdaşlıq çərçivəsində həyata keçiriləcək "Azərbaycan Bacarıqlar Akseleratoru" layihəsi çərçivəsində ölkənin əmək bazarında mövcud bacarıq boşluqlarının aradan qaldırılması məqsədilə kompleks fəaliyyət planı hazırlanacaq.

Eyni zamanda 4SİM davamlı inkişaf istiqamətində həyata keçirilən fəaliyyətlər çərçivəsində süni intellekt texnologiyalarının enerji səmərəliliyində tətbiqi istiqamətində yerli tərəfdaşlarla birgə 40 praktik həll formalaşdırıb. Bu həllər Dünya İqtisadi Forumunun 2025-ci ildə dərc etdiyi "Süni intellektin enerji paradoksu" adlı hesabatda əksini tapıb.

Bu ilin yanvar ayında Davos Forumu çərçivəsində 4SİM 3 müxtəlif panel sessiyasında təmsil olunub. İlk dəfə forum çərçivəsində 4SİM və SOCAR tərəfindən "Texnoloji transformasiya vasitəsilə enerji keçidinin sürətləndirilməsi: Süni intellekt əsaslı sənaye" mövzusunda birgə sessiya təşkil edilib, süni intellekt, sənaye 4.0 transformasiyası və enerji səmərəliliyi ilə bağlı müzakirələr aparılıb.

Sonda bildirilib ki, 2026-cı ildə 4SİM rəqəmsal texnologiyaların iqtisadiyyatda tətbiqinin genişləndirilməsi, özəl sektorun rəqəmsal transformasiyasına dəstək və insan kapitalının gücləndirilməsi istiqamətində fəaliyyətini genişləndirəcək.

*"Azərbaycan"*

# Azərbaycanın qaz hasilatı sənayesində yeni səhifə



## "Şahdəniz" layihəsinin növbəti mərhələsi üzrə işlər genişlənir

**Hazırda ölkəmizdə gerçəkləşməkdə olan yeni "Şahdəniz Kompressiya" (ŞDK) layihəsi nəzərdə tutulan qrafikə uyğun irəliləyir. Bu barədə layihənin əməliyyatçısı BP şirkətinin keçən ilin yekunlarına aid hesabatında daha geniş məlumat verilir.**

Əvvəla qeyd edək ki, ŞDK Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən nəhəng "Şahdəniz" qaz-kondensat yatağının işlənməsinin növbəti mərhələsi, yəni əvvəlki iki mərhələsinin davamı olan yeni layihədir. "Şahdəniz" konsorsiumu bununla bağlı yekun investisiya qərarını keçən ilin iyun ayında elan edib. Qərarın imzalanması Bakı Enerji Həftəsi çərçivəsində baş tutub.

Dəyəri 2,9 milyard dollar olan ŞDK layihəsinin məqsədi yataqdakı aşağıtəzyiqli qaz ehtiyatlarını əlçatan etməklə onların hasilatına başlamaq və beləliklə, yataqdan maksimum qazvermə əmsalına nail olmaqdır. Bu layihənin yataqdan təxminən 50 milyard kubmetr əlavə qaz və 25 milyon barelə yaxın əlavə kondensat hasilatına və ixracına imkan yaradacağı gözlənilir. Bu isə o deməkdir ki, "Şahdəniz Kompressiya" layihəsi Azərbaycanın enerji tarixində yeni və mühüm bir səhifədir. Bu, ölkəmizin resurslarının uzunmüddətli işlənməsini, texnoloji irəliləyişi və beynəlxalq tərəfdaşlığa sadiqliyi əks etdirir.

Layihə çərçivəsində yeni kompressiya obyektinin - elektriklə işləyən, heyətsiz (və ya əsasən heyətsiz ) kompressiya platformasının inşası nəzərdə tutulur. Qurğu suyun 85 metr dərinliyində, mövcud "Şahdəniz Bravo" (ŞDB) platformasından təxminən 3 kilometr məsafədə quraşdırılacaq.

Üzərində dörd ədəd 11 meqavatlıq kompressoru olacaq ŞDK platforması həm "Şahdəniz Alfa" (ŞDA), həm də ŞDB platformalarından hasil edilən qazın kompressiyası üçün ana qurğu kimi xidmət göstərəcək. Yəni hər iki platformadan çıxarılan ixrac qazı qurudakı Səngəçal terminalına göndərilməzdən əvvəl ŞDK-də kompressiya olunacaq.

Layihəni irəliyə aparacaq əsas müqavilələr də artıq imzalanıb. Məsələn, 156 milyon dollar dəyərində olan bir müqavilə ŞDK platforması üçün dayaq blokunun və payaların tikintisini əhatə edir. Müqavilə "BOS Shelf LLC" və "BOS Shelf International FZCO" şirkətlərinə (birlikdə "BOS Shelf" adlanır) verilib.

Bütün istehsal-quraşdırma işləri "BOS Shelf"ə məxsus Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunun (BDÖZ) tikinti-quraşdırma sahəsində həyata keçiriləcək. Bu işlərdə yerli infrastruktur və resurslardan istifadə olunacaq. Müqavilənin icrasında işçi qüvvəsinin təxminən 97 faizinin Azərbaycan vətəndaşlarından ibarət olacağı gözlənilir. Müqavilə çərçivəsində işlərin 2028-ci ilin birinci rübündə tamamlanması planlaşdırılır.

BP-nin layihəyə görə baş meneceri İlqar Məmmədov bununla bağlı belə deyib: "Bu, ŞDK layihəsi və operator olaraq BP şirkəti üçün növbəti mühüm mərhələdir. Bu, komandalarımızın peşəkarlığını və əzmini, uzunmüddətli yerli tərəfdaşlıqlarımızın gücünü və layihəni təhlükəsizlik, keyfiyyət və səmərəlilik baxımından ən yüksək standartlara uyğun şəkildə həyata keçirmək öhdəliyimizi əks etdirir. "BOS Shelf" şirkətinin bundan əvvəl də BDÖZ tikinti-quraşdırma sahəsində "Azəri-Çıraq-Günəşli" və "Şahdəniz-2" platformaları üçün 11 dayaq blokunu uğurla və vaxtında hazırlayıb təhvil verməsi bizdə tam əminlik yaradır ki, ŞDK-nın dayaq bloku da qrafikə uyğun və büdcə daxilində tikilib təhvil veriləcək. BDÖZ tikinti-quraşdırma sahəsinin irihəcmli modernləşdirmə aparılmadan dayaq blokunu inteqrasiya etmək və barjaya yükləmək gücündə olması layihənin bu mühüm mərhələsinin vaxtında təhvil verilməsi üçün əsas amillərdən biridir".

"Şahdəniz Kompressiya" layihəsi çərçivəsində eyniadlı platformanın üst modullarının tikintisi üçün isə 321 milyon dollar dəyərində müqavilə imzalanıb. Bu müqavilə "Azfen" şirkətinə verilib.

Müqavilənin iş həcminə ŞDK platforması üçün 8500 tonluq üst modullar blokunun inşası, montajı, quraşdırılması və inteqrasiyası daxildir. Tikinti işləri ölkə daxilində yerli infrastruktur və resurslardan istifadə edilməklə "Azfen"in Bayıldakı tikinti-quraşdırma sahəsində həyata keçiriləcək.

Üst modulların tikintisinin 2028-ci ilin sonunda yekunlaşacağı planlaşdırılır. Bu işlərə 90 faizindən çoxu yerli mütəxəssislər olmaqla 3000-dən artıq işçi qüvvəsi cəlb olunacaq.

Müqavilə imzalanan zaman BP-nin layihələr üzrə baş vitse-prezidenti Yuan Drammond öz fikirlərini bölüşüb: "Düşünürük ki, ŞDK layihəsindəki bu irəliləyiş "Şahdəniz" tərəfdaşları və ümumiyyətlə, ölkə üçün mühüm bir hadisədir. Bu uğur ŞDK-da çalışan komandalarımızın əzmkarlığını, yerli tərəfdaşlıqlarımızın gücünü və layihəni əməyin təhlükəsizliyi, keyfiyyət və kapital səmərəliliyi baxımından ən yüksək standartlara uyğun həyata keçirmək öhdəliyimizi bir daha vurğulayır".

Müqavilənin "Azfen"ə verilməsi bu şirkətin təsdiqlənmiş təcrübəsi, o cümlədən Azərbaycanda dəniz platformaları üçün üst modulların tikintisi üzrə əvvəlki layihələrdəki uğurlu iş icrasına əsaslanır. Şirkətin Bayıldakı tam modernləşdirilmiş, dünya səviyyəli tikinti-quraşdırma sahəsi üst modulların inşadan sonra quruda inteqrasiyası və bütövlükdə barjaya yüklənməsi üçün bütün lazımi imkanları təmin edir. Bu da ŞDK layihəsinin qrafikə uyğun və büdcə daxilində həyata keçirilməsi üçün əsas amildir.

BP şirkətinin illik hesabatında vurğulanır ki, indiyədək imzalanmış müqavilələr mühəndis-layihələndirmə və təchizat xidmətlərini, üst modulların və dayaq blokunun tikintisini, platformanın daşınması və dənizdə quraşdırılmasını, eləcə də sualtı qurğularla bağlı işləri əhatə edir. Bu müqavilələr üzrə tikinti işləri artıq başlanıb və qrafikə uyğun irəliləyir.

Tikintinin 2029-cu ildə başa çatması ilə ŞDK platformasının həmin il ŞDA-dan, 2030-cu ildə isə ŞDB-dən çıxarılan qaz həcmlərinin kompressiya üçün qəbul etməyə hazır olacağı planlaşdırılır.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Vergi sisteminin rəqəmsallaşması

## inzibatçılıqda insan amilinin minimuma endirilməsi, şəffaflığın artırılması və operativliyin təmin olunması deməkdir

**İqtisadi inkişafın mühərriki olan sahibkarlıq fəaliyyəti hər bir dövlətin rifah göstəricilərində əsas yer tutur. Sahibkar yeni iş yerləri yaradır, bazara dinamika gətirir, rəqabəti gücləndirir və ölkə iqtisadiyyatının inkişafında mühüm rol oynayır. Həmin fəaliyyətin davamlı və sağlam inkişaf etməsi üçün isə şəffaf və etibarlı vergi sistemi mühüm şərtdir.**

Bu baxımdan sahibkarlarla vergi xidməti arasında münasibətlər təkcə nəzarət və öhdəlik çərçivəsində deyil, qarşılıqlı anlaşma və əməkdaşlıq prinsipləri əsasında qurulmalıdır. İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti (DVX) tərəfindən həyata keçirilən islahatlar, rəqəmsal xidmətlərin genişləndirilməsi və xidmətyönümlü yanaşmanın tətbiqi sahibkar-vergi münasibətlərində yeni mərhələnin başlanğıcını qoyub. Artıq vergi orqanı yalnız yoxlayan qurum deyil, həm də biznes mühitinin formalaşmasında tərəfdaş rolunda çıxış edir.

Sahibkarla vergi xidməti arasında sağlam dialoq, qarşılıqlı etimad və hüquqi mədəniyyətin yüksəldilməsi ölkənin iqtisadi sabitliyinin əsas dayaqlarındandır. Münasibətlərin necə qurulması isə bütövlükdə biznes mühitinin keyfiyyətini müəyyənləşdirir. Bununla belə hər bir münasibətdə olduğu kimi, sahibkar-vergi xidməti əlaqələrində də müəyyən çətinliklər mövcuddur. Bəzən normativ tələblərin mürəkkəbliyi, hesabat prosedurlarının çətin qavranılması və ya məlumat çatışmazlığı sahibkarlarda narahatlıq yaradır. Kiçik və orta biznes subyektləri üçün vergi qanunvericiliyindəki dəyişiklikləri operativ izləmək və düzgün tətbiq etmək xüsusi diqqət tələb edir.

Belə məqamda sual yaranır: sahibkar bu mürəkkəb prosedurlar fonunda hara müraciət etməli, kimdən dəstək almalıdır? Qeyd edək ki, son illər həyata keçirilən islahatlar məhz bu çətinlikləri minimuma endirməyə və sahibkar-dövlət münasibətlərini daha çevik müstəviyə keçirməyə hesablanıb. Sahibkarların qarşılaşdıqları çətinliklərin operativ və səmərəli həlli məqsədilə yaradılan mühüm platformalardan biri "Bakı KOB evi"dir. Burada sahibkarlara bir sıra dövlət qurumları, o cümlədən İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti tərəfindən geniş spektrli xidmətlər təqdim olunur.

Artıq sahibkarlar vergi məsələləri ilə bağlı yalnız vergi orqanlarının xidmət mərkəzlərinə deyil, həm də "Bakı KOB evi"nə müraciət etməklə kompleks dəstək ala bilirlər. Burada kommersiya hüquqi şəxslərin dövlət qeydiyyatı, fiziki şəxslərin vergi uçotuna alınması,



uçot məlumatlarında dəyişikliklərin aparılması, fəaliyyətin dayandırılması, bərpası və ya ləğvi kimi prosedurlar həyata keçirilir. Vergi bəyannamələrinin qəbulu, dövlət reyestrindən çıxarışların verilməsi, fiziki şəxslərin vergi uçotundan çıxarılması, eləcə də "ASAN imza"nın təqdim olunması kimi mühüm xidmətlər də sahibkarlara operativ şəkildə göstərilir.

Bu mərkəzin əsas üstünlüyü müxtəlif dövlət və özəl qurumların xidmətlərini vahid məkanda cəmləşdirməsidir. "Bakı KOB evi"ndə sahibkarlara 50-yə yaxın qurum tərəfindən yüzlərlə xidmət təqdim olunur. Bu isə sahibkar üçün vaxt itkisini minimuma endirir, prosedurları sadələşdirir və dövlət-biznes münasibətlərində çevikliyi artırır.

Qeyd edək ki, son zamanlar vergi sistemində aparılan yeniliklər münasibətlərin daha şəffaf və çevik əsasda qurulmasına xidmət edir. Elektron xidmətlərin genişləndirilməsi, onlayn qeydiyyat və hesabat sistemləri, risk əsaslı yoxlama mexanizmləri sahibkarların iş yükünü azaltmaq məqsədi daşıyır. Bu istiqamətdə Dövlət Vergi Xidməti tərəfindən həyata keçirilən rəqəmsallaşma siyasəti vergi inzibatçılığında insan faktorunun minimuma endirilməsinə, şəffaflığın artırılmasına və operativliyin təmin olunmasına şərait yaradır. Artıq sahibkar bir çox əməliyyatı vaxt və resurs itirmədən elektron platformalar vasitəsilə həyata keçirə bilir. Bu, münasibətlərin daha çox tərəfdaşlıq müstəvisinə keçdiyini göstərir.

Ona görə də Vergi Məcəlləsinə edilmiş dəyişikliklərlə bağlı sahibkarlar üçün mütəmadi maarifləndirici tədbirlər və seminarlar təşkil olunur. Qanunvericilikdə baş verən yeniliklərin praktik tətbiqini asanlaşdırmaq üçün vergi orqanları sahibkarlarla birbaşa ünsiyyət formatına üstünlük verir. Çünki hər bir yeniliyin real faydası yalnız o zaman ortaya çıxır ki, sahibkar onun mahiyyətini anlayır və düzgün tətbiq edir.

Bu günlər sahibkarların yenilikləri dərindən başa düşməsi və onu işində tətbiq etməsi üçün vergi orqanları ilə birgə "Bakı KOB evi"ndə maarifləndirici seminar təşkil olunub. Seminarda Dövlət Vergi Xidməti, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA), "SM Consulting" və "Gbaru.com"un birgə təşəbbüsü ilə Vergi Məcəlləsində edilən son dəyişikliklərlə bağlı sahibkarlara məlumat verilib. Tədbirdə iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən 50-dək sahibkar iştirak edib.

Seminarda KOBİA və DVX-nin nümayəndələri çıxış edərək, sahibkarların maarifləndirilməsinin davamlı proses olduğunu vurğulayıblar. Bildirilib ki, bu cür görüşlər biznes subyektlərinə qanunvericilikdəki yeniliklər barədə operativ məlumat almaq və fəaliyyətlərini daha effektiv planlaşdırmaq imkanı verir. Tədbir çərçivəsində "SM Consulting" şirkəti Vergi Məcəlləsindəki dəyişiklikləri praktiki nümunələrlə təqdim edib, izahlar verib və sahibkarların suallarını cavablandırıb. Belə görüşlər sahibkarların hüquqi biliklərini artırmaqla yanaşı, onların biznes fəaliyyətini şəffaf və qanunauyğun şəkildə davam etdirməsinə şərait yaradır.

Gələcəkdə sahibkarla vergi xidməti arasında münasibətlərin daha düzgün qurulması və şəffaf çərçivədə inkişaf etməsi ölkənin iqtisadi dayanıqlığını möhkəmləndirəcək. Çünki güclü dövlət büdcəsi ilə dinamik sahibkarlıq sektoru bir-birini tamamlayan iki əsas qüvvədir. Onların sağlam əməkdaşlığı isə ümumi rifahın təminatıdır.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# REGİONLAR

## Cismi şəhid, ruhu şaddır

### Masallıda Milli Qəhrəman Səfəralı Məmmədovun anım günü qeyd olunub

**Masallıda Azərbaycanın ilk Milli qəhrəmanlarından Səfəralı Məmmədovun anım günü ilə əlaqədar məzarı və ailəsi ziyarət edilib. Ziyarət zamanı qəhrəmanın məzarı önünə gül dəstələri düzülüb, ruhuna dualar oxunub, xatirəsi ehtiramla yad olunub. Şəhidin ailəsini ziyarət edən rayon rəhbərliyi onların qayğı və problemləri ilə maraqlanıb.**



Səfəralı Məmmədov sağ olsaydı, ömrünün 64-cü ilini yaşayardı. 1963-cü il oktyabrın 16-da Masallının Sərçüvar kəndində dünyaya göz açıb, tam orta təhsilini doğma kəndində alıb. 1981-1983-cü illərdə Minskdə hərbi xidmətdə olub. Əsgəri xidməti başa vurduqdan sonra Krasnodar şəhərinə gedərək milis sistemində işə düzəlib. Az müddətdə xüsusi bacarığı ilə seçilib. Xidmətinin ilk ilində iki dəfə mükafatlandırılıb. Səmərəli fəaliyyətini nəzərə alaraq 1988-ci ildə onu Bakı Xüsusi Orta Milis Məktəbinin (indiki Polis Akademiyası) qiyabi şöbəsində təhsil almağa göndəriblər. 1990-cı ildə məktəbi bitirən Səfəralı xidmətini vətəndə davam etdirmək qərarına gəlib. Bakıda hava limanında iş təklif etsələr də, Ağdam RDİŞ-də xidmət etməyə üstünlük verib. Çox keçmir, polis tağım komandiri kimi döyüşə atılır. Rus dilini səlis bilməsi və sarışın olması kəşfiyyatçı kimi karına gəlib. Rus zabiti görkəmində tez-tez ermənilərin arasına gedərək Fərruxda, Ağbulaq fermasında, Qarakənddə neçə-neçə ermənini əsir götürüb.

1992-ci il fevralın 16-da igid polis Səfəralı Məmmədovun son döyüşü oldu. Xocavəndin Qaradağlı kəndində erməni cəlladları insanları vəhşicəsinə qətlə yetirib silos quyularına atmışdılar. Səfəralının başçılıq etdiyi dəstə erməni yaraqlılarını biçərək irəliləyirdi. Qeyri-bərabər döyüş olsa da, kiçik dəstə rus silahları ilə təpədən-dırnağa kimi silahlanmış çoxlu sayda erməni terrorçularını və hərbi texnikasını məhv etdi. Lakin düşmənlər Səfəralının idarə etdiyi maşını qumbaraatanla vurdular. Qəlpələrdən bir neçəsi gənc komandirin kəmərindəki əl qumbarasına dəydi. 28 yaşlı igid polis mayoru Səfəralı Qurban oğlu Məmmədov və dəstənin əksər üzvləri faciəvi şəkildə şəhid oldular. 6 iyun 1992-ci ildə ona Azərbaycan Respublikasının Milli Qəhrəmanı (ölümündən sonra) adı verildi.

Səfəralı ailə qurmamışdı. Öz xoşbəxtliyi haqqında fikirləşməyə macalı olmamışdı. Amma indi ruhu şaddır. Çünki uğrunda döyüşdüyü torpaqlarda bayrağımız dalğalanır. Masallı şəhərindəki küçələrdən biri və doğma kənddəki vaxtilə təhsil aldığı məktəb adını daşıyır. Məktəbin qarşısında isə büstü qoyulub. Haqqında "Qəhrəman polis" sənədli filmi çəkilib. Adı qəlblərdə yaşayanlardan, xatirəsi əziz tutulanlardandır. Bir evdə dünyaya göz açdı, böyüdü, bir xalqın qəhrəmanı, bir ölkənin qüruru oldu.

Hər il olduğu kimi, bu il də anım günündə bu qədirbilənlikdən, bu məhəbbətdən kövrəlmişdi qoca anası Şahdəstə xanım...

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Qusar Mərkəzi Xəstəxanasında əsaslı təmir işləri aparılıb

### Bu, rayon əhalisinə göstərilən tibbi xidməti xeyli yaxşılaşdırıb

**Qusar Mərkəzi Xəstəxanası binasının təmirinə ötən il başlanılmışdı. Qısa vaxtda tibb müəssisəsində genişmiqyaslı cari və əsaslı təmir işləri aparılmışdır. Həmçinin xəstəxananın maddi-texniki bazası əhəmiyyətli dərəcədə gücləndirilmiş, xidmət keyfiyyəti yüksəldilmişdir.**



Uzun illər 3 istilik qazanxanasından 1-i qəzalı vəziyyətdə idi. Bu səbəbdən binada isti su təminatında problemlər yaşanırdı. Artıq hər üç qazanxana təmir olunaraq istismara verilmiş və xəstəxana isti su ilə təmin edilmişdir. Həmçinin nasosxanada hər iki mühərriki təmir edilmiş, müəssisənin isti və soyuq su təminatı bərpa olunmuşdur.

Xəstəxananın mətbəxində olan 8 elektrik sobasından yalnız 1-i işləyirdi. Aparılmış təmir işlərindən sonra bütün avadanlıqlar tam funksional vəziyyətə gətirilmişdir. Çamaşırxananın 3 maşınından 2-si də təmir edilmişdir. Üstəlik, havalandırma sistemi qismən işlək vəziyyətə gətirilmiş, kondisioner sistemində mövcud olan 34 blokdan 26-sı cari təmirdən sonra istismara yararlı hala salınmışdır.

Müəssisədə aparılan əsas işlərdən biri də tibbi avadanlıqlarla bağlıdır. Xəstəxanadakı narkoz aparatlarından biri əsaslı, ikisi isə cari təmir olunmuşdur. 2 küvez də istifadəyə yararlı vəziyyətə gətirilmişdir. Bundan əlavə, generatorun yağ, hava və yanacaq filtrləri yenilənmişdir. Hazırda generator tam saz vəziyyətdədir.

Tikili və avadanlıqların cari təmiri üçün satınalma proseduru həyata keçirilmiş, müvafiq tender keçirilərək müqavilənin bağlanmasına razılıq verilmişdir. Müqaviləyə əsasən, xəstəxananın Təcili yardım (Acil) şöbəsində 220 kvadratmetr sahədə antibakterial linoleum örtüyü yenilənmişdir. Akt zalı tam şəkildə sökülərək əsaslı təmir olunmuş, döşəmə, divar və tavan örtükləri yenilənmiş, həmçinin kreslolaın üzlükləri dəyişdirilmişdir.

Rayonun təcili tibbi yardım xidmətinə olan ehtiyacı nəzərə alınaraq aidəadar təşkilatlara müraciət edilmiş və nəticədə 2 İVECO markalı tam yeni reanimobil "Respublika Təcili və Təxirəsalınmaz Tibbi Yardım Mərkəzi" publik hüquqi şəxsin Qusar rayon stansiyasının istifadəsinə verilmişdir. Eyni zamanda 2 anestezioloq-reanimatoloq işə qəbul edilmiş və müəssisədə 7/24 rejimində fəaliyyət göstərən reanimasiya xidməti təşkil olunmuşdur.

Əməkdaşların, xüsusilə həkim heyətinin iş prosesinin elektronlaşdırılması məqsədilə yeni nəsil 40 kompüter dəsti alınmışdır. Həmçinin oynaqdəyişmə (protezləşmə) əməliyyatlarının icrası üçün ayrıca əməliyyatxananın ayrılması istiqamətində hazırlıq işlərinə başlanılmışdır.

Həyata keçirilən yeniliklər rayon əhalisinə göstərilən tibbi xidmətlərin əlçatanlığının və operativliyinin yüksəldilməsinə xidmət edir. Qarşıdakı dövrdə də xəstəxananın fəaliyyətinin təkmilləşdirilməsi, tibbi xidmətlərin keyfiyyətinin artırılması və müasir standartlara uyğunlaşdırılması istiqamətində ardıcıl tədbirlərin davam etdirilməsi nəzərdə tutulur.

Qusar sakinləri Sevda Sultanova, Dilarə Şıxaverdiyeva, Validxan Haqverdiyev və başqaları xəstəxanada aparılan təmir işlərindən razılıq edirlər. Sevda Sultanova deyir ki, əvvəllər palataların çatışmazlığı, həkimlərin ixtisas üzrə azlığı nəticəsində xəstələr yaxın rayonlara, ya da paytaxta göndərilirdi. Bu gün belə göndərişlərin sayı xeyli azdır.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

## Şəhid övladları qış düşərgəsində

**"YAŞAT" Fondunun təşkilatçılığı ilə Naxçıvanda şəhid övladları üçün növbəti dəfə qış düşərgəsi təşkil olunub.**



Layihə Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) ilə birgə tərəfdaşlıq çərçivəsində, həmçinin "Azərbaycan Hava Yolları" QSC-nin və Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının dəstəyi ilə reallaşıb. AZƏRTAC xəbər verir ki, 36 iştirakçını əhatə edən düşərgənin məqsədi uşaqlar üçün qış mövsümünə uyğun olan qış idman oyunlarına maraq oyatmaq, yeni dostluqların qurulması üçün şərait yaratmaqdır.

Düşərgənin ilk günündə iştirakçılar Duzdağ Müalicə Mərkəzinə ekskursiya ediblər. Həmçinin AHİK tərəfindən görülən işlərə həsr olunmuş filmin nümayişi baş tutub.

Sonrakı günlərdə iştirakçılar Ağbulaq İstirahət Mərkəzində xizək təlimlərində, kirşə sürüşlərində və digər oyunlarda əyləncəli vaxt keçiriblər.

Düşərgə çərçivəsində "YAŞAT" Fondunun rəhbəri, Qarabağ qazisi Elvin Hüseynov və AHİK sədrinin müavini, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının sədri Qəzənfər Abdullayev uşaqlarla çay süfrəsi ətrafında söhbət aparıblar.

## İşğaldan azad edilmiş ərazilərdə Aqrar Təlim Mərkəzi növbəti təlimlərə başlayıb

**İşğaldan azad edilmiş ərazilərdə kənd təsərrüfatı təyinatlı torpaqların kənd və qəsəbə sakinlərinə güzəştli şərtlərlə icarəyə verilməsi prosesinin səmərəli təşkili məqsədilə ardıcıl təlim proqramları həyata keçirilir.**



Aqrar Xidmətlər Agentliyinin Aqrar Təlim Mərkəzinin bu istiqamətdə təşkil etdiyi növbəti təlimlər Ağdərə rayonunun Həsənriz kəndində baş tutub. Təlimin ilk günündə sakinlər üçün Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemindən istifadə qaydaları, meyvə bağlarının salınması, texnikalardan səmərəli istifadə barədə maarifləndirici sessiyalar keçirilib.

Tədbir zamanı fermerlərə EKTİS vasitəsilə müraciətlərin elektron qaydada aparılması və sistemdən effektiv istifadə imkanları barədə ətraflı məlumat verilib. Həmçinin müasir meyvəçiliyin əsas prinsipləri, məhsuldarlığın artırılması yolları, kənd təsərrüfatı texnikalarından düzgün və qənaətli istifadə üsulları izah edilib.

Təlim interaktiv formatda təşkil olunub, fermerləri maraqlandıran suallar cavablandırılıb.

Qeyd edək ki, təlimlər Aqrar Təlim Mərkəzi tərəfindən Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 26 dekabr 2024-cü il tarixli 544 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatı təyinatlı torpaqların kənd və qəsəbə sakinlərinə güzəştli şərtlərlə icarəyə verilməsi Qaydaları"nın 3.6-cı bəndinə uyğun olaraq təşkil edilir. Bugünədək işğaldan azad edilmiş ərazilərdə - Zəngilan rayonunun Ağalı, Xocalı rayonunun Ballıca və Xanyurdu, eləcə də Laçın rayonunun Zabux kəndlərində yaşayan sakinlər üçün belə nəzəri və praktiki təlimlər keçirilib. Hər bir rayonun kənd təsərrüfatı üzrə ixtisaslaşdığı sahələr nəzərə alınmaqla təşkil olunan təlimlər yerli əhalinin aqrar sahədə bilik və bacarıqlarının artırılmasına xidmət edir.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

## Masallı Sənaye Məhəlləsində yeni rezident

**Masallı Sənaye Məhəlləsinin yeni rezidenti tərəfindən plastik taraların istehsalı layihəsi həyata keçiriləcək.**

"Azmer Group" MMC-yə İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyinin idarəçiliyində olan Masallı Sənaye Məhəlləsinin rezidenti statusu verilib.

İnvestisiya dəyəri 1,3 milyon manat təşkil edən layihə çərçivəsində aqrar sahədə istifadə olunan plastik taralar istehsal ediləcək.

Masallı Sənaye Məhəlləsində hazırda 10 sahibkarlıq subyektinə rezidentlik statusu verilib, 400-ə yaxın daimi iş yeri yaradılıb.

## Payızlıq əkinlərə görə subsidiya ödənişləri verilir

### İlkin mərhələdə ölkə üzrə fermerlərə 77 milyon manatdan çox subsidiya ödənilib

**Aqrar Kredit və İnkişaf Agentliyi 2025-2026-cı əkin ili üzrə subsidiya ödənişlərinin ilkin mərhələsinə start verib.**




Agentlikdən verilən məlumata görə, payızlıq əkinlər üzrə 217 min 617 fermerin kartlarına 77 milyon 154 min manat məbləğində subsidiya köçürülüb. Ödənişlər təxminən 391 min hektar əkin sahəsini əhatə edir.

Qeyd edək ki, fermerlər kartlarına köçürülmüş vəsaitin 25 faizini nağd, 75 faizini isə qeyri-nağd qaydada istifadə edə bilərlər. Qeyri-nağd vəsaitlər mineral gübrə, pestisid, biohumus, herbisid və toxumların alınmasına sərf oluna bilər. Fermerlər subsidiya vəsaitini meyvə bağlarında müasir suvarma sistemlərinin alınması və quraşdırılması məqsədilə də istifadə edə bilərlər. Hazırda Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemində bəyan edilmiş payızlıq əkinlər üzrə məlumatların və torpaq sənədlərinin yoxlanılması davam edir. Monitorinqləri başa çatan və tələb olunan sənədləri sistemə daxil edən fermerlərin ödənişləri mərhələli qaydada həyata keçirilir.

## ADAU-da Qərbi Azərbaycana qayıdışla bağlı elmi-nəzəri konfrans keçirilmişdir

**Konfransı giriş sözü ilə açan Azərbaycan Dövlət Aqrar Universitetinin (ADAU) rektoru, Qərbi Azərbaycan İcmasının Qərb bölgəsi üzrə sədri Zəfər Qurbanov tədbirin əhəmiyyətindən bəhs edərək bildirib ki, Qərbi Azərbaycan həqiqətlərinin elmi əsaslarla araşdırılması və gənc nəslə çatdırılması mühüm vəzifələrdəndir.**



Rektor qeyd edib ki, çox da uzaq olmayan tarixi yaddaşın qorunması, arxiv sənədlərinə əsaslanan tədqiqatların aparılması və bu istiqamətdə maarifləndirmə işinin gücləndirilməsi prioritet məsələlərdəndir. Natiq Qərbi Azərbaycandan deportasiya olunan soydaşlarımızın taleyindən, müxtəlif dövrlərdə ermənilər tərəfindən tarixi Azərbaycan torpaqlarının çar Rusiyasının dəstəyi ilə məqsədyönlü işğalından, qədim dədə-baba yurdlarımızın erməniləşdirilməsindən, yüz minlərlə əhalinin didərgin düşməsindən və soyqırımına məruz qalmasından söz açmışdır.

"Bu gün Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin apardığı uğurlu və uzaqgörən siyasət sayəsində Qarabağın mənfur düşməndən işğalına son qoyuldu və bu uğurun davamı olaraq Qərbi Azərbaycana Qayıdış Konsepsiyası inamla öz həllini tapmaqdadır. Tarixi torpaqlarımızda azərbaycanlılara məxsus yerli toponomlər nə qədər dəyişilsə, tarixi abidələr vandalcasına dağıdılsa belə, yaddaşlardan silinə bilməz və biz mütləq həmin torpaqlara qayıdacağıq və bu gün hər birimiz qərbi azərbaycanlıyıq", - deyə Zəfər Qurbanov çıxışında bildirib.

Konfransda çıxış edən ADAU-nun alimləri arxiv sənədlərinə və tarixi mənbələrə istinad edərək XIX və XX əsrlərdə bölgədə baş verən prosesler, soydaşlarımızın başına gətirilən müsibətlər, deportasiya mərhələlərinin xronologiyası və demoqrafik dəyişikliklər barədə faktları tədbir iştirakçılarının diqqətinə çatdırdılar. Çıxışlarda həmçinin Qərbi Azərbaycandan deportasiya edilmiş soydaşlarımızın hüquqlarının bərpasından, onların tarixi torpaqlarına qayıdışından və tarixi gerçəkliyin, ədalətin bərpasından danışılıb.

***Maarif RZAYEV,***
***ADAU-nun***
***"Aqrar mütəxəssis"***
***qəzetinin redaktoru***

## Qaxda eko və aqroturizmin təzə ünvanı

**Qax rayonunun Böyük Alatəmir kəndi ərazisində "DoctorBio Qax Eco Park" fəaliyyət göstərir. Dövlət Turizm Agentliyinin Şəki Regional Turizm İdarəsindən AZƏRTAC-a bildirilib ki, bu məkan Qaxın zəngin təbiəti və kənd təsərrüfatı ənənələri əsasında yaradılıb.**

"Eco park" ziyarətçilər üçün həm istirahət, həm də təbiətlə tanışlıq baxımından zəngin bir ekosistem təqdim edir. Parkın ərazisində meyvə bağları, maraqlı flora və fauna nümunələri, müxtəlif ölkələrdən gətirilmiş nadir quş növləri var. Həmçinin burada ictimai-iaşə obyektləri, uşaq əyləncə meydançaları, konsert və tamaşalar üçün nəzərdə tutulmuş xüsusi səhnə də quraşdırılıb.

Layihənin reallaşdırılmasında əsas məqsəd kənd həyat tərzini cəlbedici turizm məhsuluna çevirməkdir. Park yerli fermerlərə öz orqanik məhsullarını geniş auditoriyaya tanıtmaq üçün unikal platforma təqdim edir. Bu təşəbbüs Qaxın davamlı turizm destinasiyası kimi mövqeyini gücləndirməklə yanaşı, kənd icmalarının turizm zəncirinə inteqrasiyasını təmin edəcək.




"Eco park"ın fəaliyyəti bölgədə işsizliyin azaldılmasına da mühüm töhfə verəcək. Belə ki, müəssisə tam gücü ilə fəaliyyətə başladıqdan sonra burada 70 nəfərin daimi işlə təmin olunması planlaşdırılır.



2026 Şəhərsalma və Memarlıq İli



# Xalqımızın mədəni irsinə töhfələr vermiş memar

**Azərbaycan memarlığının tarixində iz salmış, yaradıcılığı ilə həm ölkəmizdə, həm də respublikamızın hüdudlarından kənarda tanınmış görkəmli memarlardan biri də Sadıq Dadaşovdur. Memar əsərləri ilə Azərbaycan memarlığının inkişafına böyük töhfələr verib, xalqımızın gündəlik həyatına və mədəni irsinin qorunmasına xidmət etmişdir.**

O, Bakıda məşhur olan Dadaşovlar nəslinin övladı idi. Babası Şıxəli Dadaşov milyonçu və xeyriyyəçi Hacı Hacıağa Dadaşovun qardaşı idi. Digər milyonçulardan fərqli olaraq neft sahəsinə yatırımları olmayan Hacı Hacıağa gəmiçilik və dəniz ticarətindən böyük sərvət qazanmışdı. Qeyd edək ki, Azərbaycanda 1876-cı ildə birinci və ikinci tacirlik dərəcəsi təyin edilib. Bu rütbəni alan ilk tacir Hacıağa Dadaşov olub. O, Bakı şəhərində 40-a yaxın yaşayış binasının və digər mülklərin sahibi idi. Bu şəhərə Şollar su kəmərinin çəkilişində fəal iştirak etmiş Hacı Hacıağa Dadaşovun adı həm də tariximizin yaddaşında Azərbaycanda ilk dəfə qocalar və imkansızlar üçün sığınacaq tikdirən xeyriyyəçi kimi qalıb.



Sadıq Dadaşov 1905-ci il aprelin 15-də Bakıda dünyaya gəlib. Rəsm çəkməyə kiçik yaşlarından meyil göstərib. İllər keçib, o, rənglərin sirli aləminin cazibəsindən ayrılmayıb. Orta məktəbdə oxuduğu illərdə də rəssamlıq və memarlıqla dərindən maraqlanıb.

Məşədi Əzizbəyov adına Bakı Politexnik İnstitutunun İnşaat fakültəsində təhsil alıb. 1929-cu ildə həmin institutun məzunu olub.

İstedad parlaq Günəşə bənzəyir. İşığını görməmək mümkünsüzdür. Sadıq Dadaşov hələ tələbə ikən istedadı və bacarığı ilə tanınıb. İnstitutun nəzdində fəaliyyət göstərən memarlıq laboratoriyasına rəhbər təyin olunub.

Arzuların, xəyalların, ümidlərin coşub-daşdığı gənclik çağlarındaydı. Sadıq Dadaşov dostları ilə birlikdə laboratoriyada böyük həvəslə yorulmaq bilmədən çalışırdı. Ali təhsil aldığı institutda keçirilən dərslərlə qane olmurdu. Sonsuz maraqla oxuyub araşdırırdı. Görkəmli rus memarları Kazakovun, Starovun, Zaxarovun, Bajenovun elmi-nəzəri əsərləri, o cümlədən Çnamotsinin, Danielin, Barbaronun, Şuazinin, Qnediçanın, Palladionun və başqalarının layihələri ilə yaxından tanış olmaqla yanaşı, elmi təhlil apararaq daim öyrənirdi.

Tələbəlik illərində bir sıra müsabiqənin iştirakçısı olub. Sadıq Dadaşov və Mikayıl Hüseynovun birgə işlədiyi layihə 1926-cı ildə dahi Azərbaycan şairi Nizami Gəncəvinin abidəsi ilə bağlı elan olunmuş müsabiqədə birinci mükafata layiq görülüb.

1929-cu il Sadıq Dadaşovla Mikayıl Hüseynovun yaradıcılığında növbəti uğurlarla yadda qalıb. Onlar birlikdə "Bakıda kitabxana və mədəniyyət sarayı" mövzusunda diplom işini uğurla müdafiə ediblər. Hər iki memar pedaqoji kollektivin yekdil qərarına əsasən institutda assistent kimi saxlanılıb.

Bu iki istedadlı memar birgə çox mühüm işlərə imza atıblar. Bakıdakı Şirvanşahlar sarayı kompleksinin, Naxçıvandakı Möminə Xatun türbəsinin, Yusif Kuseyir oğlu türbəsinin və Qarabağlar türbəsi ilə yanındakı minarəli zəfər tağının, Qarabağın Bərdə şəhərindəki "Nüşabə" türbəsinin, Ordubadın qədim yaşayış binalarının və yüzlərlə digər Orta əsr memarlıq abidələrinin ilk tədqiqatçıları onlar olub.

1929-1933-cü illərdə Sadıq Dadaşov 23 tikilinin layihə müəllifi olub. Belə ki, o, 1932-ci ildə Bakıdakı fabrik-mətbəx (Bayılda), Azərbaycan Sənaye İnstitutunun yeni binası (indiki Azərbaycan Dövlət Neft Akademiyası), 1933-cü ildə incəsənət işçiləri üçün ev, bir sıra yaşayış binaları kompleksi, Qazaxdakı Pedaqoji Texnikumun binası həmin layihələrdəndir.



Sadıq Dadaşov 1944-cü ildə Azərbaycan SSR Xalq Komissarları Soveti yanında Memarlıq İşləri İdarəsinin ilk rəisi olub.

Onun 1944-1945-ci illərdə layihələndirdiyi 8 bina - Bilgəhdə istirahət evi, Şüvəlanda yaşayış binası, Zaqulbada istirahət evi, Şüvəlanda bağ evi, Bilgəhdə bağ evi, I mükafata layiq görülmüş kinoteatr, Bakıda "Buzovnaneft" yaşayış binası da böyük memarlıq nümunələri hesab edilir.

Memar Sadıq Dadaşov tərəfindən Mikayıl Hüseynovla birlikdə layihələndirilən "Nizami" kinoteatrı və üzbəüz inzibati bina Azərbaycan memarlığının klassik nümunələrindən hesab edilir. Bu binalar Bakının mərkəzində, xüsusən də Nizami küçəsindəki ansamblın ayrılmaz hissəsi kimi klassik və müasir elementləri özündə birləşdirən yüksəkdəyərli memarlıq əsərləridir.

Bakı Musiqi Akademiyasının binasını 1938-ci ildə Sadıq Dadaşov layihələndirib. Binanın önündə dahi Azərbaycan bəstəkarı Üzeyir bəy Hacıbəylinin heykəlinin ucaldılması memarlıqla heykəltaraşlığın həm məzmun, həm də sənətkarlıq nöqteyi-nəzərdən bitkin kompozisiyasıdır.

Moskvada tikilmiş Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin Azərbaycan pavilyonu Sadıq Dadaşovun ən tanınmış layihələrindən biri olub. Həmkarı Mikayıl Hüseynovla birgə işi olan, 1939-cu ildə həyata keçirilən həmin layihə keçmiş SSRİ-də böyük maraqla qarşılanıb. Bu uğura görə hər iki memar SSRİ Dövlət mükafatına layiq görülüb.

Onun növbəti uğuru 1940-cı ildə Mikayıl Hüseynovla birlikdə Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin binasını layihələndirməsi olub. Bu bina Azərbaycan milli memarlığının ən dəyərli nümunələrindən biri sayılmaqla yanaşı, onun yaradıcılığında xüsusi yer tutub.

Respublikamızın paytaxtında və digər şəhərlərində Sadıq Dadaşovun layihəsi əsasında çoxlu yaşayış, ictimai və mədəni-məişət binaları inşa olunub. Bu memarlıq nümunələri Azərbaycan memarlığının inkişafında böyük rol oynayıb.

Sadıq Dadaşovun elmi fəaliyyəti də diqqətçəkən olub. O, Azərbaycan memarlıq tarixinin ilk elmi tədqiqatçılarından biri idi. Sadıq Dadaşov 1934-1940-cı və 1944-1946-cı illərdə respublikamızın bir sıra rayonlarında elmi səfərlər təşkil edərək memarlıq tariximizin öyrənilməsində mühüm işlər görüb.



Azərbaycan memarlığı tarixinin öyrənilməsinin əsasını qoymuş Sadıq Dadaşovun nəzəri və elmi əsərləri bu gün də Azərbaycan memarlığında dəyərli mənbə kimi istifadə edilir.

Sadıq Dadaşovun əsas işləri arasında "Nizami" kinoteatrının binası (1934), Azərbaycan Texniki Universitetinin binası (1935), Bakı Musiqi Akademiyasının binası (1936), Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin binası (1940) və digər memarlıq nümunələri yer alıb. O həm də Nizami Gəncəvinin 1946-cı ildə Gəncədə, 1949-cu ildə isə Bakıda qoyulmuş abidələrinin layihə müəllifidir.

Sadıq Dadaşovun fəaliyyəti yüksək qiymətləndirilib. 1940-cı ildə ona Azərbaycan SSR Əməkdar incəsənət xadimi fəxri adı verilib. 1941-ci ildə isə o, SSRİ Dövlət mükafatı laureatı olub. O, "Lenin", "Qırmızı Əmək Bayrağı" ordenləri və medallarla təltif edilib.

1941-ci ildə SSRİ Memarlıq Akademiyasının müxbir üzvü, 1945-ci ildə yeni yaradılmış Azərbaycan SSR Elmlər Akademiyasının (indiki Azərbaycan Milli Elmlər Akademiyası) həqiqi üzvü seçilib.

Azərbaycan sovet memarlığının banilərindən biri professor Sadıq Dadaşov 1946-cı il dekabrın 24-də Moskvada dünyasını dəyişib. Doğma şəhərində - Bakıda dəfn olunub.

Onun əsərləri və elmi fəaliyyəti bu gün də Azərbaycan memarlığının inkişafında əvəzsiz rol oynayır. Sadıq Dadaşovun yaradıcılığı göstərir ki, memarlıq yalnız binalar tikmək deyil, eyni zamanda xalqın mədəni irsini yaşatmaqdır. Onun memarlıq irsi həm gözəlliyi, həm də məzmunu ilə bu amala xidmət edir.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

# "Alov qüllələri" - memarlığın möcüzəsi

**Son illər ölkəmizin paytaxtında quruluşu, üslubu ilə bir-birinə bənzəməyən, zövq oxşayan binalar tikilir. Bu yeni binaların sırasında "Alov qüllələri" qeyri-adi quruluşu, gözəlliyi və möhtəşəmliyi ilə şəhərimizə gələn qonaqların diqqətini cəlb edir.**



Turistlərdən biri "Alov qüllələri"nə vurğunluğunu belə sözlərlə ifadə etmişdir: "Azərbaycanın daha bir şah əsəri. Bu bina həm gündüz, həm də gecə çox möhtəşəmdir. Düşünürəm ki, gecə müxtəlif rənglər və işıq dizaynları ilə bəzədildikdə daha da gözəl görünür… Möhtəşəm! Azərbaycanda olarkən bu binanı mütləq görmək lazımdır. Binaların yerləşdiyi zirvəyə qalxmaq üçün pilləkənlər var və ya funikulyordan istifadə etmək mümkündür. Mən noyabr ayında ziyarət etdiyim zaman funikulyor işləmirdi, ona görə də zirvəyə taksi ilə qalxdım və geriyə enmək üçün pilləkənlərdən istifadə etdim. Bu, binaları daha yaxından görməyə imkan yaradır".

Binanın adı Bakının qədimlərdən Odlar Yurdu adlandırılması ilə əlaqədardır. Qüllələr də alov formasında tikilib. Kənardan baxanda onlar alov dilimlərini xatırladır. Qüllənin şüşə fasadı LED işıqlandırma sistemi ilə təchiz edilib. "Alov qüllələri" 3 çoxmərtəbəli binadan ibarətdir. 1-ci qüllə 39, 2-ci qüllə 37, 3-cü qüllə isə 34 mərtəbəlidir. Bu binalarda yaşayış kompleksi, ofislər və ən sonuncu qüllədə isə "Fairmont Baku" hoteli yerləşir. Burada restoranlar, spa və premium xidmətləri göstərilir. Yaşayış kompleksindəki mənzillərdə əsasən modern və minimalist dizayn üstünlük təşkil edir. Biznes mərkəzi kimi istifadə olunan binada həm də müxtəlif beynəlxalq şirkətlərin ofisləri yerləşir.

Binanın tikintisinə 2007-ci ilin oktyabr ayından başlanmışdır. İşi "DİA Holding" Azərbaycan-türk şirkəti aparmışdır. Binaların tikintisinin başa çatdırılması 2010-cu ilə planlaşdırılırdı. Lakin əlverişsiz hava şəraitinə görə tikinti işləri 2012-ci ilə qədər davam etmişdir. Nəhayət, 2013-cü ildə inşası başa çatmışdır. "Alov qüllələri" tanınmış memarlıq firması HOK (Hellmuth, Obata+Kassabaum) tərəfindən konseptuallaşdırılmışdır. Məqsəd Azərbaycanın zəngin mədəni irsini əks etdirən, eyni zamanda xalqın tərəqqisini və gələcək arzularını simvollaşdıran müasir əlamətdar abidə yaratmaq idi. Çox böyük zəhmətlər bahasına məqsədə nail olundu.

Diqqətlə baxanda aydın görünür ki, "Alov qüllələri"nin tikintisi mürəkkəb mühəndislik işidir. Qüllələr müvafiq olaraq 182 metr, 161 metr və 140 metr hündürlükdədir. Alova oxşayan xarici görünüşlər LED ekranlarla bəzədildiyindən gecələr fasadlarda alov rəqsi illüziyası yaradır.

Qüllələr naxışları və rəngləri dəyişən dinamik işıqlandırma displeyləri ilə tanınır və onları şəhərin istənilən nöqtələrindən görmək mümkündür. İşıqlandırma ardıcıllığı tez-tez musiqi ilə sinxronlaşdırılır, memarlıq tamaşasına bədii və interaktiv element əlavə olunur. Fasadları əhatə edən LED ekranlar proqramlaşdırılma imkanlarına malikdir. Buna görə də Azərbaycan bayrağının təsvirindən tutmuş mürəkkəb naxışlara və animasiyalara qədər müxtəlif displeylərə imkan yaradır.

"Alov qüllələri"nin şan-şöhrəti demək olar ki, bütün dünyaya yayılmışdır. ABŞ-nin məşhur Si-En-En telekanalının saytında yayımlanmış xəbərə görə, Bakının mərkəzindəki "Alov qüllələri" ("Flame Towers") onun müəllifinin ən sevimli layihələrindən biridir. Si-En-En-in "Möhtəşəm binalar" layihəsinin müəllifləri dünyanın altı aparıcı arxitektorundan indiyədək layihəsini işləyib hazırladıqları ən sevimli binalarının adlarını açıqlamağı xahiş etmişlər. "Alov qüllələri"nin layihələndirilməsi ilə məşğul olan HOK nəhəng arxitektura şirkətinin vitse-prezidenti Barri Hyuz etiraf etmişdir ki, qüllələr onun ən sevimli layihələrindən biridir. Barri Hyuz onu da bildirmişdir ki, bu layihə üzərində çalışan 150 adamın əməyinin şöhrətini təkbaşına yaşadığı üçün özünü günahkar hiss edir".

B.Hyuz qüllələrin forması haqqında da söz açaraq demişdir: "Oda sitayiş edən zərdüştlüyün mərkəzi olan şəhərin tarixini, onun təbii qaz ehtiyatlarını xatırlatmalıydı. Biz alov ideyası üzərində dayandıq". Onun sözlərinə görə, bu layihə, məsələn, qüllələrin potensial zəlzələyə davam gətirməsi, Bakıda şiddətli küləklər əsdiyi üçün komplektləşdirici hissələrin kranlardan istifadə olunmadan quraşdırılması kimi bir çox təhlükə ilə dolu bir layihə idi. Layihəçilər qüllələrin Bakının rəmzinə çevriləcəyinə ümid bəsləyirdilər. Zaman keçdikcə bəslənən ümidlər özünü doğrultdu. İndi həqiqətən "Alov qüllələri" Bakının rəmzinə çevrilmişdir. "Alov qüllələri" 2013-cü ildə "Ən yaxşı hotel və turizm mərkəzi" mükafatına layiq görülmüşdür.

Prezident İlham Əliyev son illər Bakıda tikilən və şəhərimizi daha da gözəlləşdirən binalardan söz açarkən "Alov qüllələri"nin də adını çəkmişdir: "Müstəqillik dövründə Bakının yeni simvolları da yaradılmışdır. Onların arasında mən Heydər Əliyev Mərkəzini qeyd edə bilərəm. Yuxarı mərtəbələrdən Heydər Əliyev Mərkəzi də görünür. Bu da nadir bir memarlıq əsəridir. Dünya miqyasında bunun analoqu yoxdur. Bayraq Meydanı müasir dövlətimizin simvoludur. Azərbaycanın müstəqilliyini əks etdirən möhtəşəm Bayraq Meydanının da dünyada analoqu yoxdur. Yeni bulvar, hesab edirəm ki, Bakının yeni simvoludur. Digər binalar müasir şəhərimizi təcəssüm etdirir və onların içində əlbəttə ki, "Alov qüllələri"nin xüsusi yeri vardır. Təsadüfi deyildir ki, indi müxtəlif beynəlxalq tədbirlərdə, Azərbaycanın xaricdəki müxtəlif tədbirlərində "Alov qüllələri" bir simvol kimi əks etdirilir. Bu, doğrudan da, nadir memarlıq əsəridir, dünyada analoqu yoxdur və şəhərimizin ən gözəl yerlərindən birində böyük zövqlə və böyük məhəbbətlə tikilibdir".

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Qədimliklə müasirliyin vəhdəti

**Prezident İlham Əliyevin 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi ilə bağlı sərəncamına əsasən, paytaxtın küçə və prospektlərində, qədimliyi ilə müasirliyi özündə birləşdirən tarixi memarlıq abidələrinin, bəlkə də Bakının özü ilə yaşıd olan bəzi meydan və küçələrin günün tələblərinə uyğun yenidən qurulmasında görülən işlər diqqətçəkəndir.**

Azərbaycan memarlığını ayrı-ayrı dövrlərə bölsək görərik ki, Ümummilli Lider Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illər şəhərsalma və memarlığın inkişafında xüsusi mərhələ təşkil edir. Ulu Öndərin təşəbbüsü əsasında bu sahədə vacib qərarlar qəbul edilmiş, şəhərlərdə memarlıq abidələrinin bərpası üzrə planlı iş aparılmış, şəhərsalma fəaliyyətinin davamlılığını təmin edən institusional təsisatlar qurulmuşdur. Şəhərsalma və urbanizasiya sahəsində qəbul edilmiş yanaşmalar iqtisadi dayanıqlılığa, sosial-iqtisadi rifaha, iqlim dəyişmələrinə uyğunlaşmaya töhfə verir. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra şəhər quruculuğu sahəsindəki yeni təzahürlər inşa edilən monumental komplekslərin memarlıq həllində özünü qabarıq şəkildə büruzə verir.

Hazırda paytaxt Bakıda genişmiqyaslı şəhərsalma transformasiyası həyata keçirilir. "Bakı şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı"nın əsas istiqamətlərindən biri çoxmərkəzli inkişaf modelinin tətbiqidir. Bu modelə əsasən, bütün fəaliyyətlərin bir mərkəzdə cəmlənməsi əvəzinə Bakı şəhəri boyunca bir-biri ilə əlaqəli mərkəzlər və alt-mərkəzlər şəbəkəsi formalaşdırılır. Hazırda paytaxtımız qədimliklə müasirliyin vəhdətində inkişaf etdirilir. Yeniləşməni, müasirləşməni simvolizə edən Heydər Əliyev Mərkəzi, Alov qüllələri kimi modern üslublu unikal tikililər paytaxtımızın yeni gözəllik rəmzlərinə çevrilib və şəhərimizə gələn turistləri heyran qoyur.

Qədimdən "Qara şəhər" kimi tanınan ərazi son illər başdan-başa yenilənib. Müasir memarlıq layihələri əsasında ucaldılmış yaraşıqlı binalar dünyaya yeni şəhərsalma konsepsiyası təqdim edir. Xatırladaq ki, "Bakı Ağ şəhər" layihəsi ilk növbədə Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata vəsiqə alıb və hazırda uğurla reallaşdırılır.



Paytaxtın tarixi məhəlləsinin küçələri simasını dəyişir. Fəvvarələr meydanının gediş-gəlişi Qış parkına qovuşur. Bakının mərkəzi deyəndə ilk ağlımıza gələn məkan Fəvvarələr meydanı ilə Qış parkı arasında qısa məsafə olur. Çox da uzun olmayan bu küçələrdən piyada getmək heç də asan deyil. Dar səkilər, nizamsız park edilmiş maşınlar və piyada axınını boğan qarışıqlıq bu marşrutu maneəli zolağa çevirib. Hazırda paytaxtın İslam Səfərli küçəsində həyata keçirilən genişmiqyaslı yenidənqurma işləri Bakının mərkəzi hissəsinin çağdaş şəhər mənzərəsində keyfiyyət dəyişikliyini yaradır. Bakı Şəhər İcra Hakimiyyətinin təqdim etdiyi bu layihə şəhərin 2 əsas zonası - Fəvvarələr meydanı ilə Qış parkı arasında makro-infrastrukturun həllidir. Layihənin icrası zamanı tətbiq edilən yanaşma müasir şəhərsalmanın davamlılıq prinsiplərinə əsaslanır. Bakı Şəhər İcra Hakimiyyətindən bildirilib ki, Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına uyğun olaraq, paytaxtda piyada zonalarının yaradılması və geniş abadlıq-quruculuq işləri davam etdirilir. Bu istiqamətdə icra olunan layihələrdən biri də paytaxt sakinlərinin və şəhərə gələn qonaqların sıx istifadə etdikləri ərazilərdən sayılan İslam Səfərli küçəsini əhatə edir. Küçənin piyadayönümlü formata keçirilməsi məqsədilə intensiv işlər aparılır. Bütün küçəboyu mövcud kommunikasiya xətləri tam yenilənib. Küçənin əksər hissəsində beton örtüyü salınıb, yaşıllıq üçün xüsusi yerlər yaradılıb, işıq dirəklərinin quraşdırılmasına başlanılıb. Küçənin böyük hissəsində daş döşəmələrin salınması işləri yekunlaşıb, artıq oturacaqlar quraşdırılıb, ümumi görünüş mərhələli şəkildə müasir piyada məkanına uyğunlaşdırılır. Bu işlər 1 kilometrdən çox ərazini əhatə edir. Eləcə də Təzəpir məscidinin ətrafında söküntü işləri aparılır, Mərdəkandakı "Dendrologiya bağı"nda isə əsaslı təmir həyata keçirilir. Bu layihələr vətəndaşlar üçün daha rahat, təhlükəsiz və funksional mühitin formalaşdırılmasına yönəlib.

Ekspertlərin də qeyd etdiyi kimi, Bakı kimi böyük şəhərin müəyyən ərazilərində nəqliyyat vasitələrinin hərəkətinin məhdudlaşdırılması dünyada geniş yayılmış təcrübədir. Bu, həmin küçə və meydanlarda nəqliyyatın hərəkətində, eləcə də digər yaşayış məntəqələri ilə əlaqələndirilməsində narahatlıq yaratmır. Lakin istisnalar nəzərdə tutulur: operativ xidmət maşınları, ərazidə fəaliyyət göstərən obyektlərin logistika ehtiyacları, eləcə də həmin ərazidə yaşayan sakinlərin fərdi avtomobilləri üçün xüsusi qayda tətbiq edilir. Paytaxtda bunun nümunələri var. Məsələn, İçərişəhərdə tətbiq olunmuş qayda bunun bariz göstəricisidir. Xaqani bağı ətrafında, eləcə də müəyyən günlərdə, bayram və istirahət günlərində bəzi ərazilərdə nəqliyyatın hərəkəti məhdudlaşdırılır.

Müasir şəhərsalmada piyada zonalarının yaradılması tarixi irsin qorunması üçün zərurətdir. Odur ki, bu qaydaları daha da təkmilləşdirərək tətbiq etmək şəhərimizin sosial mənzərəsini müsbətə doğru dəyişə bilər. Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycanda 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi təsadüfi deyil. 2024-cü ildə respublikamızda BMT-nin ən mühüm və ən böyük tədbirlərindən biri olan iqlim konfransı - COP29 böyük uğurla baş tutdu. 2026-cı il mayın 17-22-də isə Bakı şəhərində Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) keçiriləcək. Dünyanın nəzərləri yenidən Azərbaycana yönələcək, müasir dövrdə qlobal şəhərsalma çağırışları ölkəmizdə müzakirə olunacaq.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

● Narkomaniyaya qarşı mübarizə dövlət siyasətidir

# "Ani "xoşbəxtlik" insanı ömürlük bədbəxt edə bilər"

**Müasir dövrdə cəmiyyətin sağlamlığı yalnız tibbi deyil, həm də sosial təhlükəsizlik və milli gələcək məsələsidir. Xüsusilə narkotik asılılığına qarşı mübarizə dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi daim diqqət mərkəzində saxlanılır. Bu sahədə həyata keçirilən tədbirlər, o cümlədən profilaktik proqramlar və müalicə mexanizmləri barədə daha ətraflı məlumat almaq üçün Respublika Narkoloji Mərkəzinin baş direktoru, tibb üzrə fəlsəfə doktoru Fəzail Sadıqovla həmsöhbət olduq.**



*- Fəzail həkim, istərdik ki, öncə oxucularımıza narkotik asılılığın anatomiyasını açasınız. Bu nə bəladır ki, bütün dünya onun qarşısında aciz qalıb?*

- Bildiyimiz kimi, sovet dövründə səhiyyə sistemində əhalinin dispanserizasiyası deyilən bir prinsip var idi. Müxtəlif növlü psixoterapiya, narkoloji, vərəm əleyhinə, dəri zöhrəvi xəstəliklər dispanserləri fəaliyyət göstərirdi. Bu dispanserlərin funksiyası əhali arasında xəstəliklərin erkən aşkar edilməsi idi. Onu da deyim ki, Qərb ölkələrində belə bir anlayış yoxdur. Almaniyada bir hospital var, bir də ambulatoriya. Elə ölkələr var ki, orada narkotik asılılığı olan şəxslərin heç qeydiyyatı aparılmır. Amma ümumən Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) səviyyəsində götürəndə belə qəbul olunur ki, əksəriyyət ölkələrdə narkoloji qeydiyyat məsələsi mövcuddur. Burada bir tibbi, sosioloji və hüquqi yanaşma var. Bu nə deməkdir? Bizim mərkəzə hərbi səfərbərliklə bağlı insanlar gəlir, onları müayinə edirik. Amma bizdən soruşulmur ki, onların arasında narkoman var ya yox. Bizim vəzifəmiz diaqnoz qoymaqdır. Diaqnozlar da ÜST-nin qəbul etdiyi normalara əsaslanır. Burada bir məsələyə diqqət yetirməyi vacib hesab edirəm. Belə götürsək, tütün çəkmək sağlamlığa zərər vursa da, cəmiyyətdə qəbul olunur, baxmayaraq ki, tütün də bir psixi aktiv maddədir və asılılıq verir, insanlar bu asılılıqdan asanlıqla xilas ola bilmirlər. Bu dəqiqə biz Azərbaycanda siqaret çəkənləri qeydiyyata götürsək, onların sayı milyonlarla olacaq. Uzaqbaşı lazım gələndə bu, diaqnoz kimi yazılır. Lakin bütün hallarda tütün qeyri-tibbi məqsədlə qəbul edilən opium qrupuna daxil olunan narkotik deyil.

Azərbaycanda ən çox rast gəlinən narkotiklər opioidlər (heroin, tiryək və s.), kannobinoidlər (marixuana və s.) və psixostimulyatorlardır (amfetamin, metamfetamin və s.). Opioidlərin fəsadları istər sosial baxımdan, istərsə də tibbi baxımdan daha çoxdur. Onlar qısa zamanda çox güclü asılılıq verir və bundan irəli gələn qanun pozuntuları, bu maddələrin vena, əzələ, dəri altına yeridilməsi nəticəsində yaranan bir sıra somatik xəstəliklər (hepatitlər, QİÇS və s.) daha çox nəzərə çarpır. Son illər çox yayılmış psixostimulyatorlardan olan amfetamin, metamfetamin (patı) qəbulu da psixi pozuntular və somatik ağırlaşmalarla müşayiət olunur, onların satışı inzibati və hüquqi məsuliyyət yaradır. Bunları qəbul edən şəxslər aşkar olunanda onları narkoman kimi qeydiyyata götürürük. Qeydiyyatda olanların içində "polinarkomaniya" qrupuna daxil olan xəstələr də var. Bu nə deməkdir? Həmin qrupa daxil olanlar narkomaniyanın sonuncu mərhələsi sayılırlar. Bu cür xəstələr opium və bütün digər maddələri qəbul edir. Ona xroniki asılılıq deyilir, yəni artıq orqanizm elə bir həddə çatır ki, asılılığı olan şəxs beyni bir maddə ilə təmin edə bilmir, müxtəlif maddələri qəbul edir.

Yeri gəlmişkən qeyd edim ki, bizdə xəstələrin qeydiyyat müddəti 5 ildir. Yəni 5 ildə əmin oluruqsa ki, artıq adam narkotikdən istifadə etmir, Nazirlər Kabinetinin müvafiq qərarına əsasən adı siyahıdan çıxarılır.

Bir də var profilaktiki qeydiyyat. Bu nə deməkdir? Təsadüf nəticəsində bir nəfər düşdüyü mühitin təsiri ilə anaşa qəbul edərək narkotikin təsirindən kiçik bir qanun pozuntusuna, inzibati xətaya yol verib və nəticədə hüquq-mühafizə sisteminin əməkdaşları ilə "rastlaşıb". Müayinə edən zamanda qanın tərkibində narkotik maddə aşkarlansa da, məlum olur ki, adam həyatında cəmi bir dəfə narkotik maddə qəbul edib. Belə hal olanda həmin şəxsi narkotik asılılığı olan xəstə kimi yox, gələcəkdə xəstəlik yaranmasın deyə profilaktik qeydiyyata götürürük. Onu da deyim ki, qeydiyyatı da mərkəz olaraq biz aparmırıq. Hər bir insanın yaşadığı ərazilər üzrə narkoloji müəssisələr var. Ölkə üzrə poliklinikalarda təxminən 62 belə narkoloji kabinet fəaliyyət göstərir və qeydiyyatı da onlar aparır. Bundan əlavə, Gəncədə, Sumqayıtda, Lənkəranda, Mingəçevirdə narkoloji dispanser var. O dispanserlərdə də müalicə olunmaq üçün kifayət qədər normal şərait yaradılıb. Hazırda ölkəmizdə narkoloji xidmətin vəziyyəti bu cürdür.



Bir məsələni başa düşməliyik ki, narkomaniyadan söhbət gedəndə yalnız narkotik maddələrdən asılılığı olan şəxslərdən danışmamalıyıq. Narkomaniyanın ən geniş yayılmış bir növü də alkoqol asılılığıdır. Doğrudur, yeni kvalifikasiyada bu rəsmi xəstəlik kimi təsdiq olunmayıb, amma alkoqol da asılılıqdır. Bu yerdə bildirim ki, qumar asılılığı çox ciddi patologiyadır. Hətta bu asılılıq opiumdan da ağır fəsadlıdır, asılılığın ən təhlükəlisidir. Amma dünyanın əksər ölkələrində kazinolar, qumarxanalar var. Elə Amerikanın özündə nə qədər desən, onlara rast gəlmək olur. Las-Veqasdan bu yolla şəhərin büdcəsinə böyük məbləğdə vəsait yığılır. Ancaq fərd olaraq insanlar üçün bu, çox böyük təhlükədir. Buna baxmayaraq, insanlar ora gedir. Fərqə diqqət edək: opium qəbul edən insanların müflisləşməsi illərlə çəkir, amma qumar asılılığı olan adam bir günün içində müflis ola bilər. Bir günün içində evini, bütün var-dövlətini uduzanlar azmıdır?

*- Narkotik maddələrə aludə olan şəxslər daha çox hansı yaş qrupuna aiddir?*

- Bu, əsasən gənclərin xəstəliyidir. İnsan beyninin alın payı - qərarvermə, özünüidarə və planlaşdırma mərkəzi təxminən 25 yaşa qədər tam formalaşır. Bu səbəbdən yeniyetmələr və gənclər riskə daha açıqdırlar. Çünki hələ beyin tam inkişaf etməyib. Fikir versəniz görərsiniz ki, cavanlar arasında bəzən ən adi bir iş üstündə dava olur, hətta adi bir söz üstündə bədbəxt hadisələr baş verir. Amma yaşlı insanlar arasında belə hallar çox az olur. Çünki yaşlı insanlarda beyin formalaşdığı üçün hərəkətlərinə, sözlərinə nəzarət edə bilir. Ona görə təbii olaraq cavanlarda narkotik aludəçisi daha çoxdur. Ona görə mən həmişə dönə-dönə deyirəm ki, böyüklərin borcu cavanları qorumaqdır. Onlar səhv edirlər, sonra illərlə onu düzəldə bilmirlər.

Qadınlar arasında da asılılıq halları var və onların aşkarlanması daha çətindir. Rəsmi qeydiyyatda 1000-ə yaxın qadın xəstə var. Onu da qeyd edək ki, qadınlar psixostimulyatorları bəzən arıqlamaq üçün qəbul edirlər. Amma bir də görürsən qadınlar arıqlamaq məqsədilə dərmanlar qəbul edir və bilmədən narkotik asılılığına tutulurlar. Bu cür dərmanlar daha çox İran tərəfdən gəlir. El arasında buna "patı" deyilir.

Narkotik dediyimiz maddələrin 98 faizi tibdə istifadə olunur. Opiumun tərkibi qırmızı lalədən alınır. Tuzanmorfin - hidroxloriddir. Amnapoldu, promidoldu - bunlar opiumdur, güclü ağrıkəsicidir. Onlardan ən çox onkologiyada istifadə olunur, cərrahiyyədə istifadə edilir.

*- Müalicə prosesinə cəlb edilən şəxslərin asılılıqdan tam xilasolma dərəcəsi ehtimalı barədə nə deyə bilərsiniz?*

- Tibdə insanların çox işlətdiyi belə bir söz var - "sağalma". Sağalma özü bir az qeyri-müəyyən anlayışdır. Elə isə sağalma nədir? Həm fiziki, həm psixi cəhətdən əvvəlki vəziyyətə qayıtmaq. Amma heç bir xəstəlikdən sonra insan əvvəlki vəziyyətə qayıtmır. Bu, heç vaxt olmur. Adi barmaq kəsildi, deyir ki, sağaldı, bitişdi, getdi. Heç bir insanın barmağı kəsiləndən sonta sağalıb əvvəlki kimi olmur. Çünki orada ən azı çapıq qalır. İnsan ürək krizi keçirir, guya sağalır və illərlə praktik cəhətdən sağlam yaşayır. Lakin kardioqrammada çapıq olduğu görünür. Nəyə görə bu belədir? Bunun tibbi izahı belədir: orta hesabla insan bədənində 37-38 trilyon hüceyrə var. Hər saniyədə onlardan 500 min-1 milyonu ölür və yeniləri yaranır. Yəni insan daim yenilənir. Bu o deməkdir ki, hər zaman insanın dərisi, qaraciyəri təzələnir, ümumiyyətlə, bütün hüceyrələr təzələnir. O ki qaldı asılılıqdan əziyyət çəkən xəstələrin müalicəsinin effektliliyinə, başqa sözlə, patoloji vəziyyətdən birdəfəlik qurtulması sualının cavabına, bu, birmənalı deyil. O, xəstənin yaşından, onun premorbid xüsusiyyətlərindən, hansı maddələrdən istifadə etməsindən və s. amillərdən asılıdır. İstənilən müalicə xəstənin vəziyyətinin yaxşılaşmasına, onun tibbi-sosial adaptasiyasının yüksəlməsinə kömək edir. Lakin söhbət müalicə nəticəsində alınan remissiyanın uzunmüddətli olmasından gedir. Axı tibdə xəstəliklərin əksəriyyəti xronikidir. Qan təzyiqi - hipertoniya zaman-zaman müalicə tələb edir. Bu cür xəstələr illərlə dərman qəbul edirlər. Ürəyində problemi olan xəstələr müalicə alır, əməliyyat etdirir. Narkotik asılılığı olan şəxslərdə də belədir. İnsanın ideal vəziyyəti onun doğuşdan sonra olan vəziyyətidir. Təbabətin vəzifəsi onu yenidən yaratmaq deyil, sağlamlığının keyfiyyətini yüksəltmək, ağrısız və uzun müddət yaşatmaqdır.

Narkotikdə təhlükə nədir? Bizim tənəffüs mərkəzi, orada apioid reseptorlar var. Ani ölüm verə bilir və onu xəstə hiss edir. Qaçır həkimə ki, mən ölürəm, narkotiki atmaq istəyirəm. Əslində, atmaq istəmir. Çünki artıq ona 2 qram doza təsir etmir, effekt vermir, dozanı qaldırır və ölüm təhlükəsi hiss edir. Ona görə "mən onu atmaq istəyirəm, müalicə almaq istəyirəm" deyir. Gəlir müalicə olunur, vəziyyəti düzəlir, gedir təzədən az dozadan başlayır və məmnunluq duyur. Yəni narkotiki bir dəfəyə atmaq çox çətindir.

Bizim ambulator reabilitasiya şöbəmiz var, burada psixoloqlarımız işləyir. Xəstənin kəskin dövründən sonra psixoloqları cəlb edirik. Bu, çox vacibdir. Xəstələrə psixoterapevtik üsullarla mənəvi dəstək veririk. Ona psixososial amillər deyilir. Xəstələr də çox razılıq edirlər. Yəni bir var onu sırf bioloji üsulla, iynə-dərmanla kritik vəziyyətdən çıxarasan, bir də var xəstəyə psixoloji üsullarla dəstək olasan.

*- Narkotik asılılığı fonunda sağalmaz və ya xroniki xəstəliklərə yoluxma halları ilə rastlaşırsınızmı? Bu xəstəliklər əsasən hansılardır?*

- İnsanlar sevdikləri vərdişlərdə pis bir şey görmürlər. Hətta elə adamlar var ki, onun asılılığını üzünə vuranda acığına gəlir. Universitetdə bir hörmətli professorumuz var idi. Tütün aludəçisi idi. Bir dəfə soruşdum ki, nə əcəb siqaretin ziyanlı olduğundan danışmırsınız? Cavabı belə oldu: "Nə danışım, özüm siqaret çəkirəm".

Burada insanın hansı narkotik qəbul etməsi də şərtdir. Opium qrupuna aid narkotik maddələr "qara bazar"da satılır. Təbii ki, tərkibinə müxtəlif maddələr qata bilərlər. Bir var onun özünün zərəri, bir də var dolayısı ilə olan zərəri. Bəs dolayısı ilə olan zərər nədir? Narkotik birmənalı olaraq insanların şəxsiyyətini dəyişir, onu başqalaşdırır. Amma belə baxırsan, normal adamdır. Halbuki belə deyil. Mütləq onun psixikasında dəyişiklik var. Narkoman iynədən istifadə edirsə, əksəriyyətində yoluxma olur. Nə qədər diqqətli olsalar da, beyinləri elə vəziyyətdə olur ki, bir şprisdən istifadə etdiklərinin fərqinə varmırlar. Nəticədə onun qaraciyərinə virus yoluxur. Opium iynə ilə vurulanda dəri, dərialtı xəstəliklər yaradır. Yerinə baxanda görürsən ki, bütün ayaq şişib, ağırlaşmış, fəsadlaşmış yaralar var. Hətta ayağı amputasiya edilənlər də olur. Venalar o qədər işlənir ki, düşmək çətinləşir.

Narkomanlığa qurşananların əksəriyyəti işsizlər, sosial qayğıdan kənarda qalanlar, kriminal mühitə yaxın olanlar, küçə həyatı yaşayanlar, aludəçi "dost"ların çevrəsində olanlardır. Onu da qeyd edim ki, onlarda düşüncə pozulmur, amma dəyişir, bizimki kimi olmur. Bu bəladır, sonu faciədir. Elə aktyorlar, müğənnilər var ki, saatlarla oxuyur, oynayır, yorulmur. Amma bir də eşidirsən gedib hoteldə ölüb. Səbəbi narkotik asılılığıdır. Uzağa getməyək, məşhur futbolçu Maradonanın narkotik asılılığı var idi.

Bu məqamda bir məsələyə toxunum. Hər bir insanın beynində müəyyən miqdarda narkotik var, onlar beynimizdə sintez olunur. Beynimizdə endogen nəşə, endogen opium var. Sual oluna bilər ki, onlar nə üçündür? Onların hamısının funksiyası var. Tibbin bugünkü gücünü, imkanlarını təsəvvür edin. Amma əsrlər öncə tibbin gücü aşağı idi, 10 min il əvvəl isə tibb heç yox idi. İnsanlar mağaralarda yaşayırdılar. Birdən biri yıxılıb qolunu, qıçını, ayağını sındıranda travmatik şokdan, dəhşətli ağrıdan ölə bilərdi. Lakin Allah insanı elə yaradıb ki, onda hər hansı bir sınıq olanda həmin endogenin - opiumun miqdarı ağrını kəsmək üçün öz-özünə artır. Bu gün dəhşətli ağrıları olan xəstələrdə istifadə olunan narkotik tərkibli dərmanlar niyə effekt verir? Çünki beynimizdə onu qəbul edən reseptorlar var. Onlar beynimizdə olan neyronlara təsir edir, təsir edəndə miqdarı artır. Narkotik qəbul edənlər onun dozasını qaldırırlar. Özlərini ani olaraq xoşbəxt aləmdə hiss edirlər, düşünürlər ki, qayğısızdırlar. Fərqində deyillər ki, ani xoşbəxtlik insanı ömürlük bədbəxt edə bilər.

*- Dövlət proqramında nəzərdə tutulan psixoloji dəstək və reabilitasiya mexanizmləri real praktikada hansı nəticələri verir?*

- Reabilitasiya mərkəzləri olması vacibdir. Bu gün adlarını reabilitasiya mərkəzi qoyanların fəaliyyətiləri haqqında yəqin ki, sizin də məlumatınız var. İlk növbədə qeyd etməliyəm ki, belə mərkəzlər yaradılırsa, mütləq orada tibbi təhsili olan adamlar, peşəkarlar çalışmalıdırlar. Tutaq ki, xəstə sağalmaq üçün gəlir həmin mərkəzə. Həmin mərkəzdə onun gündə nə qədər narkotik qəbul etdiyini nə cür müəyyən edəcəklər, yaxud xəstədə kəskin vəziyyət yarandı, tibbi müdaxilə lazımdır, ona nə cür müdaxilə edəcəklər? Bu və digər suallar açıq qalır.

"Respublika Narkoloji Mərkəzi" publik hüquqi şəxsində ambulator-reabilitasiya şöbəsi fəaliyyət göstərir. Şöbədə 7 psixoloq var. Reabilitasiya tədbirləri xəstənin sosial-əmək adaptasiya səviyyəsinin yüksəlməsində özünü göstərir.

*- Beynəlxalq təcrübə ilə müqayisədə Azərbaycanda bu sahədə vəziyyətin üstün və zəif tərəfləri hansılardır?*

- Bu gün Azərbaycan çox az ölkələrdəndir ki, narkoloji xəstələr üçün tibbi xidmət operativ və əlçatandır. Bunu adi statistik rəqəmlə göstərək: BMT-nin təqribən 10 il əvvəlki məlumatlarına əsasən, dünya üzrə 15-65 yaş arasında olan hər 20 nəfərdən biri - təqribən 250 milyon insan qadağan olunmuş narkotiklərdən ən azı bir dəfə istifadə edib. Onların da hər 10 nəfərdən birində xəstəlik, yəni asılılıq formalaşır və təxminən yarısı isə narkotikləri inyeksiya şəklində qəbul edir. İnyeksiya şəklində qəbul edən şəxslərin 10 faizində QİÇS müəyyən olunur. Dünya üzrə xəstələrin hər 6 nəfərindən biri müalicə ala bilir. Bu rəqəm Afrikada 18, Mərkəzi Amerika ölkələrində 11-dir. Azərbaycanda isə hər bir narkotik asılılığı olan xəstənin istənilən zaman müalicə almaq imkanı var. Problem kadrların az olmasındadır.

*- Profilaktik baxımından ailələrin, təhsil müəssisələrinin və cəmiyyətin üzərinə düşən əsas vəzifələr hansılardır?*

- Cəmiyyətin bu bəlaya münasibətdə ictimai qınağı, loyallıq göstərməməsi və ümumilikdə cəmiyyətin maarifləndirilməsi lazımdır. Hər bir ailə övladına normal tərbiyə verməli, ona ciddi nəzarət etməlidir.

*- Narkotik asılılığından əziyyət çəkən şəxslərə və onların ailələrinə vermək istədiyiniz əsas mesaj nə olardı?*

- Ailələr övladlarını nəzarətdən kənarda qoymamalı, narkotik istifadə etmələri ilə bağlı şübhə yarandıqda vaxt itirmədən həkimlərə müraciət etməlidirlər.

***Müsahibəni apardı:***
***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# Bakı "Neokolonializm və qlobal bərabərsizlik" adlı beynəlxalq konfransa evsahibliyi edir

**Bakı şəhəri Bakı Təşəbbüs Qrupunun (BTQ) təşkilatçılığı ilə "Neokolonializm və qlobal bərabərsizlik" adlı beynəlxalq konfransa evsahibliyi edir.**




AZƏRTAC xəbər verir ki, bu gün başlayan konfransda ilk dəfə olaraq müstəmləkə ərazilərinin yerli əhalisi ilə birbaşa yerində işləyən antropoloqlar və psixoterapevtlər, müstəmləkəçiliyə həsr edilmiş virtual muzeyin yaradılmasında iştirak etmiş ekspertlər, eləcə də həmin ərazilərdə fəaliyyət göstərən müstəqillik hərəkatlarının rəhbər şəxsləri, həmçinin neokolonializm sahəsində ixtisaslaşmış tədqiqatçılar iştirak edəcəklər.

Tədbir çərçivəsində müxtəlif sosial və mədəni kontekstlərdə müstəmləkəyə məruz qalmış xalqların travmatik və sosial təcrübələri, müstəmləkə güclərinin qanunsuz fəaliyyətindən qaynaqlanan struktur problemlər və davam edən bərabərsizlik hallarının birbaşa öyrənilməsi, eləcə də bu təcrübələrin sənədləşdirilməsi, təhlili və beynəlxalq müstəviyə çıxarılması üçün məlumatlara əlçatanlığın təmin olunması məsələləri ətrafında müzakirələr aparılacaq.

Eyni zamanda fərdi həyat hekayələrinin sənədləşdirilməsi və bu tipli materialların beynəlxalq platformalarda yayılması, xüsusilə kolonializmin əsarət altında yaşayan xalqlarda yaratdığı travmatik təsirlər və psixoloji nəticələrin elmi tədqiqat obyekti kimi nəzərdən keçirilməsi məsələləri gündəmə gətiriləcək. Müzakirələrdə həmçinin rəqəmsal və elmi platformaların beynəlxalq təşkilatların müvafiq virtual sistemləri ilə inteqrasiyası, müstəmləkəçiliyi tədqiq edən beynəlxalq araşdırma qrupları, ekspertlər və məhkəmə materialları üçün əlçatanlığın təmin olunması məsələləri diqqət mərkəzində olacaq.

Konfrans tarixi baxımdan əhəmiyyətlidir. Belə ki, ilk dəfə olaraq antropoloqlar və psixoterapevtlər müstəmləkə əsarətindən təsirlənən yerli əhali ilə birbaşa işləyərək fərdi və qrup müsahibələr aparıb, travmatik təcrübələri qiymətləndirib, həyat hekayələrini sənədləşdirib, həmçinin sosial, mədəni və psixoloji təsirləri sistemli şəkildə qeydə alıblar. Toplanmış materiallar beynəlxalq təşkilatlarla əməkdaşlıq edən məruzəçilər, ekspertlər və məhkəmələr tərəfindən istinad edilə biləcək etibarlı və şəffaf informasiya mənbəyi rolunu oynayır.

# "ASAN AI Hub" beynəlxalq analitik mərkəzin diqqətində

**Beynəlxalq analitik mərkəz olan "Oxford Insights" tərəfindən "Süni intellekt startap həllərinin dövlət sektoruna inteqrasiyası: Azərbaycanda "ASAN AI Hub" təcrübəsi" adlı məqalə dərc olunub. Məqalədə Azərbaycanda dövlət sektorunda süni intellekt həllərinin tətbiqi və innovativ ekosistemin formalaşdırılması istiqamətində atılan addımlar təhlil edilir.**




Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyindən AZƏRTAC-a verilən məlumata görə, yazıda xüsusi olaraq "ASAN AI Hub" təşəbbüsünün rolu vurğulanır. Qeyd olunur ki, həmin platforma dövlət qurumları ilə süni intellekt sahəsində fəaliyyət göstərən startaplar arasında effektiv əməkdaşlıq mexanizmi yaradır. Dövlət qurumlarının qarşılaşdığı reallıqlar açıq çağırış formatında təqdim olunur və innovativ həllər təklif edən komandalar arasından ən uyğun layihələr seçilərək pilot mərhələdə tətbiq olunur.

Məqalədə həmçinin "ASAN xidmət" modelinin dövlət xidmətlərinin göstərilməsində yaratdığı dönüş nöqtəsinə diqqət yetirilir. Bildirilir ki, ASAN modeli illər ərzində şəffaflıq, əlçatanlıq və vətəndaş məmnuniyyəti baxımından beynəlxalq səviyyədə nümunə kimi qiymətləndirilib və yeni texnoloji təşəbbüslər üçün möhkəm institusional baza formalaşdırıb.

Təhlildə vurğulanır ki, Azərbaycan süni intellekt və rəqəmsal transformasiya sahəsində regional innovasiya mərkəzinə çevrilmək istiqamətində sistemli addımlar atır. Dövlət-özəl sektor tərəfdaşlığına əsaslanan "ASAN AI Hub" modeli isə tədqiqat, startap və ictimai sektor arasında körpü rolunu oynayaraq innovasiyaların praktik tətbiqini sürətləndirir.

Məqalədə qeyd olunur ki, bu yanaşma yalnız texnoloji inkişafı deyil, həm də idarəetmədə səmərəliliyin artırılmasını, resursların optimallaşdırılmasını və vətəndaşyönümlü xidmətlərin genişləndirilməsini hədəfləyir. "Oxford Insights" tərəfindən aparılan təhlil "ASAN AI Hub"ın beynəlxalq miqyasda tətbiq oluna biləcək innovativ əməkdaşlıq modeli kimi qiymətləndirilə biləcəyini göstərir.

# Zabux məktəbliləri mina təhlükəsi ilə bağlı maarifləndirilib



**İşğaldan azad edilmiş ərazilərə "Böyük qayıdış" proqramı çərçivəsində sakinlərin təhlükəsizliyinin təmin edilməsi və mina təhdidlərinə qarşı mübarizə məqsədilə maarifləndirmə tədbirləri genişləndirilir.**

AZƏRTAC xəbər verir ki, bu silsilədən növbəti görüş Laçın rayonunun yenidən salınmış Zabux kəndində məktəbli uşaqlar üçün təşkil olunub.

Tədbir Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi və Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) təşkilatçılığı, eləcə də Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin dəstəyi ilə baş tutub.

Tədbir zamanı ANAMA-nın mütəxəssisi tərəfindən şagirdlərə mina və partlamamış hərbi sursatların təhlükəsi, şübhəli əşyaların tanınma nişanələri barədə ətraflı məlumat verilib, təhlükəli ərazilərdə davranış qaydaları izah edilib, maarifləndirici broşürlər təqdim olunub.

# İslam aləminə on bir ayın sultanı gəlib

**Bu gündən Ramazan ayı başlayır. Qafqaz Müsəlmanları İdarəsinin açıqladığı 2026-cı il üzrə Ramazan təqviminə əsasən, orucluğun ilk günü fevralın 19-na təsadüf edir. Martın 8-i, 10-u, 12-si və 16-sı Qədr gecələrinə təsadüf edir. Ramazan bayramı isə martın 19-da qeyd ediləcək.**



İslam aləmində on bir ayın sultanı adlandırılan Ramazan ayı müsəlmanlar üçün əziz və müqəddəsdir. Səbəbi bu ayda baş vermiş mühüm dini hadisələrlə izah edilir. Onlardan biri islam dininin müqəddəs kitabı "Qurani-Kərim"in Həzrəti Peyğəmbərimizə (s.a.v.) Ramazan ayının gecələrinin birində nazil olmağa başlamasıdır. Həmin gecə "Qədr" və ya "Əhyə" gecələri adlanır.

İslamın ibadətlərindən biri olan oruc Allah-Təala tərəfindən müsəlmanlar üçün Ramazan ayında fərz buyurulub. Ona görə bu ibadətə həm də "Ramazan orucu" deyilir.

Oruc ibadəti islamın beş sütunundan biridir və Ramazan ayı ərzində müsəlmanlar sübh azanından məğrib azanınadək oruc tuturlar. Orucluğun məqsədi nəfsi tərbiyələndirmək və Allaha yaxınlaşmaqdır. Bu mübarək ay hər bir müsəlman üçün yalnız ibadət deyil, eyni zamanda xeyirxahlıq, mərhəmət, paylaşma və yardımlaşma ruhunun daha da gücləndiyi bir dövrdür.

Azərbaycan xalqı tarixinin ayrı-ayrı dövrlərində çox böyük məşəqqətlərə məruz qalıb. Yadellilərin məmləkətimizə hücumu, torpaqlarımızı işğal etmələri xalqımızı ağır sınaqlarla üz-üzə qoyub. İşğalçıların qəsdi yalnız Azərbaycanın ərazilərində hökmranlıq etmək olmayıb. Onlar həm də xalqımızı milli-mənəvi köklərindən ayırmağa, adət-ənənələrini unutdurmağa cəhd göstəriblər. Azərbaycan 1920-ci ildə bolşevik Rusiyası tərəfindən işğal edildikdən sonra da belə olub. Azərbaycan ötən əsrin yetmiş ilini Sovet Sosialist Respublikaları İttifaqının (SSRİ) tərkibində qalmalı olub. O böyük imperiyanın əsas məqsədlərindən biri Azərbaycan xalqının milli yaddaşını zəiflətmək, tarixinin bir sıra mühüm səhifələrini kölgədə qoymaq və dini dəyərlərini arxa plana keçirmək idi. Bu məqsədyönlü siyasətin içində xalqımızı dini inanclarından uzaqlaşdırmaq səyləri də vardı.

Lakin həyata keçirilən siyasət və ideoloji təzyiqlər istədikləri nəticəni vermədi. Uzun illər boyu sovet hökumətinin davamlı olaraq həyata keçirdiyi qadağalara rəğmən, xalqımız öz milli-mənəvi irsini və dini inanclarını qoruyub saxlaya bilib. Ramazan bayramını da heç bir antitəbliğatla, qorxu, xof yaratmaqla yaddaşlardan silə, unutdura bilməyiblər. Müsəlman aləminin müqəddəs bayramlarından olan Ramazan bayramı həmin illərdə bütün məhdudiyyətlərə baxmayaraq hər il qeyd edilib.

1990-cı illərdə SSRİ adlı nəhəng imperiyanın çökməsi, sovet ittifaqının tərkibindəki respublikaların müstəqilliyə qovuşması yeni bir tarixi mərhələnin başlanğıcı olub. Yetmiş ildən sonra azadlığına qovuşan Azərbaycan da artıq müqəddəratını özü müəyyənləşdirməyə başlayıb. Keçmişdə qalan sovet hökumətinin qoyduğu qaydalar, qanunlar, qadağalar aradan qalxıb. Azərbaycan xalqı artıq azad nəfəs alıb. Öz adət-ənənələrini, dini inanclarını sərbəst şəkildə yerinə yetirməyə başlayıb. Ramazan bayramı da 1993-cü ildən Azərbaycanda dövlət səviyyəsində qeyd olunur.

İslam dünyasının ayrılmaz hissəsi olan Azərbaycanda dini bayram və mərasimlər hər il qeyd olunmağa başlasa da, bir müddət xalqımızın qəlbindən qubar, könlündən qüssə silinmədi. Çünki bu mübarək ayı, müqəddəs Ramazan bayramını ölkəmizin bütün ərazilərində qeyd edə bilmirdik. 1990-cı illərdə Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur əraziləri Ermənistanın işğalına məruz qaldı. İşğal otuz ilə yaxın davam etdi. Düşmən o torpaqlarda maddi-mədəni və dini irsimizə divan tutdu. Rəsmi məlumatlara əsasən, Qarabağ və Şərqi Zəngəzur bölgəsində fəaliyyət göstərmiş 67 məsciddən 63-ü tamamilə, 4-ü isə qismən dağıdılıb. İşğal müddətində erməni vandalları məscidlərimizdə mal-heyvan saxlamaqla bütövlükdə müsəlman aləmini təhqir etməkdən, öz nifrətlərini açıq şəkildə nümayiş etdirməkdən çəkinməyiblər.

2020-ci ilin payızında baş verən 44 günlük Vətən müharibəsində Müzəffər Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrini məğlubiyyətə uğradaraq torpaqlarımızın işğalına son qoydu. Müharibə başa çatdıqdan qısa müddət sonra Prezident İlham Əliyevin göstərişi ilə işğaldan azad olunmuş ərazilərimizdə quruculuq işlərinə başlanıldı.

2023-cü ilin sentyabrında aparılan uğurlu antiterror tədbirlərindən sonra Azərbaycanın suverenliyi tam bərpa olundu. Bu gün Qarabağda və Şərqi Zəngəzurda həyat yenidən canlanır. Keçmiş məcburi köçkünlər mərhələli şəkildə abad edilmiş yurdlarına qayıdırlar. Artıq Azərbaycanın bütün bölgələrində olduğu kimi, Qarabağda və Şərqi Zəngəzurda da azan səsləri ucalır.

Müsəlmanlar üçün vacib ibadətlərdən biri olan orucun müddəti Ramazan təqvimləri, sübh və şamda azan vaxtları ilə müəyyənləşdirilir. Bu ibadətə əməl edənlər ay ərzində hər gün səhər dan yeri söküləndən axşam günəşin qürubunadək yemək yemir, su içmirlər. Ancaq oruc ibadəti, sadəcə, ac qalmaq deyil. Oruc tutanlar yalnız qidadan, sudan deyil, nalayiq davranışlardan, riyakarlıqdan, yalandan, qeybətdən, başqalarına zərər verməkdən, harama əl uzatmaqdan da çəkinməlidirlər.

Oruc ibadətinin məqsədi insanı pis əməllərdən çəkindirmək, doğru yola sövq etmək, xeyirxah işlərə yönəltməkdir. "Qurani-Kərim"in "əl-Bəqərə" surəsinin 183-cü ayəsində buyurulub: "Ey iman gətirənlər! Sizdən əvvəlkilərə vacib edildiyi kimi, sizə də oruc tutmaq vacib edildi ki, bəlkə (pis əməllərdən) çəkinəsiniz".

Həzrət Məhəmmədin (s.a.v.) hədislərində bu barədə bildirilib: "Kim yalan danışmağı və yalanla iş görməyi tərk etməzsə, Allah həmin şəxsin yemək-içməyi buraxmasına (ac qalmasına) qiymət verməz".

Ramazan ayı həm də birlik, bərabərlik, mehribanlıq ayıdır. Sübh açılan sahur və gün batımında qurulan iftar süfrələri bərəkət rəmzidir.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***


# OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*


# Azərbaycan idmançısı Qış Olimpiya Oyunlarında çıxışını tarixi nəticə ilə başa vurub

**Azərbaycanı İtaliyada keçirilən "Milan-Kortina-2026" Qış Olimpiya Oyunlarında dağ xizəyinin slalom növündə təmsil edən Anastasiya Papatoma növbəti çıxışını edib.**



Milli Olimpiya Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, Kortina d`Ampetsodakı Tofane Alp Xizək Mərkəzində keçirilən yarışda idmançımız 2-ci enişinə 59-cu sırada başlayıb. 18 yaşlı təmsilçimiz 64 iştirakçı arasında 1:07:34 saniyə göstərici ilə finiş xəttinə çatıb.

Bununla da Anastasiya Papatoma 2 cəhdin yekununa əsasən, 2:09:15 saniyə nəticə ilə XXV Qış Olimpiya Oyunlarındakı çıxışını 51-ci yerdə başa vurub. Onun bu çıxışı Azərbaycan üçün Qış Olimpiya Oyunlarının slalom yarışlarında tarixi nəticə hesab olunur.

İdmançımızın çıxışını Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə və Azərbaycan Qış İdman Növləri Federasiyasının prezidenti Fuad Nağıyev də izləyib. Xatırladaq ki, ilk enişində 92-ci sırada mübarizəyə başlayan Anastasiya Papatoma 1:01:81 saniyə göstərici ilə finiş xəttinə çatmışdı.

Azərbaycan komandası "Milan-Kortina-2026" Qış Olimpiya Oyunlarında 2 idmançı ilə təmsil olunub. Oyunların əvvəlki günlərində komandamızın üzvü Vladimir Litvintsev fiqurlu konkisürmə yarışlarının qısa proqramında çıxış edib. Hakimlər tərəfindən 63,63 bal alan idmançımız bu nəticə ilə sərbəst proqrama vəsiqə qazana bilməyib.

Qeyd edək ki, XXV Qış Olimpiya Oyunlarına fevralın 22-də yekun vurulacaq.


## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi **"İnklüziv cəmiyyət naminə bərabər hüquqlar və imkanların təşviq edilməsinə dəstək"** adlı təkrar müsabiqə keçirir

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqənin əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti, 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 05 mart 2026-cı il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

Müsabiqə 06 mart 2026-cı il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5032)

***Müsabiqə komissiyası***


# Cenevrədə "çətin, lakin işgüzar" görüş başa çatıb



**Cenevrədə Rusiya, Ukrayna və ABŞ-nin iştirak etdiyi danışıqların üçüncü raundu başa çatıb. Rusiya nümayəndə heyətinin rəhbəri Vladimir Medinski görüşü "çətin, lakin işgüzar" adlandırıb. ABŞ Prezidentinin elçisi Stiv Uitkoff danışıqlarda "əhəmiyyətli irəliləyiş" olduğunu bildirib. Ukrayna Prezidenti Volodimir Zelenski isə müzakirələrin siyasi deyil, hərbi aspektdə irəliləyişini qeyd edib.**

"Bildiyiniz kimi, danışıqlar iki gün keçirilib - ilk gün çox uzun müddət, müxtəlif formatlarda və növbəti gün təxminən iki saat davam edib. Çətin, lakin işgüzar idi", - deyə Rusiya nümayəndə heyətinin rəhbəri və Prezidentin köməkçisi Vladimir Medinski bildirib. O, həmçinin tezliklə yeni raundun baş tutacağını da açıqlayıb. Amma bu açıqlama Rusiya tərəfinin yeganə rəsmi şərhidir. Danışıqların üçüncü raundunun bitməsindən bir müddət əvvəl Kremlin sözçüsü Dmitri Peskov jurnalistlərə deyib: "Prezidentə birbaşa hesabatlar göndərilir, lakin aralıq nəticələri qiymətləndirmək hələ tezdir".

ABŞ nümayəndə heyəti də danışıqlardan sonra mətbuata heç bir açıqlama verməyib. İlk gündən sonra Stiv Uitkoff nəyi nəzərdə tutduğunu açıqlamadan "əhəmiyyətli irəliləyiş" olduğunu bildirib.

Ukrayna nümayəndə heyətinin rəhbəri, Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Rüstəm Umerov jurnalistlərə danışıqlardakı irəliləyişlər və bir sıra məsələlərin aydınlaşdırıldığı barədə məlumat verərək "təfərrüatların bu mərhələdə açıqlana bilməyəcəyini" qeyd edib. O, həmçinin Rusiya tərəfi ilə aparılan müzakirələri "intensiv və mənalı" adlandırıb. Umerov əlavə edib: "Növbəti addım hazırlanmış həll yollarını prezidentlərə təqdim etmək üçün lazımi səviyyədə konsensusu əldə etmək olmalıdır".

Cenevrədə iki gün davam edən danışıqlardan sonra Ukrayna Prezidenti Volodimir Zelenski jurnalistlərə hərbi istiqamətdə irəliləyişlər barədə danışıb. Onun sözlərinə görə, iki ölkənin nümayəndələri siyasi iradə olarsa, Amerika qüvvələri ilə atəşkəsin necə izləniləcəyi - monitorinqi barədə demək olar ki, razılığa gəliblər. Lakin siyasi məsələlərdə, xüsusən də Donbas və Zaporojye Atom Elektrik Stansiyası üzərində nəzarətlə bağlı V. Zelenski "hərbi irəliləyiş səviyyəsindəki kimi tərəqqi barədə heç bir məlumat eşitməyib".

Ukrayna Prezidenti həmçinin Avropa nümayəndələrinin Cenevrə danışıqlarında daha geniş iştirakını qeyd edərək deyib: "Avropanın varlığı bizim üçün çox vacibdir".

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Şimal və qərb rayonlarından başlayaraq hava bəzi yerlərdə arabir yağıntılı olacaq

Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, fevralın 19-da Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Gecə və səhər bəzi yerlərdə duman müşahidə ediləcək. Cənub-qərb küləyi gündüz arabir güclənən şimal-qərb küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 4-7, gündüz 18-23 dərəcə isti olacaq. Atmosfer təzyiqi 753 millimetr civə sütunundan 761 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət gecə 80-90, gündüz 65-70 faiz təşkil edəcək.

Azərbaycanın bölgələrində hava şəraiti şimal və qərb rayonlarından başlayaraq bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman müşahidə ediləcək. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 7-11, gündüz 17-22, dağlarda gecə 4-8, gündüz 8-13 dərəcə isti olacaq.

## ALLAH RƏHMƏT ELƏSİN!

Ağdamdan Vaqif Həsənov Xətai Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quluyevə atası

**ÇƏPƏRXAN QULUYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Vidadi Yusifli, Əsəd Babayev, Fəxrəddin Şirəliyev, İsrafil Bəkirov, İntiqam Soltan, Mahir Sadıxov, Rafiq Hüseynov və Hidayət İsmayılov dostları Gəray Göyyurda qardaşı tanınmış şair

**MUSA MƏLİK OĞLU ƏLƏKBƏRLİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3317**
**Sifariş 236**

**Qiyməti 60 qəpik**